RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 204 (10224) 5 noyabr 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Ölkəmizdə memarlıq və tikinti sahələrinə xüsusi diqqət yetirilir



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "AIREX 2026" sərgisi ilə tanış olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 4-də "Bakı-Ekspo" Mərkəzində keçirilən "AIREX 2026" - Birinci Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak Sərgisi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "PASHA Property Management" şirkətinin təşkilatçılığı ilə keçirilən Birinci Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak Sərgisində 47 yerli, 14 xarici olmaqla ümumilikdə 61 şirkət iştirak edir.

Qeyd edək ki, dövlətimizin başçısının sərəncamı ilə 2026-cı il ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunub. Sərginin təşkili ölkəmizdə daşınmaz əmlak, memarlıq və tikinti sahələrinin inkişafına dövlət səviyyəsində göstərilən diqqəti bir daha nümayiş etdirir. Sərgi mənzil almaq, yaşayış şəraitini yaxşılaşdırmaq və daşınmaz əmlaka investisiya yatırmaq istəyən şəxsləri, böyük investorları, şirkətlərin təmsilçilərini və sektorun peşəkarlarını vahid platformada birləşdirir, əmlak bazarının iştirakçıları arasında dialoqun genişləndirilməsi, təcrübə mübadiləsi və yeni əməkdaşlıq imkanlarının müzakirəsi baxımından mühüm rol oynayır.

2

Prezident İlham Əliyevin sosial media hesablarında "AIREX 2026" sərgisi ilə bağlı videoçarx paylaşılıb



Prezident İlham Əliyevin sosial media hesablarında "AIREX 2026" - Birinci Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak Sərgisi ilə bağlı videoçarx paylaşılıb.

https://www.facebook.com/reel/3335560263301475

Rəcəb Tayyib ƏRDOĞAN: "Prezident İlham Əliyevə ən səmimi arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram"

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Koreya Respublikasından səfərdən qayıdarkən təyyarəsi Azərbaycanın hava məkanına daxil olduqdan sonra laynerin pilotu dispetçerlə əlaqə saxlayıb.

AZƏRTAC xəbər verir ki, o, dövlətimizin başçısı İlham Əliyevə və Azərbaycan xalqına Prezident Rəcəb Tayyib Ərdoğanın ən səmimi arzuları ilə bağlı mesajını çatdırıb. Mesajda deyilir: *"Səfərdən qayıdarkən qardaş Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq, zati-alinizə cansağlığı və xoşbəxtlik kimi ən səmimi arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.*

Rəcəb Tayyib ƏRDOĞAN,
Türkiyə Respublikasının Prezidenti"

Nadir təcrübə

Diplomatik coğrafiyamız gün keçdikcə daha da genişlənir. Yarandığı gündən bəri sırasına əlavə üzv qəbul etməyən, 8 böyük müsəlman ölkəsini bir araya gətirən D-8 təşkilatı öz tarixində ilk dəfə genişlənmə qərarı verərək Azərbaycanı tamhüquqlu üzvlüyə qəbul etdi. Bu qərar Bakının Orta dəhliz və qlobal ticarət marşrutları üzərindəki əvəzsiz rolunu təsdiqləyir.



Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı kimi daxil olması Cənubi Qafqaz ilə Mərkəzi Asiyanın vahid geostrateji və iqtisadi məkan kimi birləşməsində ölkəmizin lokomotiv rolunu bir daha təsdiqlədi.

Azərbaycanın qlobal nüfuzunun ən parlaq səhifələrindən biri beynəlxalq ictimaiyyətin yekdil qərarı ilə evsahibliyi etdiyi COP29 sessiyası oldu. Bakı razılaşmaları çərçivəsində iqlim maliyyəsi sahəsində inqlabi addımların atılması və ildə ən azı 300 milyard dollar vəsaitin səfərbər olunması öhdəliyi ölkəmizin bəşəri problemlərin həllində aparıcı aktor olduğunu göstərdi. Azərbaycanın Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) evsahibliyi etməsi qlobal şəhərsalma gündəliyində növbəti mühüm addım oldu.

8

Milli qürurumuzun rəmzinə çevrilən Zəfər Günü

2020-ci il Zəfərindən sonra Qarabağda separatçı rejimin mövcudluğunu hələ də davam etdirməsi, ərazilərimizdə qanunsuz silahlı birləşmələrin saxlanılması və Ermənistanın hərbi təxribatları bu hədəfin reallaşdırılmasını, "dəmir yumruğ"un öz sözünü deməsini zəruri edirdi.



2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusu tərəfindən Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı ölkəmizin konstitusiya quruluşunun bərpası və suveren hüquqlarının təmin edilməsi baxımından tam həlledici mərhələ oldu. Cəmi 23 saatdan bir qədər artıq davam edən əməliyyat nəticəsində qanunsuz silahlı birləşmələrin, terrorçu dəstələrin fəaliyyəti dayandırıldı, separatçı rejim təslim oldu və Azərbaycan dövlətinin suverenliyi bütün ərazilərində bərpa edildi. Sentyabrın 20-də Prezident İlham Əliyevin xalqa müraciəti ilə antiterror tədbirlərinin uğurla başa çatdığı elan olundu. Beləliklə, 2020-ci ilin noyabrında Şuşada qazanılan Zəfərdən başlanan tarixi proses Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası ilə yekunlaşdı. 2023-cü il sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi tariximizə daxil oldu.

7

Azərbaycançılıq - milli birliyin, müstəqil dövlətçiliyin və etibarlı gələcəyin ideoloji əsası



Azərbaycançılığın məzmununu bir neçə fundamental anlayışın qarşılıqlı əlaqəsində görmək mümkündür: müstəqil dövlətçilik, milli kimlik, vətəndaş həmrəyliyi, dil və mədəniyyət, tarixi yaddaş, mənəvi dəyərlər və ümumbəşəri prinsiplərə açıqlıq. Bu ideologiyanın əsas xüsusiyyətlərindən biri milli və vətəndaş mənsubiyyətini bir-birinə qarşı qoymadan əlaqələndirmək imkanındadır.

Azərbaycançılıq bir tərəfdən Azərbaycan xalqının dilini, tarixini, mədəniyyətini və mənəvi irsini qorumağa yönəlir, digər tərəfdən Azərbaycan Respublikasını Vətən hesab edən, onun vətəndaşı olan müxtəlif etnik və dini mənsubiyyətli insanların ortaq siyasi birliyini ifadə edir. Bu baxımdan azərbaycançılığın etnik millətçilikdən fərqləndirilməsi mühüm əhəmiyyət daşıyır. Etnik mənsubiyyət insanın mənşəyi və mədəni kimliyi ilə bağlıdırsa, vətəndaş mənsubiyyəti onun dövlətlə hüquqi və siyasi əlaqəsini ifadə edir.

8



Ölkəmizdə memarlıq və tikinti sahələrinə xüsusi diqqət yetirilir

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "AIREX 2026" sərgisi ilə tanış olublar







Əvvəli 1-ci səh.

❖ ❖ ❖

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "PMD Group" şirkətinin stendi ilə tanış oldular.

Məlumat verildi ki, "PMD Group" 2013-cü ildən bəri daşınmaz əmlaka investisiya, layihələrin inkişafı və idarə edilməsi istiqamətində fəaliyyət göstərir. Şirkət yaşayış, kommersiya və ictimai-sosial təyinatlı layihələr icra edir. "PMD Group" layihələri konsepsiyadan tikintiyə və idarəetməyə qədər əhatə edən dörd istiqamət üzrə xidmət göstərir. Tikinti və layihələrin idarə edilməsi, memarlıq və dizayn, daşınmaz əmlakın idarə olunması, satışı və icarəsi, logistika və anbar xidmətləri şirkətin fəaliyyət istiqamətlərinə daxildir. "PMD Group" və ona daxil olan şirkətlər tərəfindən paytaxtdakı Zəfər parkının inşası həyata keçirilib, Bakı və Abşeronla yanaşı, işğaldan azad edilmiş rayonlarımızda da bir sıra layihələr icra olunub və hazırda bu işlər davam edir.

❖ ❖ ❖

Bildirildi ki, "PASHA Holding"in tərkibinə daxil olan "PAŞA Real Estate Qrup" daşınmaz əmlaka investisiya qoyuluşu, layihələrin inkişafı və əmlak aktivlərinin idarə edilməsi sahələrində fəaliyyət göstərir. Qrup Azərbaycanda və daha beş ölkədə - Türkiyə, ABŞ, Monteneqro, Gürcüstan və Özbəkistanda nüfuzlu beynəlxalq brendlərlə əməkdaşlıq çərçivəsində layihələr həyata keçirir. Azərbaycanın aparıcı daşınmaz əmlak şirkətlərindən biri olan "PAŞA Real Estate Qrup" beynəlxalq standartlara uyğun layihələri ilə Bakının müasir memarlıq simasının formalaşmasına töhfə verir. Onun layihələri tanınmış beynəlxalq memarlıq şirkətləri ilə əməkdaşlıq çərçivəsində reallaşdırılır. Qrupun fəaliyyət istiqamətləri daşınmaz əmlak layihələrinin inkişafını, hotel, yaşayış və ticarət obyektlərinin idarə olunmasını, həmçinin beynəlxalq hotel brendləri ilə əməkdaşlığı əhatə edir.

❖ ❖ ❖

Dövlətimizin başçısı, birinci xanım və qızları "Sea Breeze"in stendinə baxdılar, həyata keçirilmiş işlər və perspektiv layihələrlə tanış oldular.

Qeyd edildi ki, "Sea Breeze" 1000 hektardan çox ərazini əhatə edir. Gələcəkdə isə bu rəqəmin 1850 hektaradək artırılması nəzərdə tutulur. Burada tamamlanmış və həyata keçirilən layihələrin sayı 50-dən artıqdır. "Sea Breeze"də artıq 60 mindən çox rezident (sakin) var. Bütövlükdə isə layihə tam icra olunduqdan sonra "Sea Breeze"də 500 min sakin yaşayacaq.

Ərazidə icra edilən əhəmiyyətli layihələrdən biri 200 hektardan çox sahəsi olan "Fire Island" adasıdır. Layihə çərçivəsində beynəlxalq standartlara uyğun müasir infrastrukturun yaradılması planlaşdırılır. Buraya uzunluğu təxminən 5,5 kilometr olan və 18 döngədən ibarət "Formula-1" yarış trekinin inşası da daxildir.

"Sea Breeze"in flaqman layihəsi "Caspian Dream Liner"dir. Bu, süni yarımadada yerləşən apart-hotel layihəsidir.

Təxminən 50 hektar ərazini əhatə edən "Aypara" "Sea Breeze"in ən böyük və diqqətçəkən layihələrindəndir. Burada beşulduzlu hotellərin inşası nəzərdə tutulur. Bununla yanaşı, ərazidə brend mağazaların yerləşəcəyi ticarət küçələri, çoxfunksiyalı arena, həmçinin hündürlüyü 323 metr olacaq qüllə inşa ediləcək.

Əsas məqsəd "Sea Breeze"in beynəlxalq səviyyəli müasir şəhər kimi inkişafını davam etdirmək, xarici investisiyaları cəlb etmək, yeni iş yerləri yaratmaq, o cümlədən Azərbaycanın turizm və iqtisadi potensialının inkişafına töhfə verməkdir.

❖ ❖ ❖

Həmçinin məlumat verildi ki, 15 ilə yaxın təcrübəsi olan "Baku City Residences" şirkəti yaşayış və kommersiya məqsədilə daşınmaz əmlakın inşası və satışı üzrə fəaliyyət göstərir. Şirkətin layihələrində müasir memarlıq, əlverişli yerləşmə və əhatəli infrastruktur birləşir. Layihələrin icrasında keyfiyyət, dizayn və müasir şəhər həyatının tələbləri əsas götürülür. İndiyədək şirkət tərəfindən bir neçə layihə reallaşdırılıb. Gələcəkdə "Bakı Ağ Şəhər"in sahilyanı məhəlləsində "Baku Bay" layihəsinin inşası nəzərdə tutulur.

❖ ❖ ❖

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva sərgidə Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) stendi ilə də tanış oldular.

Diqqətə çatdırıldı ki, agentlik ölkədə vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə yaradılıb. Onun fəaliyyətinin əsas istiqaməti aztəminatlı və ortagəlirli ailələr üçün əlçatan, ekoloji təmiz və enerjiyə qənaət edən yaşayış komplekslərinin inşasıdır.

MİDA fəaliyyəti dövründə respublika üzrə ümumilikdə 20 layihəni icra edib. Bunlardan 7-si Bakıda, 3-ü Qarabağda, digər 10-u isə Gəncə, Abşeron, Sumqayıt, Lənkəran, Şirvan, Yevlax, Naxçıvan, Şəmkir və Salyandadır. Layihələrə binalarla yanaşı, məktəblər, bağçalar, tibb mərkəzinin inşası da daxildir.

Agentlik tərəfindən güzəştli mənzil layihələrindən Bakıda 5, regionlarda isə 6 layihə tamamlanıb. Hazırda agentlik paytaxt və bölgələrimizi əhatə edən 6 layihədən 3-nün icrasına başlayıb, 3 yaşayış kompleksi isə layihələndirmə mərhələsindədir.

❖ ❖ ❖

Dövlətimizin başçısı, birinci xanım və qızları Leyla Əliyeva "Fortis Development" şirkətinin stendi ilə tanış oldular.

Bildirildi ki, şirkət yaşayış və kommersiya obyektlərinin tikintisi ilə yanaşı, tarixi və memarlıq abidələrinin bərpası, bina fasadlarının yenilənməsi və ictimai məkanların abadlaşdırılması ilə məşğul olur və 10 ildən artıq təcrübəsi var. İndiyədək şirkət tərəfindən paytaxtda







Şəhriyar və Səadət parklarının abadlaşdırılması, Balaxanı qəsəbəsində abadlıq işləri, Mərdəkan qəsəbəsində Pir Həsən ziyarətgahının və Əmircan qəsəbəsində İmam məscidinin təmir-bərpası, COP29 ərəfəsində Bakıda 40-dan çox binanın bərpası həyata keçirilib. Şirkət tərəfindən mədəni irs layihələri də icra edilib.

❖ ❖ ❖

Memarlıq, planlaşdırma və interyer dizaynı sahələrində fəaliyyət göstərən "Chapman Taylor" şirkəti 1959-cu ildə Londonda yaradılıb. "Chapman Taylor" beynəlxalq memarlıq şirkəti kimi 100-dən çox ölkədə layihələr həyata keçirib, 300-dən çox memarlıq mükafatı qazanıb. Şirkət ölkəmizdə də bir sıra layihələr icra edib. Şuşa, Cəbrayıl, Xankəndi və Naxçıvan şəhərlərinin Baş planlarının müəllifi olan "Chapman Taylor" bu şəhərlərlə yanaşı, Bakı, Gəncə, Ağdam, Füzuli və Qusarda bir çox yaşayış və ictimai binanın layihələndirilməsini həyata keçirib.

Şirkət tərəfindən Şuşa, Cəbrayıl, Xankəndi, Füzuli və Ağdamda yaşayış məhəllələrinin inşası, mövcud binaların fasadlarının yenilənməsi və digər sosial layihələr icra olunub, bir neçə layihə isə icra mərhələsindədir.

❖ ❖ ❖

Birləşmiş Ərəb Əmirliklərinin "Modon Holding"i də sərgidə iri ekspozisiya ilə təmsil olunur. Şirkət innovasiyalara yönəlmiş fəaliyyət sahəsində ixtisaslaşıb, istehsal proseslərinin rəqəmsallaşdırılması və müasir standartlara keçid istiqamətində müxtəlif proqramlar reallaşdırır. Təklif edilən təşviq mexanizmləri arasında məsləhət xidmətləri, maliyyələşdirmə proqramları, yerli məzmunun inkişafına dəstək tədbirləri, həmçinin sənaye infrastrukturu və hazır istehsal sahələrinin təqdim edilməsi yer alır. Şirkət sərgidə Böyükşor gölü ərazisinin inkişaf planının konsepsiyasını təqdim edib.

❖ ❖ ❖

"Bakı Ağ Şəhər" layihəsi dünyada müasir şəhərsalma konsepsiyasının ən parlaq nümunələrindən biridir. İcrasına Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2011-ci il dekabrın 24-də başlanılan layihə ekoloji cəhətdən təmiz, dayanıqlı və "ağıllı şəhər" prinsipləri əsasında hazırlanıb. Burada şəhərsalmanın ən son yenilikləri tətbiq olunub. Əvvəllər "Qara şəhər" kimi tanınan bu ərazi 150 ildən çox müddətdə neft sənayesi tullantıları ilə çirklənib. Azərbaycan Prezidentinin təşəbbüsü ilə isə burada dünya miqyasında nadir ekoloji layihə icra olunaraq müasir yaşayış massivi yaradılıb. Yaşayış binaları MDB ölkələri arasında ilk dəfə olaraq BREEAM - beynəlxalq ekoloji sertifikatlaşdırma standartına və CRREM - karbon risklərinin qiymətləndirilməsi tələblərinə uyğun layihələndirilib. Geniş daxili küçələri, yaşıllıq sahələri, müasir beynəlxalq heykəltaraşlıq nümunələri ilə seçilən "Bakı Ağ Şəhər" paytaxtın iş, yaşayış və istirahət üçün ən müasir məkanına çevrilib.

"Bakı Ağ Şəhər" layihəsinin inkişafı çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə birlikdə neft sənayemizin zəngin tarixinə, onun dünya energetika sektorunda aparıcı roluna həsr olunmuş yeni muzey binası konsepsiyası hazırlanıb. Muzeydə keçmişdə ekoloji fəlakətlə üz-üzə olan "Qara şəhər"in müasir və dayanıqlı "Baku White City" şəhər məkanına transformasiyanın tarixi nümayiş olunacaq. Binada sərgi zalı, kitabxana, ofis otaqları, restoran və kafelər nəzərdə tutulur. Layihə çərçivəsində şəhərə və sahilə mənzərəsi olan 90 metrlik müşahidə qülləsi yaradılacaq.

"Bakı Ağ Şəhər" layihəsinin əsas rəmzlərindən biri olan "Gilavar" kompleksi ictimai məkanları, əyləncə obyektlərini, iaşə müəssisələrini, yaxta klublarını və təxminən 185 metr hündürlüyündə 49 mərtəbəli yaşayış binasını birləşdirir.

Layihə ADEC şirkəti və "Bürc-Xəlifə" layihəsinin müəllifi, hündürmərtəbəli binaların memarlığı üzrə dünya lideri Amerikanın məşhur SOM bürosu ilə birgə hazırlanıb.

"Ağ şəhər", eyni zamanda incəsənət və mədəniyyət həvəskarlarının da sevimli məkanına çevrilib. Belə ki, dünyanın tanınmış heykəltaraşları öz əsərlərinin burada quraşdırılmasında maraqlıdırlar. Bu xüsusda məşhur amerikalı heykəltaraş Robert Sammers tərəfindən yaradılan "Qarabağ atları" heykəltaraşlıq kompleksini, Zaman meydanında məşhur rəssam Konstantin Krik tərəfindən məhz "Bakı Ağ Şəhər" üçün hazırlanmış 7 saatdan ibarət "Seven Public Clocks" kompozisiyasını, məşhur heykəltaraş Cozef Klibanskinin "Buludların üstündə" adlı bürünc kompozisiyasını, müasir britaniyalı heykəltaraş Saymon Qadcenin "Nur axtarışında" heykəlini qeyd etmək olar.

❖ ❖ ❖

"Housing Development Corporation" (HDC) Maldivin məkan və iqtisadi transformasiyasını aparan əsas dövlət müəssisəsidir. HDC "ağıllı", inklüziv və dayanıqlı şəhərlərin salınmasında iştirak edir, əsas inkişaf layihələrinin idarəetməsini həyata keçirir. Şirkətin stendində logistika üçün mərkəzləşdirilmiş Sənaye Kəndi, yüksəktutumlu Cənub Limanı Ticarət Zonası və digər layihələr təqdim olunur. "Housing Development Corporation" sərgidə iştirak etməklə turizmdən əlavə, Maldivin kommersiya daşınmaz əmlakını, "yaşıl texnologiya"ları, "ağıllı" kommunal infrastrukturu və dəniz ticarəti sahələrindəki investisiya imkanlarını təqdim edir.

❖ ❖ ❖

"Silk Development" Gürcüstanda yaşayış və hotel layihələri həyata keçirən aparıcı şirkətdir. Batumidəki "Silk Towers" şirkətin əsas layihələrindəndir. Şirkətin stendində yaşayış, lüks hotel və çoxfunksiyalı layihələrdən ibarət portfel, dünyada tanınmış memarların layihələndirdiyi obyektlər, uzunmüddətli dəyərə hesablanmış və yüksəkgəlirli mülkiyyət modellərini təqdim edilir. "Silk Development"in bu sərgidə iştirakda məqsədi Xəzər regionunda fəaliyyətini genişləndirmək, investorlar, strateji tərəfdaşlar və brokerlərlə birbaşa əlaqə qurmaqdan ibarətdir.

❖ ❖ ❖

Çoxfunksiyalı yaşayış kompleksi olan "Luna Garden" Bakının dinamik inkişaf edən ərazilərindən birində, metronun "Koroğlu" stansiyasının və Böyükşor gölünün yaxınlığında yerləşir. "Koroğlu" stansiyasının yeni çıxışı birbaşa kompleksin ərazisindədir ki, bu da sakinlərin rahatlığının təmin edilməsində mühüm rol oynayır. Layihə 6,7 hektar ərazini əhatə edir və 9 binadan ibarətdir. Ərazinin 60 faizi yaşıllıq sahələri üçün nəzərdə tutulub.

❖ ❖ ❖

2003-cü ildən Azərbaycanın tikinti və daşınmaz əmlak sektorunda fəaliyyət göstərən "Kristal" Bakı və Sumqayıt şəhərlərində müasir standartlara cavab verən, yüksəkkomfortlu yaşayış komplekslərinin inşasını həyata keçirir. Şirkət öz layihələrində məktəb, uşaq bağçası, park, ticarət və digər sosial infrastruktur obyektlərini bir araya gətirən "şəhər içində şəhər" konsepsiyasını əsas götürür. Bu yanaşma sakinlər üçün rahat, funksional və müasir yaşayış mühitinin formalaşdırılmasına xidmət edir. "Kristal"ın bu istiqamətdə həyata keçirdiyi layihələr sırasında "City Garden Nərimanov", "Park Yasamal" və "Highland Residence" kimi yaşayış kompleksləri xüsusi yer tutur.

"Kristal" fəaliyyətində innovativ tikinti texnologiyalarının tətbiqinə, enerji səmərəliliyinin artırılmasına, ekoloji məsuliyyətə və dayanıqlı şəhərsalma prinsiplərinə xüsusi önəm verir. Sərgidə şirkətin təqdim etdiyi əsas yeniliklərdən biri müasir panel fasad sistemidir. Bu texnologiya yüksək istilik izolyasiyası, enerji itkilərinin azaldılması və binaların enerji səmərəliliyinin yüksəldilməsi baxımından mühüm üstünlüklərə malikdir.

❖ ❖ ❖

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Qarabağ Dirçəliş Fondunun stendinə də baxdılar.

Qeyd olundu ki, fond işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulmasına maliyyə dəstəyi göstərir, investisiya cəlb edir, dövlət-özəl tərəfdaşlığını təşviq edir və maarifləndirmə layihələri həyata keçirir. Fondun sərgidə iştirakının məqsədi onun fəaliyyət istiqamətləri və işğaldan azad edilmiş ərazilərdə aparılan irimiqyaslı bərpa-quruculuq işləri barədə ictimaiyyətin məlumatlılığının artırılması, ianəçilik mədəniyyətinin təbliğidir.

"Qarabağın Dirçəlişi: Azərbaycan İntibahının Hekayəsi" innovativ kitab layihəsi də maraqla qarşılanır. Fondun sifarişi ilə hazırlanmış kitabda Qarabağ həqiqətləri və Azərbaycan Prezidentinin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri əks olunub.

Stenddə həmçinin "Qarabağın inciləri" - Qarabağın tarixi-mədəni irsini, bərpa olunan abidələri və Zəfərdən sonra inşa edilmiş infrastruktur obyektlərini tanıdan rəmzi maarifləndirici oyun, "Qarabağ quiz" - Qarabağın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri və Vətən müharibəsi haqqında interaktiv viktorina və beynəlxalq ictimaiyyətin diqqətini mina təhlükəsinə yönəltmək məqsədilə fondun sifarişi ilə hazırlanan "Ölümcül Miras" sənədli filmi barədə də məlumat verilir.

❖ ❖ ❖

Qeyd edək ki, noyabrın 6-dək davam edəcək sərgiyə media dəstəyini Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) həyata keçirir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626, № 11, maddə 1013; 2026, № 1, maddələr 16, 19, № 3, maddə 211, № 5 (I kitab), maddələr 390, 391, 398, № 7 (I kitab), maddələr 613, 619) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 99-4.1-1-ci maddə əlavə edilsin:

"99-4.1-1.Hüquqi şəxs tərəfindən maliyyə əməliyyatları üzrə nəzarətin qanunvericiliklə müəyyən edilmiş qaydada təşkil edilməməsi nəticəsində bu Məcəllənin 99-4.1.1-99-4.1.3-cü maddələrində nəzərdə tutulmuş vəzifəli şəxslər xidməti vəzifələrinin icrası ilə əlaqədar bu Məcəllənin 214-1-ci maddəsində nəzərdə tutulmuş cinayəti törətdikdə hüquqi şəxsə cinayət-hüquqi tədbirlər cinayətin həmin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün tərədilməsindən asılı olmayaraq tətbiq edilir.";

1.2. 99-9-cu maddədə "Hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayət törətmiş şəxs" sözləri "Bu Məcəllənin 99-4.1.1-99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş şəxslər" sözləri ilə əvəz edilsin.

Maddə 2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; 2025, № 1, maddə 1, № 2, maddə 98, № 4 (I kitab), maddə 308, № 6, maddələr 529, 538, № 7, maddə 607, № 8, maddələr 736, 743,№ 11, maddə 1011; 2026,№ 3, maddə 211, № 4, maddə 294, № 5 (I kitab), maddə 391, № 7 (I kitab), maddələr 603, 604, 613) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.0.6-cı maddəyə "üçün" sözündən sonra ", habelə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1-1-ci maddəsində nəzərdə tutulmuş halda" sözləri əlavə edilsin;

2.2. 227-1-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsinin dindirilməsi bu Məcəllənin 227-ci, 229-cu və 230-cu maddələrində nəzərdə tutulmuş qaydalara uyğun olaraq aparılır.";

2.3. 487-2.1-ci maddənin birinci cümləsinə "üçün" sözündən sonra ", habelə həmin Məcəllənin 99-4.1-1-ci maddəsində nəzərdə tutulmuş halda belə məqsəd olmadan" sözləri əlavə edilsin;

2.4. 487-4.0.2-ci maddəyə "cinayətin" sözündən əvvəl" Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1-1-ci maddəsi nəzərə alınmaqla," sözləri əlavə edilsin;

2.5. 487-7.4-cü maddəyə "üçün" sözündən sonra ", habelə həmin Məcəllənin 99-4.1-1-ci maddəsində nəzərdə tutulmuş halda belə məqsəd olmadan" sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 oktyabr 2026-cı il

K.S.İmanovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə və əqli mülkiyyət hüquqları sahəsinin inkişafında böyük xidmətlərinə görə Kamran Sultan oğlu İmanov "Şərəf" ordeni ilə təltif edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2026-cı il

"Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası tərəfindən 1995-ci il yanvarın 10-da təsdiq edilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 512 (Cild I); 2025, № 2, maddə 115) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissənin birinci abzasında "Qlobal" sözü "Atmosfer havasının keyfiyyətinin təmin edilməsi, qlobal" sözləri ilə əvəz olunsun və həmin abzasa "ibarət" sözündən sonra "İqlim Dəyişmələri və Atmosfer Havasının Mühafizəsi üzrə" sözləri əlavə edilsin;

2. 2-ci hissəyə "keçirilməsini" sözündən sonra", eləcə də Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri ilə bağlı digər tapşırıqlarının icrasını" sözləri əlavə edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2026-cı il

"İcra haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 11-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114 (Cild I); 2024, № 4, maddə 365; 2025, № 1, maddə 1, № 2, maddə 100, № 4 (I kitab), maddələr 315, 322, № 5, maddə 440, № 6, maddələr 526, 536, № 7, maddələr 610, 617, № 8, maddələr 743, 744; 2026, № 5 (I kitab), maddə 393, № 7 (I kitab), maddələr 603, 625, 626) aşağıdakı məzmunda 46-1-ci maddə əlavə edilsin:

"Maddə 46-1. Tələbin borclunun qiymətli kağızlarına yönəldilməsi

46-1.1. İcra məmuru borclunun özündə aşkar edilən sənədli qiymətli kağızı dərhal götürərək, həmin qiymətli kağızın götürüldüyü gündən gec olmayaraq üzərinə həbs qoyulması barədə qərar qəbul edir və bu qərarın surətini mərkəzi depozitara, qiymətli kağızın emitentinə və qiymətli kağızı verən şəxsə göndərir.

46-1.2. İcra məmuru borclunun adına qeydə alınmış sənədsiz qiymətli kağızın, habelə mərkəzi depozitarda saxlanılan sənədli qiymətli kağızın olması barədə mərkəzi depozitardan rəsmi məlumat aldıqda həmin məlumatın alındığı gündən gec olmayaraq onun üzərinə həbs qoyulması barədə qərar qəbul edir və bu qərarın surətini mərkəzi depozitara, qiymətli kağızın emitentinə və qiymətli kağızı verən şəxsə göndərir.

46-1.3. Borclunun mülkiyyətində olan qiymətli kağızın üzərinə həbs qoyulması, həmin qiymətli kağıza sərəncam hüququnu və həmin qiymətli kağız üzrə ödənişlərin qəbulunu icra sənədinin icrası üçün lazım olan miqdarda və həcmdə məhdudlaşdırır.

46-1.4. Yönəldilən tələb miqdarında və həcmində bölgüsü mümkün olmayan qiymətli kağızlar üzrə sərəncam hüququna, tələbin miqdarı və həcmindən asılı olmayaraq, bütövlükdə həbs qoyulur.

46-1.5. Borclunun qiymətli kağızlarına dair məlumatların sorğulanması, üzərinə həbs qoyulması və tələbin həmin qiymətli kağızlara yönəldilməsi ilə bağlı tədbirlər "Elektron icra" informasiya sistemi vasitəsilə təşkil edilir.

46-1.6. Qiymətli kağıza tələb yönəldilərkən qiymətli kağız əvvəlki ticarət gününün sonuna olan qiymətdən aşağı olmayan qiymətə, belə qiymət mövcud olmadıqda isə nominal dəyəri ilə tələbkara təklif olunur. Tələbkar həmin təklifin qəbulu ilə bağlı iradə ifadəsini 7 iş günü müddətində bildirməli və bu hal tələbkar və icra məmuru tərəfindən imzalanan protokolla rəsmiləşdirilməlidir.

46-1.7. Qiymətli kağızın tələbkarın mülkiyyətinə keçirilməsi ilə əlaqədar icra məmuru 1 iş günü müddətində müvafiq olaraq mərkəzi depozitara, ödəyiciyə və ya investisiya şirkətinə müraciət edir. Tələbkarın depo hesabı olmadığı halda tələbkar sənədsiz qiymətli kağıza, habelə mərkəzi depozitarda saxlanılan sənədli qiymətli kağıza tələbin yönəldilməsinə qədər depo hesabı açılması üçün mərkəzi depozitarın üzvünə (investisiya şirkətlərinə və investisiya xidmətlərini (əməliyyatlarını) həyata keçirən banklara) müraciət etməlidir.

46-1.8. Əvvəlki ticarət gününün sonuna olan qiymətdən aşağı olmayan qiymət, belə qiymət mövcud olmadıqda isə nominal dəyər tələbkarın tələbindən artıq olduqda, tələbkar aradakı fərqi ödəyir və həmin artıq olan vəsait bu Qanunun 74-cü maddəsində müəyyən edilmiş borcludan tutulmuş pul məbləğinin bölüşdürülməsi qaydasına uyğun olaraq bölüşdürülür və bütün tələblər təmin olunduqdan sonra qalan pul məbləği borcluya qaytarılır.

46-1.9. Qiymətli kağızın verilməsi (depo hesabına köçürülməsi) təklifi tələbkar tərəfindən qəbul edilmədikdə qiymətli kağıza tələbin yönəldilməsi qiymətli kağızın tənzimlənən bazarda satılması yolu ilə həyata keçirilir. Qiymətli kağızların tənzimlənən bazarda satışı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir. Bu halda icra məmuru sifarişçi qismində çıxış edərək Azərbaycan Respublikasında fəaliyyət göstərən investisiya şirkətinə qiymətli kağızların tənzimlənən bazarda satışını həvalə edir. Qiymətli kağızların tənzimlənən bazarda satışı zamanı qiymətli kağız satışdan əvvəlki ticarət gününün sonuna olan qiymətdən aşağı olmayan qiymətə, belə qiymət mövcud olmadıqda isə nominal dəyəri ilə təklif olunur.

46-1.10. Qiymətli kağızın satışından daxil olan vəsait icra xidmətinin depozit hesabına köçürülür.

46-1.11. Qiymətli kağız tənzimlənən bazarda iki ay müddətində satışdan əvvəlki ticarət gününün sonuna olan qiymətdən aşağı olmayan qiymətə, belə qiymət mövcud olmadıqda isə nominal dəyəri ilə satılmadıqda bu barədə icra məmuruna məlumat verilir və həmin qiymətli kağız yenidən tələbkara nominal dəyəri ilə təklif olunur. Həmin təklifin rəsmiləşdirilməsi bu Qanunun 46-1.6-cı maddəsinin ikinci cümləsinə uyğun olaraq həyata keçirilir. Həmin təklif tələbkar tərəfindən qəbul edilmədikdə sənədli qiymətli kağız 3 iş günü müddətində borcluya qaytarılır, sənədsiz qiymətli kağızın borclunun depo hesabına qaytarılması üçün 1 iş günü müddətində mərkəzi depozitara bildiriş göndərilir.

46-1.12. Ödəniş vaxtı çatmış və üzərinə həbs qoyulmuş qiymətli kağızlar üzrə borcluya ödənilməsi nəzərdə tutulan vəsait icra sənədinin icrası üçün lazım olan miqdarda və həcmdə ödəyici tərəfindən icra xidmətinin depozit hesabına ödənilir.

46-1.13. Girov predmeti olan qiymətli kağızlara tələbin yönəldilməsi bu Qanunun 48-ci maddəsi nəzərə alınmaqla həyata keçirilir.

46-1.14. Bu maddənin tələbləri daşınmaz əmlak üzərində ipoteka hüququnu təmin edən ipoteka kağızına şamil olunmur.".

Maddə 2. "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 813 (Cild I); 2025, № 4 (I kitab), maddə 318, № 5, maddə 432, № 7, maddə 613; 2026, № 7 (I kitab), maddələr 619, 620) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 22-ci maddə üzrə:

2.1.1. 22.2-ci və 22.3-cü maddələrə "qərarı ilə" sözlərindən sonra "və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda" sözləri əlavə edilsin;

2.1.2. 22.6-cı maddənin ikinci cümləsinə "məhkəmə" sözündən sonra ", "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş halda icra məmuru" sözləri əlavə edilsin;

2.2. 28.2-ci maddənin ikinci cümləsində "və ya məhkəmənin" sözləri ", məhkəmənin və ya "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş halda icra məmurunun" sözləri ilə əvəz edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 27 oktyabr 2026-cı il

Atmosfer havasının çirklənməsinə qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, atmosfer havasının keyfiyyətinin yaxşılaşdırılması, hava çirklənməsinin insan sağlamlığına və ətraf mühitə mənfi təsirinin azaldılması, insanların sağlam ətraf mühitdə yaşamaq hüququnun təmin edilməsi, habelə ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə sahəsində Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinin və milli iqlim hədəflərinin icrası məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 30 aprel tarixli 560 nömrəli Sərəncamı ilə yaradılmış İqlim Dəyişmələri və Atmosfer Havasının Mühafizəsi üzrə Dövlət Komissiyası:

1.1.atmosfer havasının çirklənməsinin qarşısının alınması və keyfiyyətinin yaxşılaşdırılması sahəsində sistemli və əlaqələndirilmiş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə "Azərbaycan Respublikasında atmosfer havasının çirklənməsinə qarşı mübarizəyə dair 2028-2035-ci illər üçün Milli Fəaliyyət Planı"nın (bundan sonra - Milli Fəaliyyət Planı) layihəsini 2027-ci il noyabrın1-dək hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Milli Fəaliyyət Planının layihəsi hazırlanarkən aşağıdakıları təmin etsin:

1.2.1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də müəyyən edilmiş təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi prioritetlərinin Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin 21-ci Konfransında (COP21) qəbul olunmuş Paris Sazişi, habelə Tərəflərin 29-cu Konfransının (COP29) nəticələri və ölkəmizin "Yenilənmiş, 3-cü Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr" sənədi və "Azərbaycanın Uzunmüddətli Aşağıkarbonlu İnkişaf Strategiyası"nın hədəfləri ilə kompleks şəkildə həyata keçirilməsini;

1.2.2. atmosfer havasının keyfiyyətinin mövcud vəziyyətinin, əsas çirklənmə mənbələrinin və hava çirklənməsinin insan sağlamlığına və ətraf mühitə mənfi təsirinin qiymətləndirilməsini;

1.2.3. atmosfer havasının keyfiyyətinin monitorinqi sisteminin təkmilləşdirilməsini, atmosfer havasına atılan zərərli maddələrin, zərərli fiziki təsirlərin və onların mənbələrinin inventarlaşdırılması və dövlət uçotu mexanizmlərinin gücləndirilməsini, habelə transsərhəd çirklənmə üzrə məlumat mübadiləsi mexanizmlərinin beynəlxalq standartlara uyğunlaşdırılmasını;

1.2.4.əsas iqtisadi sahələr üzrə atmosfer havasına atılan zərərli maddələrin azaldılmasına yönəlmiş tədbirlərin müəyyən edilməsini və müvafiq ekoloji standartların təkmilləşdirilməsini;

1.2.5. qabaqcıl texnologiyaların və rəqəmsal nəzarət mexanizmlərinin tətbiqini və təkmilləşdirilməsini;

1.2.6. şəhər və digər yaşayış məntəqələrinin planlaşdırılmasında atmosfer havasının keyfiyyət meyarlarının nəzərə alınmasını, iri şəhərlərdə atmosfer havasının çirklənməsi səviyyəsinə uyğun zonalaşdırma prinsipinin tətbiqini və çirklənmə səviyyəsi yüksək olan ərazilər üçün əlavə tədbirlər planının hazırlanmasını;

1.2.7. iqtisadi stimullaşdırma alətlərindən, yaşıl maliyyələşmə və dövlət-özəl tərəfdaşlığı mexanizmlərindən istifadə imkanlarının müəyyən edilməsini;

1.2.8. atmosfer havasının keyfiyyəti barədə məlumatlara ictimaiyyətin çıxışı imkanlarının genişləndirilməsini;

1.3. Milli Fəaliyyət Planı layihəsinin hazırlanması zamanı qabaqcıl beynəlxalq təcrübədən yararlanmaq məqsədilə beynəlxalq təşkilatların, mütəxəssislərin və ixtisaslaşmış məsləhətçi şirkətlərin cəlb olunması, habelə yerli elmi təşkilatların və mütəxəssislərin, eləcə də vətəndaş cəmiyyəti institutlarının bu sahədə potensialından istifadə edilməsi imkanlarını qiymətləndirsin;

1.4. bu Sərəncamın 1.1-ci bəndinin icrasının təmin edilməsi üçün digər zəruri tədbirlər görsün.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 noyabr 2026-cı il

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Zəfər Günü münasibətilə zati-alinizə və qardaş Azərbaycan xalqına Pakistan Hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Bu tarixi hadisə Azərbaycan xalqının öz Vətəninin suverenliyini və ərazi bütövlüyünü bərpa etmək uğrunda göstərdiyi fədakarlığı, əzmkarlığı və birliyi təcəssüm etdirir. Azad edilmiş ərazilərin yenidən qurulması və inkişafı istiqamətində qazanılan mühüm nailiyyətlər Azərbaycanın öz xalqı üçün sülh və rifah dolu gələcəyin təmin edilməsinə qətiyyətlə sadiq olduğunu nümayiş etdirir.

Pakistan Azərbaycanla qarşılıqlı etimada, ortaq dəyərlərə və bir-birinə davamlı dəstəyə əsaslanan uzunmüddətli qardaşlıq əlaqələrini yüksək qiymətləndirir. Əminəm ki, müxtəlif sahələrdə əməkdaşlığımızı genişləndirdikcə, habelə regional sülh, sabitlik və rifah kimi ortaq məqsədlərimizə doğru birgə çalışdıqca ölkələrimiz arasında dostluq və qardaşlıq bağları daha da möhkəmlənməkdə davam edəcəkdir.

Bu əlamətdar gün münasibətilə Pakistanın Azərbaycanla sıx dostluq və həmrəyliyini bir daha təsdiq edir, zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayır, qardaş Azərbaycan xalqının davamlı tərəqqisi və firavanlığı ilə bağlı ən səmimi diləklərimi çatdırıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Asif Əli ZƏRDARİ,
Pakistan İslam Respublikasının Prezidenti

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Ölkənizin Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan Respublikasının Hökumətinə və xalqına daha da sürətli inkişaf və rifah arzulayıram.

İki dost ölkəni və xalqı birləşdirən, bütün sahələrdə möhkəmlənməsinə və inkişafına çalışdığımız qardaşlıq münasibətlərinin müstəsna əhəmiyyətə malik olduğunu xüsusi vurğulayıram.

Zati-alinizə salamlarımı və ehtiramımı bildirirəm.

Qardaşınız,

Salman bin Əbdüləziz Al SƏUD,
İki Müqəddəs Ocağın Xadimi,
Səudiyyə Ərəbistanının Kralı

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!

Ölkənizin Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan Respublikasının Hökumətinə və xalqına daha çox tərəqqi və firavanlıq arzulayıram.

Zati-alinizə dərin hörmət və ehtiramımı bildirirəm.

Məhəmməd bin Salman
bin Əbdüləziz Al SƏUD,
Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi,
Baş nazir

❖ ❖ ❖

Zati-aliləri!

8 Noyabr - Zəfər Günü münasibətilə zati-alinizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi, daimi sülh, rifah və firavanlıq arzularımı çatdırmaqdan şərəf duyuram.

Bu mühüm bayram Azərbaycan xalqının əzmkarlığını, birliyini və qətiyyətini əks etdirməklə yanaşı, sülhün dəyərini, həmçinin insanların sabitlik, təhlükəsizlik və firavan gələcəyə olan arzularını təcəssüm etdirir. Qoy, bu günün ruhu Azərbaycan və onun xalqı üçün yeni nailiyyətlərə ilham verməkdə davam etsin.

Mədəniyyətlər və sivilizasiyalar arasında qarşılıqlı anlaşmanı təşviq edən və körpülər quran mötəbər beynəlxalq platforma olan VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən böyük məmnunluq duydum. Bakıda zati-aliniz tərəfindən qəbul olunmaq xüsusi şərəf idi. Bu görüş bizə ortaq prioritetlərimiz və ICESCO ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi barədə dəyərli fikir mübadiləsi aparmaq imkanı yaratdı.

ICESCO ilə Azərbaycan Respublikası arasındakı səmimi və konstruktiv münasibətlər yüksək qiymətləndirilir. Bu, təhsil imkanlarının təşviqi, mədəni irsin qorunması, həmçinin xalqlar və sivilizasiyalar arasında dialoqun inkişafı sahəsindəki davamlı əməkdaşlığımızda öz əksini tapır. Əminəm ki, bu tərəfdaşlıq dərinləşərək təsir dairəsini genişləndirəcək, üzv dövlətlərimizə xidmət edən və daha dinc, harmoniyalı bir dünyaya töhfə verən birgə təşəbbüslər üçün yeni yollar açacaqdır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edir, dost Azərbaycan xalqına bir daha davamlı sülh, rifah və firavanlıq arzulayıram.

Dərin hörmətlə,

Səlim bin Məhəmməd əl-MALİK,
ICESCO-nun baş direktoru

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Zati-alinizi və Azərbaycan xalqını 8 Noyabr - Zəfər Günü münasibətilə Türk Mədəniyyəti və İrsi Fondu adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gün Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixinə milli iradənin, sarsılmaz birliyin və Vətənə bağlılığın təntənəsi kimi yazılmışdır. 44 günlük Vətən müharibəsində qazanılmış Qələbə yalnız Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə bərabər, həm də xalqın tarixi yaddaşında dərin iz qoyan, gələcək nəsillər üçün qürur və örnək mənbəyi olan böyük bir hadisədir.

Sizin müdrik rəhbərliyinizlə Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, doğma torpaqlarına qayıdan insanların həyatının yenidən qurulması, tarixi və mədəni irs nümunələrinin bərpası Azərbaycanın inkişaf yolunun mühüm göstəricisidir.

Zəfər Günü, eyni zamanda bütün türk dünyası üçün ortaq qürur və həmrəylik rəmzinə çevrilmişdir.

Bu xüsusda, Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyinin uğurla başa çatmasını xüsusi qeyd etmək istərdim. Sədrliyiniz dövründə irəli sürülən təşəbbüslər və həyata keçirilən tədbirlər təşkilatın fəaliyyətinə, üzv dövlətlər arasında əməkdaşlığın dərinləşməsinə və türk dünyasının beynəlxalq mövqeyinin gücləndirilməsinə mühüm töhfə vermişdir.

Fürsətdən istifadə edərək, zati-alinizi, həmçinin 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə də təbrik edirəm. Üçrəngli Azərbaycan Bayrağı müstəqilliyin, milli kimliyin və dövlət suverenliyinin rəmzi olmaqla yanaşı, Zəfərdən sonra ölkənin bütün ərazisində qürurla dalğalanaraq yeni tarixi məna qazanmışdır. Qoy, bayrağınız daim yüksəklərdə dalğalansın!

Zati-alinizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə yeni nailiyyətlər, qardaş Azərbaycan xalqına isə davamlı sülh, sabitlik və firavanlıq arzulayıram.

Dərin hörmət və ehtiramla,

Aktotı RAİMKULOVA,
Türk Mədəniyyəti və
İrsi Fondunun prezidenti

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi 8 Noyabr - Zəfər Günü münasibətilə Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqının sarsılmaz iradəsinin, milli birliyinin və həmrəyliyinin təcəssümü olan bu əlamətdar gün ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün və tarixi ədalətin bərpası naminə göstərilən misilsiz şücaətin, qətiyyətin və Vətənə sonsuz bağlılığın rəmzi kimi tarixin yaddaşına həkk olunmuşdur. Sizin qətiyyətli rəhbərliyinizlə Azərbaycanın qazandığı bu tarixi Zəfər milli həmrəyliyin daha da gücləndirilməsi, regionda davamlı sülhün və sabitliyin bərqərar olması baxımından mühüm əhəmiyyət kəsb edərək gələcək nəsillər üçün əbədi qürur və ilham mənbəyi olaraq qalacaqdır.

Zati-alinizin rəhbərliyi ilə Azərbaycanın türk dünyasında birlik, həmrəylik və qardaşlıq ruhunun möhkəmləndirilməsinə verdiyi dəyərli töhfələri, türk dünyasında əməkdaşlığın parlament meyarı kimi TÜRKPA-nın fəaliyyətinə, habelə yerləşmə ölkəsi kimi TÜRKPA Beynəlxalq Katibliyinə göstərilən diqqət və dəstəyi xüsusi qeyd edərək, zati-alinizə bir daha dərin minnətdarlığımı bildirirəm.

Bu xoş fürsətdən istifadə edərək, zati-alinizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına və türk dünyasına davamlı sülh, rifah və tərəqqi arzulayıram.

Yüksək hörmət və ehtiramla,

Ramil HƏSƏN,
Türk Dövlətləri Parlament
Assambleyasının baş katibi

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN 5 noyabr 2026-cı il

Baş nazir yanğın-xilasetmə idmanı üzrə dünya çempionatı çərçivəsində Azərbaycanda səfərdə olan nümayəndə heyəti ilə görüşüb



Noyabrın 4-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Bakıda keçirilən yanğın-xilasetmə idmanı üzrə kişilər arasında XXI və qadınlar arasında XII dünya çempionatı çərçivəsində ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşüb.

Nümayəndə heyətinə Rusiya Federasiyasının mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üzrə naziri, Belarus Respublikasının fövqəladə hallar naziri, Özbəkistan Respublikası fövqəladə hallar nazirinin birinci müavini, Qırğız Respublikası fövqəladə hallar nazirinin müavini, həmçinin Yanğınsöndürənlərin və Xilasedicilərin Beynəlxalq İdman Federasiyasının prezidenti daxildirlər.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə yanğın-xilasetmə idmanı üzrə dünya çempionatının Bakıda keçirilməsinin əhəmiyyəti vurğulanıb, yarışın bu idman növünün inkişafına və iştirakçı ölkələr arasında peşəkar təcrübə mübadiləsinin genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub. Azərbaycanda fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, o cümlədən yanğın təhlükəsizliyinin təmin edilməsi, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi və peşəkar kadr hazırlığı istiqamətində görülən işlərdən bəhs edilib.

Görüşdə yanğın-xilasetmə idmanının inkişafı və bu sahədə beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunub.

“Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 364 **Bakı şəhəri, 29 oktyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 fevral tarixli 351-VIIQD nömrəli Qanununun tətbiqi və "Patent haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 avqust tarixli 755 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 31 mart tarixli 637 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Əmtəə nişanlarının Dövlət reyestrinin aparılma Qaydasının və coğrafi göstəricilərin Dövlət reyestrinin aparılma Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 30 avqust tarixli 143 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 538 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş "Coğrafi göstəricilərin Dövlət reyestrinin aparılma Qaydası"nın 8-ci hissəsində "Apellyasiya" sözündən əvvəl "Agentliyin əqli mülkiyyət mübahisələri üzrə" sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Əmtəə nişanlarının Dövlət reyestrinin aparılma Qaydası"nın 8-ci hissəsində "Apellyasiya" sözündən əvvəl "Agentliyin əqli mülkiyyət mübahisələri üzrə" sözləri əlavə edilsin.;

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 oktyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 600 (Cild I); 2025, № 9, maddə 876) ilə təsdiq edilmiş "Əmtəə nişanlarının qeydə alınması barədə iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissənin "f" yarımbəndi üzrə:

2.1.1. birinci abzasda "sənaye mülkiyyətinin mühafizəsi üzrə" sözləri "Sənaye mülkiyyətinin mühafizəsinə dair 1883-cü il 20 mart tarixli" sözləri ilə əvəz edilsin;

2.1.2. ikinci abzasda "Konvensiyasının iştirakçısı olan" sözləri "Konvensiyasına tərəfdar çıxan" sözləri ilə əvəz edilsin;

2.2. 21-ci hissə üzrə:

2.2.1. adında "götürülməsi" sözü "çağırılması" sözü ilə əvəz edilsin;

2.2.2. 21.1-ci və 21.2-ci bəndlərdə "götürülə" sözü "çağırıla" sözü ilə əvəz edilsin;

2.2.3. 21.3--cü, 21.4-cü və 21.5-ci bəndlərdə "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

2.3. 30.2-ci bəndin ikinci abzasının birinci cümləsində "Konvensiyasının iştirakçısı olan" sözləri "Konvensiyasına tərəfdar çıxan" sözləri ilə əvəz edilsin;

2.4. 33.1-ci bəndin birinci abzasında "Apellyasiya şurasına" sözləri "Agentliyin əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya şurasına (bundan sonra - Apellyasiya şurası)" sözləri ilə əvəz edilsin.;

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 119 (Cild I) ilə təsdiq edilmiş "Patent müvəkkilləri haqqında Əsasnamə"nin 2.2-ci bəndin ikinci abzasına "Agentliyinin" sözündən sonra "əqli mülkiyyət mübahisələri üzrə" sözləri əlavə edilsin.

4. "Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 155 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 681 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. adında və 1-ci hissədə "sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan" sözləri "əqli mülkiyyət mübahisələri üzrə" sözləri ilə əvəz edilsin;

4.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan Apellyasiya şurası haqqında Əsasnamə" üzrə:

4.2.1. adında "sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan" sözləri "əqli mülkiyyət mübahisələri üzrə" sözləri ilə əvəz edilsin;

4.2.2. 1-ci hissə üzrə:

4.2.2.1. 1.1-ci bənddə "sənaye mülkiyyətinin mühafizəsi sahəsində mübahisələrə baxan" sözləri "əqli mülkiyyət mübahisələri üzrə" sözləri ilə əvəz edilsin və həmin bənddə "şurası"" sözündən sonra "(bundan sonra - Apellyasiya şurası)" sözləri əlavə edilsin;

4.2.2.2. 1.2-ci, 1.3-cü və 1.5-ci bəndlərdə "sənaye mülkiyyətinin" sözləri "əqli mülkiyyətin" sözləri ilə əvəz edilsin;

4.2.3. 2-ci hissənin ikinci abzasında "sənaye mülkiyyəti" sözləri "əqli mülkiyyət" sözləri ilə, üçüncü abzasında "sənaye mülkiyyətinin" sözləri "əqli mülkiyyətin" sözləri ilə əvəz edilsin;

4.2.4. 5.1-ci bəndin "i" yarımbəndində "sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasının iştirakçısı olan" sözləri "Sənaye mülkiyyətinin mühafizəsinə dair 1883-cü il 20 mart tarixli Paris Konvensiyasına tərəfdar çıxan" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 166 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 692 (Cild I); 2024, № 1, maddə 73; 2025, № 9, maddə 876) ilə təsdiq edilmiş "Coğrafi göstəricini qeydə almaq üçün iddia sənədinin verilməsi və ekspertizası Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. III fəslin 7-ci hissəsi üzrə:

5.1.1. adında "götürülməsi" sözü "çağırılması" sözü ilə əvəz edilsin;

5.1.2. 7.1-ci və 7.2-ci bəndlərdə "götürülə" sözü "çağırıla" sözü ilə əvəz edilsin;

5.1.3. 7.3-cü bənddə "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

5.2. IV fəslinin 5.1-ci bəndində "Apellyasiya şurasına" sözləri "Agentliyin əqli mülkiyyət mübahisələri üzrə Apellyasiya şurasına (bundan sonra - Apellyasiya şurası)" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 18 sentyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 749 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında əmtəə nişanlarının geniş tanınması Qaydaları"nın 1.4-cü bəndinə "Agentliyinin" sözündən sonra "əqli mülkiyyət mübahisələri üzrə" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 159 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Patent hüququnun girov qoyulması barədə müqavilələrin qeydiyyata alınması Qaydaları"nın 1.1-ci bəndində "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 aprel tarixli 63 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 357 (Cild I) ilə təsdiq edilmiş "İxtira və sənaye nümunəsi patentinin qüvvədə olma müddətinin uzadılması Qaydası"nın 1.1-ci bəndində "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189, № 3, maddə 264, № 4, maddələr 360, 387, № 5 (II kitab), maddələr 466, 470, 474, № 6, maddələr 559, 567, 592, №7 (II kitab), maddə 753; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 8 sentyabr tarixli 267 nömrəli, 9 sentyabr tarixli 287 nömrəli, 21 sentyabr tarixli 308 nömrəli, 9 oktyabr tarixli 330 nömrəli və 12 oktyabr tarixli 331 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nın 142270-ci və 142273-cü yarımbəndlərinə "Apellyasiya" sözündən əvvəl "Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin əqli mülkiyyət mübahisələri üzrə" sözləri əlavə edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 980 (Cild I); 2024, № 3, maddə 341) ilə təsdiq edilmiş "İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1.13-cü bənddə "İddia sənədinin verildiyi tarixdən" sözləri "İddia sənədi materiallarının rəsmi bülletendə dərcinə texniki hazırlıq başa çatanadək" sözləri ilə əvəz edilsin;

10.2. aşağıdakı məzmunda 1.9-1-ci və 1.24--1.26-cı bəndlər əlavə edilsin:

1.9-1.	Patentin qüvvədə saxlanılması üçün haqqın ödənilməsi patentin qüvvədə olduğu il başa çatanadək həyata keçirilmədikdə haqqın ödənilməsi müddətinə əlavə olaraq 6 (altı) ay müddətində möhlət verilməsi üçün	80 manat
1.24.	İddiaçının vəsatəti əsasında ixtiraya dair iddia sənədi barəsində ilkinlik iddiasına düzəlişlər və əlavələr edilməsi üçün	45 manat
1.25.	İddiaçının vəsatəti əsasında faydalı modelə dair iddia sənədi barəsində ilkinlik iddiasına düzəlişlər və əlavələr edilməsi üçün	40 manat
1.26.	İddiaçının vəsatəti əsasında sənaye nümunəsinə dair iddia sənədi barəsində ilkinlik iddiasına düzəlişlər və əlavələr edilməsi üçün	35 manat

10.3. 1.20-ci bənddə "sənədi barədə" sözləri "sənədində göstərilmiş obyekt üzrə" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1857 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Patentin alınması barədə iddia sənədinə aid Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1-ci hissə üzrə:

11.1.1. 1.4-cü bənddə "Xarici" sözü "Qanunun 27-2-ci maddəsi nəzərə alınmaqla, xarici" sözləri ilə və "iştirak etdiyi" sözləri "tərəfdar çıxdığı" sözləri ilə əvəz edilsin;

11.1.2. 1.10-cu bəndin ikinci cümləsi çıxarılsın;

11.1.3. 1.11-ci bənd ləğv edilsin;

11.1.4. 1.12-ci bənddə "28-ci maddəsinə" sözləri 28--28-3-cü maddələrinə" sözləri ilə əvəz edilsin;.

11.1.5. 1.14-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Yaradılan ixtira, faydalı model və sənaye nümunəsi barəsində işəgötürənlə işçinin münasibətlərini tənzimləyən müəllif müqaviləsinin və xidməti tapşırıq müqaviləsinin nümunəsi Agentlik tərəfindən müəyyən edilir.";

11.1.6. 1.16-cı bənddə "sənədində göstərilmiş" sözləri "edilən" sözü ilə və "əvvəlki" sözü "əvvəl verilən" sözləri ilə əvəz edilsin;

11.1.7. 1.17-ci bəndin üçüncü cümləsində "iddia sənədinin verildiyi gündən" sözləri "iddiaçının bu barədə Agentlik tərəfindən göndərilən bildirişi aldığı tarixdən" sözləri ilə əvəz edilsin;

11.1.8. 1.20-ci bənd ləğv edilsin;

11.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. İxtira barəsində iddia sənədinə dair tələblər

2.1. Qanunun 27-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq, iddia sənədinin tərkibi aşağıdakılardan ibarətdir:

2.1.1. müəllif (müəlliflər) və adına patent verilməsi xahiş edilən hüquqi və ya fiziki şəxs (şəxslər), həmçinin onların yerləşdiyi və ya yaşadığı yer göstərilməklə patent verilməsi barədə ərizə;

2.1.2. ixtiranın mahiyyətini tam açıqlayan və həyata keçirilməsi üçün kifayət qədər aydınlıq yaradan təsvir;

2.1.3. ixtiranın təsvirinə əsaslanan və mahiyyətini ifadə edən düstur;

2.1.4. iddia obyektinin mahiyyətinin başa düşülməsi üçün zəruri olan çertyojlar və başqa materiallar;

2.1.5. referat.

2.2. İddia olunan ixtira genetik ehtiyatlara əsaslanarsa, iddiaçı genetik ehtiyatların mənşə ölkəsi haqqında məlumatı təqdim etməli, əgər bu məlumat iddiaçıya məlum deyildirsə, genetik ehtiyatların mənbəyini açıqlamalıdır.

2.3. İddia sənədində iddia edilmiş ixtira genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklərə əsaslanarsa, iddiaçı hansının münasib olmasından asılı olaraq, genetik ehtiyatlarla əlaqəli olan ənənəvi bilikləri təqdim etmiş yerli xalqlar və ya yerli tayfa haqqında məlumatı və ya genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklərin mənbəyini açıqlamalıdır (təqdim edilmiş məlumatın doğruluğuna görə iddiaçı məsuliyyət daşıyır).";

11.3. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. İxtiranın vəhdətinə dair tələblər

2-1.1. Qanunun 27-ci maddəsinin 3-cühissəsinə uyğun olaraq ixtira barəsində iddia sənədi bir ixtiraya, yaxud öz aralarında vahid ixtiraçılıq fikri ilə əlaqəli olan bir qrup ixtiraya aid edilməlidir (vəhdətlik tələbi). İxtiranın vəhdətlik tələbi o zaman yerinə yetirilmiş hesab edilir ki, həmin ixtiralar, məcmu şəklində baxılan iddia olunmuş ixtiraların hər biri tərəfindən texnika səviyyəsinə verilən töhfəni (faydanı) müəyyən edən bir və ya bir neçə eyni və ya müvafiq texniki əlamətlərlə ifadə olunan qarşılıqlı əlaqə olsun.

2-1.2. İxtiranın vəhdətlik tələbi aşağıdakı hallarda gözlənilmiş sayılır:

2-1.2.1. ixtiranın düsturunda bir ixtira xarakterizə olunduqda;

2-1.2.2. ixtiranın düsturunda bir qrup ixtira barəsində aşağıdakı əlamətlər səciyyələndikdə:

2-1.2.2.1. onlardan biri digərinin alınması (hazırlanması) üçün nəzərdə tutulmalıdır (məsələn, qurğu və ya maddənin və onların bütövlükdə, yaxud bir hissəsinin alınması (hazırlanması üsulu);

2-1.2.2.2. onlardan biri digərinin həyata keçirilməsi üçün nəzərdə tutulmalıdır (məsələn, üsul və üsulun bütövlükdə və ya hərəkətlərindən birinin həyata keçirilməsi üçün qurğu);

2-1.2.2.3. onlardan biri digərinin istifadəsi (digərində istifadə) üçün nəzərdə tutulmalıdır (məsələn, üsulda istifadə üçün nəzərdə tutulmuş üsul və maddə; üsul və ya qurğu və onun bir hissəsi; üsul və ya maddənin yeni təyinat üzrə tətbiqi və bu yeni təyinatla onlardan istifadə üsulu; qurğu və ya maddənin yeni təyinat üzrə tətbiqi və tərkibinə bu qurğu və ya maddə daxil olan qurğu və ya maddə);

2-1.2.2.4. qurğu və ya maddənin yeni təyinat üzrə tətbiqi tərkibinə həmin qurğu və ya maddə daxil olan qurğu və ya maddə üçün nəzərdə tutulmalıdır;

2-1.2.2.5. ixtira eyni texniki nəticə alınmasını təmin edən, eyni təyinatlı və eyni növdən olan obyektlərə aid olmalıdır.";

11.4. 17-ci hissə üzrə:

11.4.1. adında "modelin qeydiyyatı üçün" sözləri "model barəsində" sözləri ilə əvəz edilsin;

11.4.2. 17.3-cü bənddə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin;

11.4.3. 17.4-cü bənddə "modelin qeydiyyatı ilə bağlı" sözləri "model barəsində" sözləri ilə əvəz edilsin;

11.5. 19.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"19.1. Qanunun 27-ci maddəsinin 3-cü hissəsinə uyğun olaraq faydalı model barəsində iddia sənədi bir faydalı modelə, yaxud öz aralarında vahid ixtiraçılıq fikri ilə əlaqəli olan bir qrup faydalı modelə aid edilməlidir(vəhdətlik tələbi). Faydalı modelin vəhdətlik tələbi o zaman yerinə yetirilmiş hesab edilir ki, həmin faydalı modellər arasında, məcmu şəklində baxılan iddia olunmuş faydalı modellərin hər biri tərəfindən texnika səviyyəsinə verilən töhfəni (faydanı) müəyyən edən bir və ya bir neçə eyni və ya müvafiq texniki əlamətlərlə ifadə olunan qarşılıqlı əlaqə olsun.";

11.6. 30-cu hissə üzrə:

11.6.1. adında "nümunəsinin qeydiyyatı üçün" sözləri "nümunəsi barədə" sözləri ilə əvəz edilsin;

11.6.2. 30.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"30.1. Qanunun 27-ci maddəsinin 4-cü hissəsinə uyğun olaraq sənaye nümunəsi barəsində iddia sənədinə aşağıdakılar daxil edilir:

30.1.1. müəllif (müəlliflər) və adına patent verilməsi xahiş edilən hüquqi və ya fiziki şəxs (şəxslər), həmçinin onların yerləşdiyi və ya yaşadığı yer göstərilməklə patent verilməsi barədə ərizə;

30.1.2. məmulatın zahiri görkəminin estetik xüsusiyyətlərini müəyyən edən sənaye nümunəsinin mühüm əlamətləri barədə aydın təsəvvür yaradan məmulatın şəkillərinin dəsti;

30.1.3. sənaye nümunəsinin mahiyyətini açıqlamaq üçün zəruri olduqda sənaye nümunəsinin mühüm əlamətlərini əks etdirən təsviri, məmulatın ümumi görkəminin çertyojları (o cümlədən, iddiaçının istəyinə görə onun elektron formada üçölçülü modeli), erqonomik sxemi, konfeksiya xəritəsi;

30.1.4. sənaye nümunəsinin yaradılması zamanı istifadə edilmiş və ya onda təcəssüm etdirilmiş mədəniyyətin ənənəvi ifadələrinin, ənənəvi biliklərin və ya genetik ehtiyatlarla əlaqəli olan ənənəvi biliklərin mənbəyinin açıqlanması (iddiaçı təqdim edilmiş məlumatın doğruluğuna görə məsuliyyət daşıyır).";

11.6.3. 30.5-ci bənddə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin;

11.7. 31-ci hissə üzrə:

11.7.1. adında "vahidliyi" sözü "vəhdətinə dair tələblər" sözləri ilə əvəz edilsin;

11.7.2. 31.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"31.1. Sənaye nümunəsi barəsində iddia sənədi bir sənaye nümunəsinə və ya Sənaye Nümunələrinin Beynəlxalq Təsnifatının (Lokarno təsnifatı) bir sinfinə aid olan bir qrup sənaye nümunəsinə aid olmalıdır.";

11.8. 32.2-ci bənddə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 453 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 11, maddə 1873 (Cild I); 2025, № 2, maddə 196) ilə təsdiq edilmiş "İxtira, faydalı model və sənaye nümunələrinin dövlət reyestrinə daxil edilməsi Qaydası"nın 1.9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

"1.9. Agentlik Qanunun 30-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq dərc olunmuş iddia sənədinə etirazın verilməsi müddəti qurtardıqdan və ya ixtira, faydalı model və ya sənaye nümunəsinə patentin verilməsinə dair qərar qəbul etdiyi tarixdən etibarən 2 (iki) ay ərzində ixtira, faydalı model və ya sənaye nümunəsinin qeydiyyatı, patentin verilməsi və dərc olunması üçün dövlət rüsumu ödənilməsi şərtilə ixtira, faydalı model və ya sənaye nümunəsini Reyestrdə qeydə alır və iddiaçıya patent verir.".

13. "İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması Qaydası"nın və "Dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 17 dekabr tarixli 478 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2062 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

13.1. adında və 1-ci hissədə "İddia sənədi üzrə məlumat axtarışının və" sözləri "Mahiyyətcə ekspertiza məqsədilə məlumat axtarışının və ixtira, faydalı model və ya sənaye nümunəsi barədə iddia sənədi üzrə" sözləri ilə əvəz edilsin;

13.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "İddia sənədi üzrə məlumat axtarışının və mahiyyətcə ekspertizanın aparılması Qaydası" üzrə:

13.2.1. adında "İddia sənədi üzrə məlumat axtarışının və" sözləri "Mahiyyətcə ekspertiza məqsədilə məlumat axtarışının və ixtira, faydalı model və ya sənaye nümunəsi barədə iddia sənədi üzrə" sözləri ilə əvəz edilsin;

13.2.2. 1-ci hissə üzrə:

13.2.2.1. 1.1-ci, 1.2-ci və 1.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"1.1. Bu Qayda "Patent haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra -- Qanun) 29-cu maddəsinin 10-cu hissəsinin beşinci abzasına uyğun olaraq hazırlanmışdır və ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədinin mahiyyətcə ekspertizası məqsədilə məlumat axtarışının (bundan sonra - məlumat axtarışı), habelə həmin ekspertizanın aparılması prosedurlarını müəyyən edir.

1.2. Məlumat axtarışı Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə (bundan sonra -- Agentlik) ixtira və faydalı model barədə iddia sənədinin daxil olduğu tarixdən 12 (on iki) ay, sənaye nümunəsi barədə iddia sənədinin daxil olduğu tarixdən isə 3 (üç) ay ərzində iddiaçının və ya digər maraqlı şəxsin vəsatəti əsasında obyektin patent qabiliyyətini müəyyənləşdirmək üçün aparılır.";

"1.4. Qanunun 3.3-cü, 3.4-cü maddələrində, 7-ci maddəsinin 8-ci hissəsində, 8-ci maddəsinin 6-cı hissəsində, 9-cu maddəsinin 5-1-ci, 6-cı və 7-ci hissələrində göstərilən obyektlərə patentlə hüquqi mühafizə verilmir və məlumat axtarışı aparılmır.";

13.2.2.2. 1.3-cü bənddə "Patentin alınması üçün iddia sənədi üzrə" sözləri "Məlumat" sözü ilə əvəz edilsin;

13.2.2.3. aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

"1.3-1. İlkin ekspertizanın keçirilməsi, habelə ilkin ekspertizanın müsbət nəticəsi üzrə ixtira, faydalı model və ya sənaye nümunəsi barədə iddia sənədlərinə dair məlumatların dərc edilməsi ilə bağlı məsələlər Qanunun 29-cu və 30-cu maddələri ilə tənzimlənir.";

13.2.3. 2-ci hissə üzrə:

13.2.3.1. 2.1-ci bəndin üçüncü cümləsi çıxarılsın;

13.2.3.2. 2.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"2.6. İddia sənədinin, o cümlədən Beynəlxalq və Avrasiya iddia sənədlərinin tərkibi, tərtib edilməsi, təqdim edilməsi, verilmə tarixinin müəyyən edilməsi, onda düzəlişlərin və əlavələrin edilməsi, yazışmaların aparılması, iddiaçıya bildirişlərin və sorğuların göndərilməsi, habelə iddia sənədi üzrə bilavasitə təmsiletmə Qanunun

26-27-2-ci maddələrinin tələblərinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 noyabr tarixli 437 nömrəli Qərarı ilə təsdiq edilmiş "Patentin alınması barədə iddia sənədinə aid Tələblər"ə (bundan sonra -- Tələblər) uyğun olaraq həyata keçirilir.";

13.2.4. 3-cü hissə üzrə:

13.2.4.1. 3.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.1. İxtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədi Qanunun 29-cu maddəsinin 1-ci hissəsində nəzərdə tutulan tələblərə cavab verdiyi halda Qanunun 29-cu maddəsinin 3-cü hissəsinə uyğun olaraq aşağıda göstərilənlərin müəyyən edilməsi məqsədilə iddia edilən ixtiranın, faydalı modelin və sənaye nümunəsinin ekspertizası həyata keçirilir:

3.1.1. ixtira obyektinin yeniliyi;

3.1.2. ixtira obyektinin istənilən sahədə məhsula və ya üsula aid olan texniki həllərinin mövcudluğu;

3.1.3. ixtiranın həmin sahədə çalışan mütəxəssis üçün mövcud bilgilərdən irəli gəlib-gəlməməsi;

3.1.4. ixtira obyektinin sənayedə tətbiq edilə bilməsi;

3.1.5. ixtiranın Qanunun 7-ci maddəsinin 8-ci hissəsində göstərilən obyektlərə aid olub-olmaması;

3.1.6. faydalı modelin yeniliyi;

3.1.7. faydalı modelin qurğu obyekti olub-olmaması;

3.1.8. faydalı modelin sənayedə tətbiq edilə bilməsi;

3.1.9. faydalı modelin Qanunun 8-ci maddəsinin 6-cı hissəsində göstərilən obyektlərə aid olub-olmaması;

3.1.10. sənaye nümunəsi kimi təqdim edilən məmulatın xarici görünüşünü müəyyən edən bədii-konstruktiv həllərin mövcudluğu;

3.1.11. sənaye nümunəsinin yeni və orijinal olub-olmaması;

3.1.12. sənaye nümunəsinin Qanunun 9-cu maddəsinin 6-cı hissəsində göstərilən obyektlərə aid olub-olmaması;

3.1.13. ixtira, faydalı model və sənaye nümunəsinin istifadəsinin Qanunun 3.3-cü və 3.4-cü maddələrində qeyd olunan hallar üçün nəzərdə tutulub-tutulmaması.";

13.2.4.2. 3.2-ci bənd ləğv edilsin;

13.2.5. 4.4-cü bənddə "götürüldükdə" sözü "çağırıldıqda" sözü ilə və "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

13.2.6. 5-ci hissə üzrə:

13.2.6.1. 5.6-cı bənd ləğv edilsin;

13.2.6.2. 5.7-ci bənddə "sənədi üzrə" sözləri "sənədində göstərilmiş obyekt üzrə" sözləri ilə əvəz edilsin;

13.2.6.3. 5.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.12. Məlumat axtarışı aparılarkən, iddia olunan ixtiranın və faydalı modelin yeniliyinin yoxlanılması məqsədilə axtarışın həcminə daha əvvəl ilkinlik tarixi ilə Agentliyə daxil olan və geri çağırılmayan ixtira, faydalı model və sənaye nümunəsi barəsində iddia sənədləri, habelə barəsində məlumat axtarışı aparılan iddia sənədinin ilkinlik tarixinə dair məlumatların dərc edilib-edilməməsindən asılı olmayaraq, Azərbaycan Respublikasında patentlə mühafizə edilən ixtira, faydalı model və sənaye nümunəsi də aid edilir.";

13.2.7. 7-ci hissə üzrə:

13.2.7.1. adında "texnika səviyyəsinə" sözləri "mövcud bilgilər məcmusuna" sözləri ilə əvəz edilsin;

13.2.7.2. 7.1-ci bəndin birinci cümləsində "Texnika səviyyəsinə ixtiranın" sözləri "Mövcud bilgilər məcmusuna ixtiranın və faydalı modelin" sözləri ilə və üçüncü cümləsində "Faydalı model və sənaye nümunəsinin yeniliyi" sözləri "Sənaye nümunəsinin yeniliyinin müəyyən edilməsi" sözləri ilə əvəz edilsin;

13.2.8. 9-cu hissə üzrə:

13.2.8.1. 9.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.1. Qanunun 29-cu maddəsinin 10-cu hissəsinin ikinci abzasına əsasən iddiaçı və ya digər maraqlı şəxs ixtira və faydalı model barədə iddia sənədinin Agentliyə və ya Ekspertiza Mərkəzinə daxil olduğu tarixdən 18 (on səkkiz) ay, sənaye nümunəsi barədə iddia sənədinin daxil olduğu tarixdən isə 12 (on iki) ay ərzində, müəyyən edilmiş haqqın ödənilməsi şərtilə, iddia sənədinin mahiyyətcə ekspertizasının aparılması üçün vəsatətlə müraciət edə bilər. İddia sənədinin mahiyyətcə ekspertizası iddia sənədi üzrə ilkin ekspertiza başa çatdıqdan və mahiyyətcə ekspertizanın aparılması barədə iddiaçı və ya digər maraqlı şəxs tərəfindən vəsatət daxil olduqdan sonra 2 (iki) ay ərzində aparılır. Bu müddətə Qanunun 29-cu maddəsinin 2-ci hissəsində nəzərdə tutulan düzəliş aparılmış sənədlərin təqdim edildiyi müddət, habelə iddiaçının vəsatəti əsasında onun uzadılma müddəti daxil deyildir.";

13.2.8.2. aşağıdakı məzmunda 9.1-1-ci bənd əlavə edilsin:

"9.1-1. Mahiyyətcə ekspertizanın aparılması haqqında vəsatət digər maraqlı şəxslər tərəfindən daxil olduğu halda, Agentlik bu barədə iddiaçını 5 (beş) iş günü müddətində məlumatlandırır.";

13.2.8.3. 9.2-ci bənd ləğv edilsin;

13.2.8.4. 9.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"9.3. Qanunun 29-cu maddəsinin 3-cü hissəsində göstərilən tələblər gözlənilməklə ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia tələblərə cavab verdiyi halda Agentlik patent verilməsi haqqında qərar qəbul edir və onun nəticəsi barədə iddiaçını elektron poçt, yaxud sifarişli poçt vasitəsilə məlumatlandırır.";

13.2.8.5. 9.4-cü bənddə "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

13.2.8.6. 9.7-ci bənddə "götürülməsi" sözü "çağırılması" sözü ilə əvəz edilsin;

13.2.9. 11-ci hissəyə aşağıdakı məzmunda 11.5-ci bənd əlavə edilsin:

"11.5. İxtira, faydalı model və sənaye nümunəsinə ilkinlik hüququ, ilkinliyin, o cümlədən konvensiya və sərgi ilkinliyinin müəyyənləşdirilməsi, iddia sənədi barəsində ilkinlik iddiasında düzəlişlər və əlavələr edilməsi, ilkinlik hüququnun bərpası, habelə ayrılmış iddia sənədi üzrə ixtira və faydalı modelin ilkinliyinin təyin olunması ilə bağlı bu Qaydada nəzərdə tutulmayan məsələlər Qanunun 28-ci, 28-1-ci, 28-2-ci və 29-cu maddələrinin 5-ci hissəsində müəyyən edilmiş tələblərə uyğun olaraq tənzimlənir.";

13.2.10. 12-ci hissə ləğv edilsin;

13.2.11. 13-cü hissə üzrə:

13.2.11.1. 13.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"13.1.1. barəsində belə ilkinlik istənilən iddia sənədi ixtira və ya faydalı model üçün daha əvvəlki iddia sənədinin daxil olduğu tarixdən 12 (on iki) ay, sənaye nümunəsi üçün isə 6 (altı) ay müddətində Agentliyə daxil olmalıdır;";

13.2.11.2. 13.2-ci bənddə "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

13.2.12. 14-cü hissə üzrə:

13.2.12.1. 14.1.1-ci və 14.1.2-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"14.1.1. ayrılmış iddia sənədi Agentliyə ixtira üçün əvvəlki iddia sənədinin verildiyi tarixdən 12 (on iki) ay keçənədək, faydalı model üçün isə əvvəlki iddia sənədinin verildiyi tarixdən 6 (altı) ay keçənədək təqdim edilməlidir;

14.1.2. ayrılmış iddia sənədi üzrə ixtira və ya faydalı model üçün iddia obyekti əvvəl verilmiş iddia sənədinin məzmunundan kənara çıxmamalı və onun tərkib hissəsi kimi iddiaçı tərəfindən dəqiq səciyyələndirilməlidir.";

13.2.12.2. 14.3-cü bənd ləğv edilsin;

13.2.13. 15-ci hissə üzrə:

13.2.13.1. 15.1-ci bənddə "iddia sənədi üzrə məlumat axtarışı və" sözləri "sənədində göstərilmiş obyekt üzrə məlumat axtarışı və iddia sənədi üzrə" sözləri ilə əvəz edilsin və həmin bənddə "Qanunun" sözündən sonra

"3.3-cü, 3.4-cü," sözləri əlavə edilsin;

13.2.13.2. 15.7-ci bənddə "götürülməmişdirsə" sözü "çağırılmamışdırsa" sözü ilə və "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

13.2.14. 17-ci hissə üzrə:

13.2.14.1. 17.1-ci bənddə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin;

13.2.14.2. 17.3.3-cü yarımbənddə "götürülməmişdir" sözü "çağırılmamışdır" sözü ilə əvəz edilsin;

13.2.15. 18.1-ci bənddə "bəndinə" sözü "hissəsinə" sözü ilə əvəz edilsin;

13.2.16. 19.3-cü bəndin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu halda patent verilməsi haqqında qərar hazırlanır və patent haqqında məlumatlar Qanunun 33-cü maddəsinə uyğun olaraq Agentliyin rəsmi bülletenində dərc olunur.";

13.2.17. 20.6-cı bənddə "götürülmüş" sözü "çağırılmış" sözü ilə əvəz edilsin;

13.2.18. 21.4-cü bənddə "götürülməsi" sözü "çağırılması" sözü ilə əvəz edilsin;

13.2.19. 22-ci hissə üzrə:

13.2.19.1. 22.1-ci bənd ləğv edilsin;

13.2.19.2. 22.2-ci və 22.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"22.2. Qanunun 29-cu maddəsinin 3-cü və 10-cu hissələrində göstərilən tələblər gözlənilməklə ixtira, faydalı model və sənaye nümunəsi barədə iddia sənədinin mahiyyətcə ekspertizası müsbət nəticə ilə başa çatdıqdan sonra 10 (on) iş günü müddətində Agentlik patent verilməsi haqqında qərar qəbul edir.

22.3. Qanunun 30-cu maddəsinin 1-ci hissəsinə uyğun olaraq dərc olunmuş iddia sənədinə etirazın verilməsi müddəti qurtardıqdan və ya ixtira, faydalı model və ya sənaye nümunəsinə patentin verilməsinə dair qərar qəbul etdiyi tarixdən etibarən 2 (iki) ay ərzində ixtira, faydalı model və ya sənaye nümunəsinin qeydiyyatı, patentin verilməsi və dərc olunması üçün dövlət rüsumu ödənilməsi şərtilə ixtira, faydalı model və ya sənaye nümunəsini müvafiq Dövlət reyestrində qeydə alır və iddiaçıya patent verir.";

13.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Dərc olunmuş iddia sənədinin materialları ilə tanışlıq Qaydası" üzrə:

13.3.1. 3-cü hissə ləğv edilsin;

13.3.2. 4-cü hissənin birinci və ikinci cümlələri aşağıdakı redaksiyada verilsin:

"Agentlik ilkin ekspertizanın nəticəsi üzrə müsbət qərar qəbul etdikdə ixtira və faydalı model barəsində iddia sənədinin verildiyi tarixdən, ilkinlik istənildiyi halda isə ilkinlik tarixindən 18 (on səkkiz) ay keçən kimi sənaye nümunəsi barəsində iddia sənədinin verildiyi tarixdən isə 6 (altı) ay keçən kimi iddia sənədlərinə dair məlumatların özünün rəsmi bülletenində dərc edilməsini olunmasını təmin edir. İddiaçının vəsatəti üzrə müəyyən edilmiş haqq ödənilməsi şərtilə iddia sənədinə dair məlumatlar yuxarıda göstərilən tarixdən tez də dərc oluna bilər.".

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Birinci vitse-prezident Mehriban Əliyeva və ailə üzvləri dünyaşöhrətli skripkaçı Devid Qarrettin simfonik şousunu izləyiblər







Noyabrın 4-də Heydər Əliyev Mərkəzində dünyaşöhrətli skripkaçı Devid Qarrett "Millennium Symphony - Crossover Programme" simfonik şousu ilə çıxış edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri simfonik şounu izləyiblər.

Devid Qarrett klassik musiqi ilə rok, pop və kino melodiyalarını birləşdirdiyi unikal proqramında Bethovenin, Hans Zimmerin, Maykl Ceksonun, "Nirvana" və "Rammstein" qruplarının, həmçinin digər sənətçilərin əsərlərini və musiqi hitlərini özünəməxsus tərzdə təqdim edib.

Qeyd edək ki, D.Qarrett səhnədə debütünü 10 yaşında edib. O, 13 yaşında nüfuzlu "Deutsche Grammophon" ilə müqavilə bağlayan ən gənc sənətçi olub. Təhsilini bitirdikdən indiyədək Devid Qarrett Zubin Mehta, Kristof Eşenbah, Rikkardo Şayi və Andres Orosko-Estrada kimi dirijorlarla çalışır.

Sənətçinin yaradıcılığında xüsusi yer tutan klassik ICONIC albomu Almaniyanın pop musiqi hit-paradında dördüncü pilləyə yüksələrək, klassik musiqi üçün müstəsna nailiyyətə imza atıb. Albom, eyni zamanda "Golden Record" və "İlin bestselleri" nominasiyalarında "Opus-Klassik 2023" mükafatlarına layiq görülüb. Devid Qarrett bu klassik repertuarla beynəlxalq turneyə çıxaraq 5 qitədə 113 konsert verib.


"Neft və mürəkkəb: Neftlə yazılmış hekayələr" sənədli filminin premyerası olub













Noyabrın 3-də Nizami Kino Mərkəzində SOCAR və "AnewZ" televiziya kanalının birgə istehsalı olan "Neft və mürəkkəb: Neftlə yazılmış hekayələr" sənədli filminin premyerası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, dövlət və hökumət rəsmiləri, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva filmin yaradıcı heyəti ilə görüşüb və xatirə fotoları çəkdirilib.

Premyerada çıxış edən "AnewZ" televiziya kanalının icraçı direktoru Rüfət Həmzəyev sənədli filmin ideyasının SOCAR-ın muzey kolleksiyasında qorunan XX əsrin əvvəllərinə aid 103 tarixi açıqcadan yarandığını deyib. İcraçı direktor filmin təxminən bir əsr öncə Bakıda yaşanan neft bumundan, həmin dövrdə şəhərin dünyanın müxtəlif ölkələrindən insanları özünə cəlb etməsindən və neft sənayesinin inkişafı nəticəsində baş verən köklü dəyişikliklərdən bəhs etdiyini bildirib.



Prezident İlham Əliyev tərəfindən cari ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan olunduğunu söyləyən Rüfət Həmzəyev qeyd edib ki, ekran əsərində 103 tarixi açıqca və 9 insan hekayəsi vasitəsilə neftin Bakının memarlığına, eləcə də mədəniyyətinə təsirləri, eyni zamanda şəhərin tarixində iz qoymuş insanların taleləri barədə günümüzə qədər gəlib çatmış məlumatlar tamaşaçılara təqdim edilir.

Sonra "Neft və mürəkkəb: Neftlə yazılmış hekayələr" sənədli filmi nümayiş etdirilib.

Qeyd edək ki, bir əsr öncə sürətlə dəyişən Bakı, neft buruqları, küçələr, liman, eləcə də şəhərdə yaşayan insanların şəxsi taleləri filmin əsas dramaturji xəttini formalaşdırır. Çəkilişləri təxminən 6 ay davam edən filmdə tarixi açıqcaların canlandırılması, arxiv fotolarına hərəkət verilməsi, o dövrün vizual atmosferinin bərpası və musiqi həllərinin bir hissəsi süni intellekt vasitəsilə həyata keçirilib.

Filmdə həmçinin Bakı memarlığının formalaşmasında mühüm rol oynamış İosif Qoslavskinin nəslinin nümayəndəsi İrina Trofimova-Xomitskaya ilə eksklüziv müsahibə də yer alıb.

BP ilin 9 ayının yekunları barədə məlumat yayıb

BP şirkəti Azərbaycandakı müxtəlif apstrim bizneslərinin müvafiq olaraq ya operatoru və ya idarəedici təşkilatı kimi 2026-cı ilin üçüncü rübünün hesabatını açıqlayıb. Həmişə olduğu kimi, bu dəfə də öncə "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsi haqqında məlumat verilir. AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin podratçı tərəfləri adından "BP Exploration (Caspian Sea) Limited" şirkəti operatordur.

Cari ilin üçüncü rübü ərzində AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib. İlk üç rüb üçün blokdan ümumi hasilat - "Çıraq" (18 min 800), "Mərkəzi Azəri" (84 min 600), "Qərbi Azəri" (72 min), "Şərqi Azəri" (45 min 700), "Dərinsulu Günəşli" (46 min 700), "Qərbi Çıraq" (25 min 300) və ACE (26 min 900) platformalarından birlikdə gündə orta hesabla 320 min barel və ya ümumilikdə təxminən 87 milyon barel, yəni 12 milyon ton olub.

AÇG-də hasilatı sabit saxlamaq üçün müxtəlif istiqamətli tədbirlər də həyata keçirilir. Onlardan biri - dördölçülü yüksəkdəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramı çərçivəsində 2025-ci ildə əldə olunmuş məlumatların interpretasiyası və inteqrasiyası bu ilin üçüncü rübü ərzində davam edib.

Məlum olduğu kimi, AÇG-dən çıxarılan səmt qazı müqavilənin şərtlərinə uyğun şəkildə təminatsız olaraq Azərbaycan dövlətinə təhvil verilir. 2026-cı ilin üç rübü ərzində blokdan Azərbaycana əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 9 milyon kubmetr, ümumilikdə isə 2 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən laylara vurulub.

Cari ilin birinci yarısında sərbəst təbii qaz (STQ) hasilatı əməliyyatlarının başlanması ilə AÇG ilk kommersiya qaz hasilatı əməliyyatları mərhələsinə başlayıb.

"Şahdəniz"dən də xoş xəbərlər var. Belə ki, üçüncü rüb ərzində yataqdan Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC şirkətinə), Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün Bakı-Tbilisi-Ceyhana (BTC) və Avropadakı alıcılara qaz çatdırılması davam edib.

İlin ilk doqquz ayında yataqdan ümumilikdə - "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birlikdə təqribən 20 milyard standart kubmetr qaz və təxminən 3 milyon ton (təqribən 21 milyon barel) kondensat hasil olunub.

Mövcud "Şahdəniz" qurğularının hasilat gücü isə hazırda gündə təxminən 79 milyon (ildə təqribən 28,8 milyard) standart kubmetrdir.

Yeni "Şahdəniz Kompressiya" (ŞDK) layihəsi də uğurla davam edir. 2,9 milyard dollar dəyərində olan ŞDK layihəsində məqsəd yataqdakı aşağıtəzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum



qazvermə əmsalına nail olmaqdır. Layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Layihə çərçivəsində aparılan tikinti işlərinin 2029-cu ildə başa çatması ilə ŞDK platformasının həmin ildə "Şahdəniz Alfa"dan, 2030-cu ildə isə "Şahdəniz Bravo"dan alınan qaz həcmlərini kompressiya üçün qəbul etməyə hazır olacağı planlaşdırılır.

Regionun neft-qaz ixracı mərkəzi olan Səngəçal terminalından karbohidrogenlərin dünya bazarlarına göndərilməsi də uğurla davam edir.

Səngəçal Terminalının Elektrikləşdirilməsi layihəsi (STEL) üzrə işlər ümumilikdə 90 faiz tamamlanıb. Layihə üzrə işlərin iki mərhələdə - 1-ci mərhələnin 2027-ci ilin ortalarında, 2-ci mərhələnin isə 2028-ci ilin sonunadək başa çatacağı nəzərdə tutulur. 230 milyon dollar dəyərində STEL layihəsi terminalın "Azərenerji" ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulmasını təmin edəcək.

Üçüncü rübdə "Şəfəq" günəş layihəsi üzrə tikinti işləri də Cəbrayıl rayonunda yerləşən layihə sahəsində irəliləyib. Fotovoltaik modullar və struktur komponentləri daxil olmaqla əsas avadanlıqların təchizatı və çatdırılması uğurla tamamlanıb, payaların və izləyici sistemlərin quraşdırılması üzrə işlərdə ciddi irəliləyiş əldə olunub. Elektrik quraşdırma fəaliyyətləri də başlanmış və rüb ərzində plana uyğun davam edib.

Üçüncü rübün sonuna modulların quraşdırılması üzrə işlərin yarısı tamamlanıb.

BP-nin hesabatında "Şəfəq-Asiman" dəniz blokunda, "Qarabağ" və ADUA yataqlarında gedən işlər barədə də ətraflı məlumat var. Eləcə də məlumatda bütün bu işləri həyata keçirən heyət haqqında da faktlar və rəqəmlər öz əksini tapıb. Belə ki, şirkətin işçiləri olan Azərbaycan vətəndaşlarının sayı 2313 nəfər olub və buraya müddətli müqavilə əsasında işləyənlər də daxildir.

2018-ci ilin ortalarından BP-nin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edir. İxtisası olmayan işçilərin isə hamısı yerli vətəndaşlardır.

BP bəyan edir ki, onun ölkəmizdə həyata keçirdiyi sosial investisiya layihələri də əsas əməliyyatlarından ayrılmazdır. Odur ki, bu ilin ilk üç rübündə şirkət əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları ilə sosial layihələrinə Azərbaycanda təxminən 1,2 milyon dollar vəsait xərcləyib. İlk doqquz ay ərzində bu layihələrə hazırda davam edən 26 təhsil proqramı, yerli bacarıqların yaradılmasını və sahibkarlığın inkişafını dəstəkləyən 2 layihə və ətraf mühit üzrə 2 təşəbbüs daxil idi.

Flora SADIQLI,
"Azərbaycan"

Büdcə müzakirələri başladı



Noyabrın 4-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirə olunub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda komitənin üzvləri, parlamentdə təmsil olunan siyasi partiyaların nümayəndələri, aidiyyəti dövlət qurumlarının rəhbərləri və təmsilçiləri iştirak ediblər.

Tədbiri açan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov 2027-ci ilin büdcə zərfinin qanunvericiliklə müəyyən edilmiş qaydada Milli Məclisə daxil olduğunu, Hesablama Palatası tərəfindən büdcə sənədlərinə dair rəylərin hazırlandığını bildirib.

Komitə sədri 2027-ci ilin dövlət büdcəsinin əsas xüsusiyyətləri barədə məlumatında diqqətə çatdırıb ki, büdcə gəlirləri 39,2 milyard manat, xərcləri isə 42,4 milyard manat proqnozlaşdırılır. Bu, 2026-cı ilin təsdiq edilmiş büdcəsi ilə müqayisədə həm gəlir, həm də xərclər üzrə 1,7 faizlik artım deməkdir. Dövlət büdcəsi kəsirinin yuxarı həddi təxminən 3,2 milyard manat nəzərdə tutulur.

A.Əmiraslanov vurğulayıb ki, büdcə zərfi Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslərin, müəyyən etdiyi dövlət proqramlarının, ölkəmiz qarşısında dayanan strateji vəzifələrin icrası üçün etibarlı maliyyə təminatı yaradır. Büdcə zərfi dövlətin sosial siyasətinin növbəti ildə daha da gücləndiriləcəyindən xəbər verir. Xərclərin 18,7 milyard manatının və ya 44,2 faizinin sosialyönümlü olması bunu bir daha təsdiq edir. Bu məbləğ 2026-cı illə müqayisədə 1,6 milyard manat və ya 9,2 faiz çoxdur. Bununla yanaşı, dövlət büdcəsində milli təhlükəsizlik və müdafiə məsələləri diqqətdə saxlanılıb. 2027-ci il dövlət büdcəsində əsaslı xərclər 13,8 milyard manat, yaxud ümumi xərclərin 32,5 faizi həcmində nəzərdə tutulub.

Büdcənin dayanıqlığının təmin edilməsinin əhəmiyyətindən danışan komitə sədri büdcə qaydalarına tam riayət edilməsinin, 2027-ci ildə büdcə mədaxilinin 60 faizdən çoxunun qeyri-neft gəlirlərinin payına düşməsinin, cari xərclərin 90,1 faizinin qeyri-neft-qaz gəlirləri hesabına qarşılanmasının, Dövlət Neft Fondundan transfertin 935 milyon manat azaldılmasının büdcədə keyfiyyət dəyişikliklərini səciyyələndirən əsas amillər olduğunu bildirib.

Sonra iclasda maliyyə naziri Sahil Babayev "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini və büdcə zərfinə daxil olan sənədləri təqdim edib. Nazir qeyd edib ki, dövlət başçısının rəhbərliyi altında ölkəmizin sosial-iqtisadi inkişafı bütün istiqamətlər üzrə təmin edilir. Azərbaycan, qüdrətli, iqtisadi cəhətdən daha inkişaf etmiş, sosial cəhətdən əhalinin rifahını daha yaxşı təmin edən dövlətə çevrilir. Həyata keçirilən bu struktur, institusional, iqtisadi, sosial islahatların çərçivəsi növbəti dövr üçün də həm dövlət büdcəsində, həm də ortamüddətli xərclər çərçivəsində nəzərdə tutulub.

Nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə 2027-ci il üzrə hazırlanmış büdcə siyasətinin əsas prinsiplərinin dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin qorunması, əhalinin rifahı və sosial tədbirlərin tam maliyyələşdirilməsi, müdafiə qabiliyyətinin və təhlükəsizliyin təminatının gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı, rəqəmsal texnologiyalar və innovasiyaların tətbiqinin genişləndirilməsi, təhsil və səhiyyə sektorlarının inkişafının dəstəklənməsi, fiskal intizam qorunmaqla büdcə qaydasına əməl edilməsi, büdcə xərclərinin Dövlət Xəzinədarlığı vasitəsilə ünvanlı və səmərəli icra edilməsi, real sektorun inkişafının daha da sürətləndirilməsi olduğunu bildirib.

2027-ci ilin əsas makroiqtisadi göstəriciləri ilə bağlı nəzərə çatdırılıb ki, növbəti ildə ümumi daxili məhsulun məbləği 141 milyard manat olaraq qiymətləndirilir. Bu, 2026-cı illə müqayisədə 2,7 faizlik real artım deməkdir. Qeyri-neft-qaz sektoru üzrə ÜDM 109,1 milyard manat proqnozlaşdırılır ki, bu da 2026-cı ilə nisbətən 4,4 faizlik bir real artım deməkdir. Növbəti il üçün xam neftin bir barelinin orta illik qiyməti 65 dollar götürülüb. Orta illik inflyasiya 5,3 faiz proqnozlaşdırılır. Hazırda ümumi dövlət borcu 23,9 milyard manat təşkil edir və bu, cari ilin əvvəli ilə müqayisədə 2,8 faiz azdır. Borc portfelinin 16,2 milyard manatı daxili dövlət borcu, 7,7 milyard manatı isə xarici dövlət borcudur. Strateji valyuta ehtiyatları cari ilin 1 oktyabr tarixinə 89,4 milyard dollara çatıb və Dövlət Neft Fondunun gəlirləri növbəti ildə 7,8 milyard dollar, xərcləri isə 7,1 milyard dollar, Neft Fondunun transferti 7 milyard dollar olaraq proqnozlaşdırılır.

Qeyd edilib ki, büdcə siyasətinin əsas istiqamətlərindən biri neftdən asılılığın daha da azaldılmasıdır. Bu məqsədlə Azərbaycan hökuməti tərəfindən ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Növbəti ildə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbətinin 17,1 faiz olacağı, icmal büdcədə qeyri-neft gəlirlərinin payı isə 64,5 faizə çatacağı gözlənilir.

Nazir büdcə xərclərinin sosial-iqtisadi ehtiyaclara uyğun olaraq tərtib edildiyini deyib. O bildirib ki, icmal büdcənin xərcləri qeyri-neft ÜDM-in 46,2 faizini təşkil edəcək. Dövlət büdcəsinin 32,5 faizi əsaslı xərclərə yönəldiləcək. Təhsil və səhiyyə xərcləri də ümumi daxili məhsulun müvafiq olaraq 3,6 və 1,5 faizinə çatacaq. Növbəti ildə aqrar sektora ayırmalar aqrar ÜDM-in 15,8 faizinə çatacaq. Bildirilib ki, növbəti ilin dövlət büdcəsində rayonların dotasiyadan asılılığı tam aradan qaldırılıb. Naxçıvana verilən dotasiya isə cari illə müqayisədə 13,6 milyon manat və ya 6,4 faiz azalacaq.

Daha sonra Sahil Babayev nəzərə çatdırıb ki, növbəti ildə icmal büdcənin gəlirləri 47,6 milyard manata çatacaq və bu 2026-cı illə müqayisədə 2,6 milyard manat artım deməkdir. Gəlirlərin ÜDM-də payı 33,8 faizə çatacaq, bu da 2026-cı illə müqayisədə 1,2 faiz çoxdur. İcmal büdcədə qeyri-neft gəlirlərinin payı 64,5 faizə çatacaq, bu da cari illə müqayisədə 1,5 faiz çoxdur.

Qeyd edilib ki, dövlət büdcəsinin gəlirləri cari illə müqayisədə 645 milyon manat artımla proqnozlaşdırılır. ÜDM-də dövlət büdcəsi gəlirlərinin payı isə 27,8 faiz olaraq proqnozlaşdırılır. Qeyri-neft sektoru üzrə 23,8 milyard manatlıq və ya 60,6 faiz gəlir gözlənilir. Qeyri-neft gəlirlərinin qeyri-neft ÜDM-ə nisbəti isə 21,8 faiz olacaq. Neft sektoru üzrə gəlirlər isə 15,5 milyard və ya ümumi büdcə gəlirlərinin 39,4 faizini təşkil edəcək. Bununla yanaşı, Dövlət Vergi Xidməti üzrə daxilolmalar 18,4 milyard manata və ya 47 faizə çatacaq, bu da cari illə müqayisədə 1,5 milyard manat və ya 9 faiz artım deməkdir. Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 6,9 milyard manat və ya büdcə gəlirlərinin 17,1 faizi, Dövlət Neft Fondunun transferti 11,9 milyard manat və ya büdcə daxilolmalarının 30,3 faizi olacaq. Növbəti ildə, dövlət müəssisələrindən dividend daxilolması 872 milyon manat, büdcə təşkilatlarının ödənişli xidmətləri üzrə daxilolmalar 949 milyon manat, sair gəlirlər isə 484 milyon manat olaraq proqnozlaşdırılır.

Sonra maliyyə naziri növbəti ildə icmal və dövlət büdcəsi xərcləri ilə bağlı məlumatı diqqətə çatdırıb. Qeyd edilib ki, icmal büdcənin xərcləri 50,4 milyard manat, yəni cari illə müqayisədə 1,5 milyard manat çox proqnozlaşdırılır.

Dövlət büdcəsinin xərcləri isə 42,4 milyard manat və ya cari illə müqayisədə 696,4 milyon manat və ya 1,7 faiz artımla müəyyən edilib. Onun ÜDM-də payı 30,1 faiz, qeyri-neft ÜDM-də payı isə 38,9 faiz olacaq. Dövlət büdcəsi xərclərinin tərkibində cari xərclər 26,4 milyard manat və ya xərclərin 62,3 faizi olaraq proqnozlaşdırılır. Sosialyönümlü xərclər 18,7 milyard manat və ya 44,2 faiz təşkil edəcək. Əsaslı xərclər 13,8 milyard manat olaraq proqnozlaşdırılır. Dövlət borclarına xidmətlə bağlı xərclər 2,2 milyard məbləğində qiymətləndirilir. Maliyyə naziri büdcənin funksional təsnifatı üzrə xərc istiqamətlərinə dair göstəriciləri diqqətə çatdırıb.

Sonra tədbirdə Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov çıxış edib. O bildirib ki, mürəkkəb qlobal şəraitə baxmayaraq, 2026-cı ilin ilk 9 ayında ölkəmizdə iqtisadi artım davam edib. Bu dövrdə ümumi daxili məhsul 1,5 faiz, qeyri-neft-qaz sektorunda 2,6 faiz artıb. Bu dövrdə xarici ticarət balansında 10,5 milyard ABŞ dolları həcmində müsbət saldo qeydə alınıb, strateji valyuta ehtiyatları 5,1 faiz artaraq 89,4 milyard ABŞ dolları olub. Qeyd olunub ki, cari ildə də pul siyasəti monetar şərait vasitəsilə inflyasiyanın hədəfdə saxlanılmasına yönəldilib. 2026-cı ilin ötən dövründə valyuta bazarında məzənnə sabitliyi təmin olunub.

Sonra Taleh Kazımov 2027-ci ilə gözlənilən makroiqtisadi siyasətlə bağlı fikirlərini açıqlayıb. Qeyd edilib ki, Mərkəzi Bankın proqnozlarına görə 2027-ci ildə ölkədə ÜDM 2,3 faiz, qeyri-neft-qaz ÜDM isə 4,3 faiz artacaq. Cari əməliyyatlar hesabının profisitinin 5,4 milyard ABŞ dolları, illik inflyasiyanın 5,9 faiz səviyyəsində qərarlaşacağı olacağı proqnozlaşdırılır. Mərkəzi Bankın İdarə Heyətinin sədri 2027-ci ilin büdcə layihəsinə münasibət bildirərək, ümumilikdə, 2027-ci il və ortamüddətli dövr üçün təqdim edilən makrofiskal çərçivəni müsbət qiymətləndirib.

Sonra iclasda İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Elvin Camalov çıxış edib. O, ötən dövrdə iqtisadiyyatda baş verən keyfiyyət dəyişikliklərindən bəhs edib. Bildirilib ki, özəl sektordan əsas kapitala investisiya qoyuluşu 14,7 milyard manat olmaqla real ifadədə 10,9 faiz artıb. Qeyri-neft-qaz sektorunda özəl investisiyalar isə 21 faiz ətrafında artıb. Həmçinin qeyri-neft-qaz sektoru üzrə artımın aparıcı mənbəyi qeyri-neft-qaz sənayesi, logistika və rəqəmsal xidmətlər olduğu qeyd edilib.

Bununla yanaşı, nəzərə çatdırılıb ki, dövlət büdcəsi xərclərinin, o cümlədən əsaslı xərclərin ilin sonunadək tam icrası iqtisadi artımın sürətinə təsir edən mühüm amildir. Neft Fondunun qızıl əməliyyatları nəzərə alınmadan qeyri-neft-qaz ixracı 9 ayda 20,5 faiz artaraq 3,2 milyard dollara çatıb, bunun 60 faizi sənaye məhsuludur. Neft Fondunun qızıl əməliyyatları nəzərə alınmadan xarici ticarət saldosu 25 faiz artaraq 7,1 milyard dollar profisitlə formalaşıb. Cari ilin 9 ayında vergilər üzrə proqnoz 107,2 faiz, o cümlədən qeyri-neft-qaz sektorunda 102,9 faiz icra edilib, illik proqnozun 80,6 faizi isə artıq təmin olunub. Vergi daxilolmaları 9,4 faiz, qeyri-neft-qaz vergiləri isə 12,6 faiz artıb.

Komitə iclasında Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini səsləndirib. Bildirilib ki, qanun layihəsi maddələr üzrə təhlil edilib və bəzi maddələrin təkmilləşdirilməsinə ehtiyac olduğu qənaətinə gəlinib.

Vüqar Gülməmmədov büdcə zərfinin izahat hissəsində əvvəlki illərdən fərqli olaraq, fiskal risk anlayışının konkretləşdirildiyini, beynəlxalq təlimatlara uyğun olaraq risklərin təsirinin və başvermə ehtimalının da qiymətləndirildiyini bildirib.

Məsələ ətrafında müzakirələrdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov, komitənin üzvləri Əli Məsimli, Aydın Hüseynov, Əlibala Məhərrəmzadə, Rövşən Muradov, Zaur Şükürov, Müşfiq Cəfərov, Vüqar Bayramov, deputatlar - Vətəndaş Həmrəyliyi Partiyasının üzvü Tənzilə Rüstəmxanlı, Ədalət, Hüquq, Demokratiya Partiyasının sədri Qüdrət Həsənquliyev, Ana Vətən Partiyasının sədri Günay Ağamalı çıxış ediblər. Onlar növbəti ilin dövlət büdcəsi layihəsi ilə bağlı fikirlərini, rəy və təkliflərini bildiriblər, bəzi suallarını səsləndiriblər.

Maliyyə naziri Sahil Babayev, Mərkəzi Bankın sədri Taleh Kazımov, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədov, İqtisadiyyat Nazirliyi Aparatının rəhbəri Elvin Camalov və Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Rəşad CƏFƏRLİ,
"Azərbaycan"

Dövlət büdcəsi layihəsi strateji prioritetlərə uyğun tərtib olunub

2027-ci ilin dövlət büdcəsi Azərbaycanın təhlükəsizliyini, sosial rifahını və uzunmüddətli iqtisadi inkişafını təmin edən strateji sənəddir. Prezident İlham Əliyevin müəyyən etdiyi sosial-iqtisadi inkişaf kursuna uyğun hazırlanan növbəti ilin dövlət büdcəsi ölkəmizin strateji prioritetlərini maliyyə resursları ilə təmin etməyə yönəlib.



Milli Məclisin deputatı Aydın HÜSEYNOV qəzetimizə açıqlamasında dedi ki, qanun layihəsində gəlirlər 39 milyard 254 milyon manat, xərclər isə 42 milyard 400 milyon manat nəzərdə tutulur. 3 milyard 146 milyon manatlıq kəsir isə fiskal planlaşdırma çərçivəsində qiymətləndirilməlidir. "Büdcənin mahiyyəti təkcə rəqəmlərdə deyil, həmin vəsaitin milli təhlükəsizliyə, insan kapitalına və iqtisadi artıma yönəldilməsindədir. Müdafiə və milli təhlükəsizliyə 8,8 milyard manatdan çox vəsait ayrılması dövlətin suverenliyinin və ərazi bütövlüyünün etibarlı qorunmasının dəyişməz prioritet olduğunu göstərir. Mürəkkəb geosiyasi şəraitdə təhlükəsizliyin möhkəmləndirilməsi iqtisadi inkişafın və investisiya mühitinin də əsas təminatıdır", - deyə o əlavə etdi.

Deputat qeyd etdi ki, iqtisadi fəaliyyət üzrə təxminən 8,9 milyard manatın, o cümlədən dövlət əsaslı vəsait qoyuluşuna 5,3 milyard manatın nəzərdə tutulması infrastrukturun modernləşdirilməsi, iqtisadi fəallığın və istehsal potensialının genişləndirilməsi baxımından əhəmiyyətlidir. İşğaldan azad edilmiş ərazilərin bərpası və Böyük qayıdışın davam etdirilməsi isə yalnız quruculuq deyil, yeni iqtisadi məkanların formalaşdırılması, məşğulluğun və regional inkişafın təmin olunması deməkdir.

Büdcənin sosialyönümlülüyünün aydın göründüyünü deyən A.Hüseynov bildirdi ki, təhsilə 5,1 milyard manata yaxın, sosial müdafiə və sosial təminata 4,9 milyard manatdan çox, səhiyyəyə isə 2 milyard manatdan artıq vəsait nəzərdə tutulub: "Bu ayırmalar vətəndaşların sosial müdafiəsinin, təhsilin keyfiyyətinin və səhiyyə xidmətlərinin yüksəldilməsinin dövlət siyasətində mühüm yer tutduğunu təsdiqləyir. Bununla yanaşı, rəqəmsallaşma, süni intellekt, innovasiyalar, qeyri-neft sektorunun inkişafı və "yaşıl iqtisadiyyat" 2027-2030-cu illər üçün müəyyən edilən xərc prioritetləri sırasındadır. Gəlirlərin dayanıqlığının artırılması, sahibkarlıq mühitinin gücləndirilməsi və büdcə vəsaitlərinin nəticəyönümlü xərclənməsi xüsusi əhəmiyyət daşıyır".

Deputat vurğuladı ki, 2027-ci ilin büdcə layihəsi dövlətin müdafiə qüdrəti ilə sosial məsuliyyətini, cari ehtiyaclarla gələcək inkişaf hədəflərini uzlaşdıran strateji maliyyə sənədidir. Əsas məqsəd ayrılan hər manatın iqtisadi səmərəyə, güclü dövlət institutlarına və vətəndaşların rifahına xidmət etməsidir.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

İkinci Tyanşan Forumunda Azərbaycan fəal iştirak edib

Mərkəzi Asiya regionu ilə tərəfdaşlığa önəm verdiyimiz bir daha vurğulanıb

Qazaxıstanın Almatı şəhərində Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) İnstitutu tərəfindən keçirilən "Mərkəzi Asiyada dayanıqlı əlaqəliliyin və keyfiyyətli investisiyaların genişləndirilməsi" mövzusunda İkinci Tyanşan Forumu öz işini sona çatdırıb.



Tədbirdə ölkəmiz də təmsil olunub. İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli forum çərçivəsində "Texnoloji tərəqqiyə, süni intellektə və rəqəmsal bağlantılara investisiyalar" mövzusunda keçirilən sessiyada çıxış edib. Çıxışda Mərkəzi Asiya regionunun Azərbaycan üçün prioritet tərəfdaşlıq istiqamətlərindən biri olduğu vurğulanıb. Rəqəmsal transformasiyanın iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft-qaz sektorunun rəqabət qabiliyyətinin artırılmasında rolu qeyd edilib. Eləcə də ölkəmizdə innovasiyaların inkişafı istiqamətində həyata keçirilən tədbirlər və region ölkələri ilə reallaşdırılan birgə layihələr barədə məlumat verilib. İnnovasiya və süni intellekt sahəsində tərəfdaşlığın inkişafı, yeni texnologiyaların iqtisadiyyatın müxtəlif sahələrində tətbiqi, bilik və təcrübə mübadiləsinin genişləndirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Qeyd edək ki, Mərkəzi Asiya İqtisadi Əməkdaşlığı üzrə Tyanşan Forumu region ölkələri arasında iqtisadi inteqrasiyanı, nəqliyyat dəhlizlərinin inkişafını və investisiya potensialını gücləndirmək məqsədini daşıyır.

Forumun iştirakçı ölkələr platforması Azərbaycan, Qazaxıstan, Çin, Qırğızıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Gürcüstan, Monqolustan və Pakistandır. Bunlar daxil olmaqla forum CAREC-ə üzv olan 10-dan çox ölkənin rəsmi nümayəndələrini, biznes və akademik dairələrini bir araya gətirir.

Tədbirin əsas mövzularından biri nəqliyyat və logistikadır. Belə ki, regiondakı nəqliyyat dəhlizlərinin birləşdirilməsi və ticarətin asanlaşdırılması məsələləri diqqət mərkəzində olur. İnvestisiya və infrastruktura gəldikdə isə birgə iri infrastruktur layihələrinin (avtomobil, dəmir yolları və s.) maliyyələşdirilməsi məsələlərinə baxılır.

Forum eləcə də iqtisadiyyatın müxtəlif sahələrində və səhiyyədə süni intellektin tətbiqi və rəqəmsal ticarət mövzusundan bəhs edir. "Yaşıl enerji" və iqlim dəyişikliyi də əsas mövzulardan biridir ki, burada regional ekoloji çağırışlar və dayanıqlı inkişafa diqqət yönəldilir.

Xatırladaq ki, Birinci Tyanşan Forumu keçən il dekabrın 2-3-də Çinin Urumçi şəhərində (Sincan-Uyğur Muxtar Rayonu) keçirilmişdir.

İkinci Tyanşan Forumu isə qeyq edildiyi kimi, bu il noyabrın 2-3-də baş tutub. Azərbaycan bu forumda aktiv iştirak edib və Mərkəzi Asiya ölkələri ilə innovasiya, süni intellekt və nəqliyyat sahələrində tərəfdaşlığın genişləndirilməsinə xüsusi önəm verdiyini bəyan edib.

Ümumiyyətlə, tədbirdə ticarət, enerji, nəqliyyat, logistika və digər sahələrdə tərəfdaşlığın genişləndirilməsi, rəqəmsal ticarətin təşviqi, süni intellektin tətbiqi və insan kapitalının inkişafı məsələləri müzakirə edilib. Regiona investisiyaların cəlb edilməsi və iqtisadi əlaqələrin dərinləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

İkinci Tyanşan Forumunda dövlət rəsmiləri, beynəlxalq maliyyə institutları, biznes və akademik dairələrin nümayəndələri iştirak ediblər.

Flora SADIQLI,
"Azərbaycan"

İş adamları üçün yeni biznes imkanı - "İşğaldan azad edilmiş ərazilər üzrə kredit"

Bir vaxtlar dağıntıların izlərini daşıyan, indi isə yenidən qurulan və dirçələn azad torpaqlarda iqtisadi həyatın canlanması üçün daha bir addım atılır. Qarabağ və Şərqi Zəngəzurda qurulan yeni müəssisələr, açılan iş yerləri, formalaşan istehsal və xidmət sahələri regionun gələcək iqtisadi mənzərəsini dəyişir. Və bu inkişaf yolunda sahibkarlar üçün yeni maliyyə imkanları yaradılır.



İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Azərbaycan Biznesinin İnkişafı Fondu (ABİF) işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün yeni kredit məhsulunu təqdim edib. "İşğaldan azad edilmiş ərazilər üzrə kredit" adlanan bu maliyyə mexanizmi sahibkarların daha əlverişli şərtlərlə maliyyə resurslarına çıxışını genişləndirməyi, yeni layihələrin reallaşmasına və mövcud bizneslərin böyüməsinə dəstək verməyi hədəfləyir.

Nazirliyin məlumatına görə, yeni kredit məhsulu çərçivəsində iş adamlarına 10 min manatdan 10 milyon manatadək vəsait ayrılması nəzərdə tutulur. Kreditlər 120 ayadək müddətə, illik maksimum 5 faiz dərəcəsi ilə təqdim ediləcək. Üstəlik də sahibkarlar kredit müddətinin yarısınadək olan dövrdə əsas borcun ödənilməsinə möhlət əldə edə biləcəklər. Bu güzəşt xüsusilə fəaliyyətə yeni başlayan müəssisə və şirkətlər üçün əhəmiyyətlidir. Çünki hər yeni sahibkarlıq subyektinin ilk mərhələdə ən böyük ehtiyaclarından biri istehsalın qurulması, bazara çıxışın təmin edilməsi və maliyyə yükünün idarə olunmasıdır.

Kredit vəsaitləri biznes fəaliyyəti üçün avadanlıq, texnologiya və nəqliyyat vasitələrinin alınmasına sərf edilə bilər. Digər tərəfdən də həmin kredit məbləğinin 50 faizədək hissəsinin tikinti və təmir işlərinə yönəldilməsinə imkan yaradılır. 500 min manatdan artıq kredit götürmək istəyən sahibkarlar isə layihənin ümumi dəyərinin azı 20 faizini öz vəsaitləri hesabına maliyyələşdirməlidirlər.

Maliyyələşdirmə istiqamətlərinin genişliyi də diqqət çəkir. Belə ki, qeyri-neft-qaz sənayesi, "yaşıl taksonomiya"ya uyğun layihələr, strateji kənd təsərrüfatı, logistika və təchizat zənciri infrastrukturu əsas prioritetlər sırasındadır. Bununla yanaşı, balıqçılıq və akvakultura, rəqəmsal inkişaf, informasiya-kommunikasiya texnologiyaları, yükdaşıma və saxlama, ictimai sərnişindaşıma, turizm və yerləşdirmə infrastrukturu, səhiyyə, təhsil və sosial xidmətlər də kredit dəstəyinin əhatə dairəsinə daxildir.

İstehsal və kənd təsərrüfatına xidmət göstərən sahələrin də maliyyələşdirilməsi nəzərdə tutulur. Bu isə yeni kredit imkanlarının yalnız ayrı-ayrı müəssisələrin yaradılmasına deyil, bütöv iqtisadi əlaqələrin formalaşmasına xidmət edə biləcəyini göstərir. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı, onların emalı, daşınması, saxlanması və bazara çatdırılması üçün biznes imkanlarının genişlənməsi bu qəbildəndir.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının reallaşdırılması yalnız infrastrukturun qurulması ilə yekunlaşmır. Bu torpaqlarda davamlı iqtisadi həyatın formalaşması üçün özəl sektorun fəallığı, investisiyaların cəlb edilməsi, istehsal müəssisələrinin yaradılması və məşğulluq imkanlarının genişləndirilməsi də vacibdir. Sahibkarların maliyyəyə çıxışının asanlaşdırılması bu baxımdan çox əhəmiyyət kəsb edir.

ABİF-in təqdim etdiyi yeni kredit məhsulu məhz bu məqsədlərə xidmət edən maliyyə mexanizmlərindəndir. Fond sahibkarlara güzəştli kreditlər, dövlət zəmanəti və faiz subsidiyaları, eləcə də investisiya qoyuluşları vasitəsilə dəstək göstərir. Qurumun fəaliyyətinin əsas istiqamətlərindən biri neftdənkənar sahənin inkişafı, idxalı əvəzləyən və ixracyönümlü istehsalın təşviqi, yerli biznesin rəqabət qabiliyyətinin artırılmasıdır.

İşğaldan azad edilmiş ərazilərdə yaradılan sahibkarlıq subyektlərinin davamlı fəaliyyət göstərməsi, yeni iş yerlərinin açılması və yerli istehsalın genişlənməsi iqtisadi dirçəlişin əsas göstəricisidir. Çünki torpaqların bərpası ilə yanaşı, onların sosial-iqtisadi inkişafının canlandırılması da çox vacibdir.

Yeni kredit imkanları sahibkarlar üçün bu yolda əlavə maliyyə dayağı, bölgənin iqtisadi inkişafı üçün isə yeni perspektivlər yaradır. Hər yeni istehsal müəssisəsi, investisiya layihəsi azad torpaqlarda qurulan iqtisadi gələcəyin daha bir parçasıdır.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"



AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR - 6 İL



Milli qürurumuzun rəmzinə çevrilən Zəfər Günü

Azərbaycanın müasir tarixinin ən möhtəşəm hadisəsi olan 44 günlük Vətən müharibəsində qazanılmış şanlı Zəfər xalqımızın milli iradəsinin, dövlətimizin siyasi və hərbi qüdrətinin, təntənəsi kimi tarixdə əbədi yaşayacaq. Bu Qələbə ilə Azərbaycan uzun illər davam edən işğala son qoyaraq ərazi bütövlüyünün bərpasına nail oldu, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan tarixi ədaləti bərqərar etdi.

Qazanılmış tarixi Zəfər müstəqil dövlətimizin gücünü bütün dünyaya nümayiş etdirməklə yanaşı, Cənubi Qafqazda yeni geosiyasi reallıqların formalaşmasına, ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə yol açdı. Ən əsası, bu tarixi hadisə həm də Azərbaycan xalqının öz torpaqlarına qayıdışına, milli ləyaqətinin və tarixi yaddaşının bərpasına aparan yolun başlanğıcı oldu.

Zəfər salnaməsinin ən parlaq səhifələrindən biri isə doğma Qarabağın tacı, Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edilməsidir. 2020-ci il noyabrın 8-də Şuşanın azad olunması Vətən müharibəsinin gedişində həlledici dönüş yaratmaqla yanaşı, xalqımızın çoxəsrlik dövlətçilik tarixində xüsusi yer tutan bu qədim şəhərin yenidən öz sahibinə qovuşmasını təmin etdi. Şuşa Zəfəri hərbi-strateji əhəmiyyəti ilə yanaşı, milli-mənəvi dəyərlərimizin, tarixi irsimizin və dövlətçilik ənənələrimizin təntənəsinə çevrildi.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına aparan yol təsadüfi uğurların deyil, onilliklər boyu ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən dövlət siyasətinin nəticəsidir. Bu siyasətin əsasını isə xalqımızın böyük oğlu, dünyaşöhrətli dövlət xadimi Ulu Öndərimiz Heydər Əliyev qoymuşdur. Ümummilli Lider Heydər Əliyev hələ Azərbaycanın indiki kimi güclü olmadığı ötən əsrin 90-cı illərində Qarabağ problemi ilə bağlı beynəlxalq təzyiqləri dəf etdi, bu məsələdə ölkəmizin milli maraq və mənafelərini qətiyyətlə qorudu.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu müasir dövrün çağırışlarına uyğun olaraq uğurla davam etdirən Prezident İlham Əliyev hər zaman artıq həllini tapmış Qarabağ məsələsi ilə bağlı qətiyyətli mövqe sərgilədi. Dövlətimizin başçısı həmişə bəyan edirdi ki, Azərbaycan torpaqlarının bir qarışının belə düşmən tapdağında qalmasına əsla göz yummayacaq və ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun bərpa ediləcəkdir.

Azərbaycan əvvəldən-axıra Qarabağ probleminin beynəlxalq hüquq çərçivəsində sülhün və ədalətin bərpa olunmasının tərəfdarı kimi çıxış etdi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Rəsmi Bakı 30 ilə yaxın müddətdə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlara sadiqlik göstərərək məsələnin diplomatik yolla həll olunmasına çalışdı.

"BMT Təhlükəsizlik Şurasının qətnamələrinin vaxt məhdudiyyəti yoxdur. Həmin qətnamələr icra edilənə qədər qüvvədədir. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin təhrif olunması isə qəbuledilməzdir. Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir. Dağlıq Qarabağ qədim və tarixi Azərbaycan torpağıdır. Qarabağ Azərbaycandır!", - deyə Prezident İlham Əliyev 2020-ci il sentyabrın 24-də BMT Baş Assambleyasının 75-ci sessiyasındakı tarixi çıxışında bu prinsipial mövqeyini bir daha dünyanın diqqətinə çatdırmışdı. Liderimizin bu bəyanatı diplomatiya nəticə vermədikdə Azərbaycanın hüquqi haqqından istifadə edəcəyinə dair beynəlxalq birliyə ünvanlanan çox qətiyyətli mesaj idi. Ötən illər ərzində ölkəmizin iqtisadiyyatının gücləndirilməsi, müasir hərbi sənaye kompleksinin yaradılması, peşəkar ordu quruculuğu və uzaqgörən xarici siyasət addım-addım qazanacağımız şanlı Zəfərin təməl daşlarını formalaşdırdı. Beləliklə, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi ilk gündən Azərbaycanın hərbi-siyasi qüdrətinin və xalqımızın sarsılmaz iradəsinin və öldürücü "dəmir yumruğ"a sahib Prezident İlham Əliyevin qətiyyətli siyasətinin Zəfər təntənəsinə çevrildi.

44 günlük müharibədə qüdrətli ordumuz dayanmadan irəli getdi, hər gün müxətəlif yaşayış məntəqələrini, strateji yüksəklikləri azad etdi. Qətiyyətli ordumuzun hər bir əməliyyatı qəhrəmanlıq dastanına çevrildi. Şuşanın azad olunması əməliyyatı isə öz unikallığı ilə dünya hərb tarixinə düşdü. 2020-ci il noyabrın 8-də Şuşanın azad olunması xəbəri bütün ölkəmiz boyu misli görünməmiş əsl bayram sevincinə səbəb oldu. Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin xalqımıza müraciətində qürurla səsləndirdiyi "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" bəyanatı isə tarixi ədalətin bərpasının parlaq ifadəsi idi. Məhz Şuşanın azad edilməsi düşmənin hərbi-siyasi müqavimətini tamamilə sarsıtdı və Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur edildi.

2020-ci il noyabrın 8-də əldə olunan şanlı Qələbə Azərbaycan xalnaməsinə əbədi olaraq qızıl hərflərlə həkk olundu. Qarabağın mirvarisi olan Şuşanın işğaldan azad olunduğu gün Prezident İlham Əliyevin sərəncamı ilə "Zəfər Günü" elan olundu. Qalib xalqımız həmin gündən bu tarixi həm də Şuşa Şəhəri Günü kimi də qeyd edir. Şuşanın yenidən Azərbaycanın mədəniyyət paytaxtına çevrilməsi, ən qısa zamanda burada tarixi abidələrin bərpası, musiqi festivallarının və beynəlxalq tədbirlərin keçirilməsi bu tarixi şəhərimizin taleyində xüsusi məna daşıyır. Prezident İlham Əliyevin böyük sevgisi, diqqət və qayğısı ilə burada həyata keçirilən böyük işlər xalqımızın doğma torpaqlara yalnız fiziki deyil, həm də mənəvi və mədəni qayıdışını nümayiş etdirir. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərliyində Heydər Əliyev Fondunun bu prosesdə iştirakı isə bərpa və quruculuq siyasətinin humanitar-mədəni istiqamətini tamamlayır.

Vətən müharibəsindən dərhal sonra həm Qarabağda, həm də Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlanıldı. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 2021-ci il yanvarın 14-də Zəfər yolu ilə Şuşaya etdiyi ilk səfər və özü ilə doğma qədim şəhərimizə Natəvanın, Üzeyir bəyin, Bülbülün vaxtilə düşmən tərəfindən güllələnmiş heykəllərini gətirməsi isə Şuşanın mənəvi ruhunun özünə qaytarılmasının göstəricisi oldu.

Tarixi səfəri zamanı Prezident İlham Əliyev işğaldan azad olunmuş Şuşa şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağını ucaltdı. Bununla da Müzəffər Lider bütün dünyaya bu torpaqların əsl sahibinin Azərbaycan xalqı olduğunu və doğma yurdlarına qayıdışın dönməz xarakter daşıdığını nümayiş etdirdi.

Qısa zamanda mədəniyyət paytaxtımızda həyata keçirilən abadlıq və böyük quruculuq işləri sayəsində 2024-cü ilin mayında şəhərə ilk qayıdış həyata keçirildi. Həmin il mayın 10-da - Ulu Öndərimiz Heydər Əliyevin doğum günündə Şuşaya dönən sakinlərlə görüşündə Prezident İlham Əliyev demişdi: "Siz otuz iki il vətən həsrəti ilə yaşamısınız, amma bilirəm ki, bir an da Şuşanı unutmamısınız, bilirdiniz və inanırdınız ki, siz buraya qayıdacaqsınız. Mən də bilirdim, mən də inanırdım və Prezident kimi 2003-cü ildən başlayaraq sizi və bütün keçmiş köçkünləri öz doğma vətəninə qaytarmaq üçün əlimdən gələni əsirgəmirdim". Bu fikirlər Azərbaycan dövlətinin qarşıya qoyduğu məqsədə sadiqliyini və Böyük qayıdışın təmin edilməsi istiqamətində siyasi iradəsini bir daha göstərdi.

Prezident İlham Əliyevin simasında müstəqil Azərbaycanın qarşısında duran tarixi vəzifə yalnız işğal altındakı ərazilərin düşməndən azad edilməsi ilə bitmirdi. Dövlətimizin suverenliyinin ölkəmizin bütün ərazisində tam bərpa edilməsi də strateji hədəf olaraq qalırdı. 2020-ci il Zəfərindən sonra Qarabağda separatçı rejimin mövcudluğunu hələ də davam etdirməsi, ərazilərimizdə qanunsuz silahlı birləşmələrin saxlanılması və Ermənistanın hərbi təxribatları bu hədəfin reallaşdırılmasını, "dəmir yumruğ"un öz sözünü deməsini zəruri edirdi.

2023-cü il sentyabrın 19-da Azərbaycan Ordusu tərəfindən Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı ölkəmizin konstitusiya quruluşunun bərpası və suveren hüquqlarının təmin edilməsi baxımından tam həlledici mərhələ oldu. Cəmi 23 saatdan bir qədər artıq davam edən əməliyyat nəticəsində qanunsuz silahlı birləşmələrin, terrorçu dəstələrin fəaliyyəti dayandırıldı, separatçı rejim təslim oldu və Azərbaycan dövlətinin suverenliyi bütün ərazilərində bərpa edildi. Sentyabrın 20-də Prezident İlham Əliyevin xalqa müraciəti ilə antiterror tədbirlərinin uğurla başa çatdığı elan olundu. Beləliklə, 2020-ci ilin noyabrında Şuşada qazanılan Zəfərdən başlanan tarixi proses Azərbaycanın ərazi bütövlüyünün və dövlət suverenliyinin tam bərpası ilə yekunlaşdı. 2023-cü il sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi tariximizə daxil oldu.

Azərbaycanın dövlət suverenliyinin tam bərpa olunmasının ən qürurverici və simvolik məqamlarından biri Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Zəfər seçkisində öz ailə üzvlərilə birlikdə doğma Xankəndi şəhərində səs verməsi oldu. Dövlət başçısının Qarabağın mərkəzində - bir vaxtlar separatçıların yuva qurub çirkin, qondarma iddialar səsləndirdiyi Xankəndidə Azərbaycan Respublikasının Prezidenti seçkilərində iştirak edərək səs verməsi ədalətin və suverenliyin təntənəsinin ən ali təzahürü idi. "Xankəndidə verdiyim səs, o qutuya atdığım bülleten sadəcə olaraq bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi", - deyə Prezident İlham Əliyev andiçmə mərasimində Qarabağda separatizmin kökünün tamamilə kəsildiyini, dünya ermənilyinin 200 illik qondarma planlarının iflasını bu sözləri ilə ifadə etdi.

Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfərimiz və ərazi bütövlüyümüzün bərpası milli qürur rəmzidir. Bizə millət və xalq olaraq tarixi qəhrəmanlıqlarla dolu bu qüruru yaşadan Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və şanlı milli ordumuzdur. Qarşıdan gələn Zəfər Günü ərəfəsində qanı ilə ana torpaqlarımızı bizim üçün vətənə çevirmiş bütün şəhidlərimizi sonsuz ehtiramla, minnətdarlıqla yad edir, qəhrəman qazilərimizə möhkəm cansağlığı, şəfa arzulayırıq.

Torpaqlarımızı tarixi düşmənlərimizdən azad edən, ərazi bütövlüyünün bərpasına nail olan güclü müstəqil Azərbaycanın yaratdığı yeni geostrateji reallıq bu gün Cənubi Qafqazda sülhün və sabitliyin bərqərar olması üçün tarixi zəmin formalaşdırıb. 30 ildən sonra torpaqların işğaldan azad olunmasını təmin edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev həm də regionda sülhün bərqərar olmasının əsas təşəbbüskarı kimi bu gün ölkəmizdə və dünya miqyasında xüsusi yüksək nüfuza malik olan, sevilən liderdir. Ölkəmiz tərəfindən aparılan bu ardıcıl və qətiyyətli siyasi kursun məntiqi davamı olaraq, 2025-ci ilin avqustunda Vaşinqtonda Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanması və sülh sazişi mətninin paraflanması rəsmi Bakının irəli sürdüyü sülh gündəliyinin beynəlxalq səviyyədə dəstəkləndiyini aydın nümayiş etdirdi. ATƏT-in Minsk qrupunun timsalında illərboyu münaqişənin həllinə nail ola bilməyən, yaxud onun həll olunmasını istəməyən səmərəsiz mexanizmlərin tarixin arxivinə göndərilməsi və Cənubi Qafqazda yeni əməkdaşlıq arxitekturasının qurulması Prezident İlham Əliyevin strateji uzaqgörənliyinin və qətiyyətli siyasətinin məntiqi nəticəsidir.

Azərbaycanın ərazi bütövlüyünün bərpası Prezident İlham Əliyevin illərdir apardığı, əsası böyük şəxsiyyət Heydər Əliyev tərəfindən qoyulmuş qətiyyətli və cəsarətli siyasətin təntənəsidir. Bu hadisə həm də müstəqil dövlətimizin gücünü və özünün milli maraqlarını qorumaq əzmini bir daha bütün dünyaya nümayiş etdirdi. Azərbaycan çox qısa vaxtda beynəlxalq hüququn prinsiplərinə və öz konstitusion hüquqlarına əsaslanaraq ölkənin bütün ərazisində vahid idarəetmə sistemini bərpa etdi. Bununla da, əslində, dövlətçilik tariximizdə yeni tarixi mərhələnin başlanğıcı qoyuldu. Bu mərhələdə respublikamızın qarşısında duran ən mühüm vəzifələrdən biri Böyük qayıdışın tez və uğurla həyata keçirilməsi, Qarabağ və Şərqi Zəngəzurun ölkəmizin ümumi iqtisadi, sosial və mədəni həyatına tam inteqrasiyasının təmin edilməsidir. Prezident İlham Əliyev və Mehriban xanım Əliyevanın yüksək diqqəti ilə işğaldan azad edilmiş ərazilərdə müasir infrastrukturun qurulması, yaşayış məntəqələrinin yenidən salınması, məktəblərin, xəstəxanaların, sosial obyektlərin istifadəyə verilməsi, yeni iş yerlərinin açılması dövlətimizin gələcəyə hesablanmış işıqlı siyasətinin əsas istiqamətləridir. Doğma yurd-yuvalarına qayıdan keçmiş məcburi köçkünlərin öz evlərində məskunlaşması isə əldə edilmiş Qələbənin real nəticələrinin insanların gündəlik həyatında öz əksini tapmasıdır.

İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər və ardınca davam etdirilən sistemli xarici siyasət Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu keyfiyyətcə yeni zirvəyə qaldırıb. Ölkəmiz artıq dünyada Cənubi Qafqazın lider dövləti, qlobal siyasi arenada rəyi ilə hesablaşılan regional güc mərkəzi kimi qəbul olunur. Rəsmi Bakının təşəbbüskarı olduğu sülh gündəliyi, Türk Dövlətləri Təşkilatında artan aparıcı rolu və beynəlxalq təşkilatlarda nümayiş etdirdiyi prinsipial, qətiyyətli mövqe Azərbaycanı, sözün əsl mənasında, geostrateji qərarların qəbul edildiyi əsas mərkəzlərdən birinə çevirib. Eyni zamanda postmünaqişə dövründə Azərbaycanın qlobal enerjinin təhlükəsizliyindəki rolu daha da möhkəmlənib. Avropanın enerji xəritəsini yenidən çəkən ölkəmiz yalnız ənənəvi enerji ixracatçısı kimi deyil, həm də "yaşıl enerji"yə keçid prosesində öncül tərəfdaş kimi çıxış edir. Regional nəqliyyat və logistika dəhlizlərinin reallaşdırılması istiqamətində atılan addımlar Azərbaycanı Şərqlə Qərbin, Şimalla Cənubun arasında əvəzolunmaz tranzit qovşağına çevirərək onun beynəlxalq geosiyasi və geoiqtisadi çəkisini daha da artırır.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dahi şəxsiyyət Heydər Əliyevin yolunun davamçısı kimi uzaqgörən siyasəti, milli birlik və güclü iqtisadiyyat sayəsində Azərbaycan xalqı öz tərəqqisinin ən qürurlu, iftixar dolu təkrarsız dövrünü yaşayır. Bu yeni mərhələ ölkəmizin gələcək onilliklər üçün dayanıqlı inkişafını, milli təhlükəsizliyini və beynəlxalq arenada lider dövlət statusunu və xalqımızın qalibiyyət mənbəyini əbədi olaraq təmin edib.

Bəxtiyar ƏSGƏROV,
filologiya üzrə fəlsəfə doktoru

Qarabağ Zəfəri Azərbaycanın milli gücünün və strateji hazırlığının nəticəsidir

"Liam Kollinz və Con Spenserin "Qarabağ uğrunda müharibə: Strategiya, texnologiya və qələbə" kitabının əsas dəyəri 44 gün davam edən müharibədə qazanılan Zəfərin arxasındakı hazırlığın mahiyyətini faktlarla açaraq təqdim etməsidir. Müəlliflər şəxsi hərbi təcrübə və təhlil qabiliyyətini birləşdirərək "səhra tədqiqatı" və çoxsaylı müsahibələr əsasında bu kitabı yazıblar".



Bu sözləri AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Rizvan NƏBİYEV** deyib.

O qeyd edib ki, amerkalı müxətəxəsislər Azərbaycanın Qələbəsini yalnız pilotsuz uçuş aparatları və müasir silahlarla izah edən yanaşmanın çərçivəsindən çıxaraq daha geniş və çoxölçülü mənzərəni göstəriblər. Dövlətin iqtisadi imkanları, siyasi iradəsi, diplomatik fəaliyyəti və hərbi hazırlığı bir-birini tamamlayıb. Kitabda Qarabağ Zəfərinin Azərbaycanın milli gücünün qələbəsi olduğu açıq şəkildə göstərilib.

"Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin strateji nəticəsi ölkənin artan imkanlarının uzunmüddətli ordu quruculuğuna yönəldilməsi idi. Liam Kollinz və Con Spenserin tədqiqatında vurğulanan milli güc yanaşması da məhz bu əlaqəni anlamağa kömək edir. İqtisadi resurslar, siyasi rəhbərlik, hərbi hazırlıq və Azərbaycan əsgərinin peşəkarlığı birlikdə qələbənin əsasını formalaşdırmışdı. Müharibəyə hazır olmaq ordunun uzunmüddətli ehtiyaclarını qarşılamaq, təchizatı yeniləmək, şəxsi heyəti hazırlamaq və döyüş zamanı təminatın davamlılığını qorumaq deməkdir. Bunların hər biri güclü maliyyə bazası tələb edir. 2020-ci ilə qədər həyata keçirilən enerji və infrastruktur layihələri, artan dövlət gəlirləri Azərbaycanın müdafiə imkanlarını genişləndirdi. Lakin sərvətin mövcudluğu öz-özlüyündə hərbi uğura təminat vermir. Əsas məsələ həmin sərvətdən necə istifadə olunmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi dövründə iqtisadi imkanların ordu quruculuğuna yönəldilməsi ardıcıl dövlət siyasətinə çevrildi. Müasir silahların alınması, hərbi infrastrukturun inkişafı, təlimlərin təşkili və şəxsi heyətin hazırlığı bir-biri ilə bağlı vəzifələr kimi həyata keçirildi. İqtisadi potensial bu yolla real müdafiə qabiliyyətinə çevrilirdi. Strategiyanın siyasi mahiyyəti isə məqsədin aydınlığında və ona çatmaq üçün göstərilən ardıcıllıqda idi. Ərazi bütövlüyünün bərpası illərboyu Prezident İlham Əliyevin strateji rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas prioriteti olaraq qaldı. Dəyişən beynəlxalq şəraitdə bu məqsədi qorumaq, imkanları artırmaq və riskləri qiymətləndirmək siyasi səbir və iradə tələb edirdi. Dövlətimizin başçısının yanaşmasında uzunmüddətli hazırlıqla zəruri anda qətiyyətli qərar qəbul etmək bacarığı birləşirdi. Burada diplomatiyanın rolunu da ayrıca vurğulamaq lazımdır. Azərbaycan münaqişəyə dair mövqeyini beynəlxalq təşkilatlarda müdafiə edir, ikitərəfli əlaqələrini genişləndirir, müxtəlif güc mərkəzləri ilə münasibətlər qururdu. Bu fəaliyyətin əhəmiyyəti yalnız danışıqlar masasında əldə olunan nəticələrlə ölçülmürdü. Ölkənin mövqeyinin tanıdılması, tərəfdaşların maraqlarının nəzərə alınması və beynəlxalq əlaqələrin qorunması da dövlətin fəaliyyət imkanlarını artırırdı", - deyə deputat bildirib.

Rizvan Nəbiyev vurğulayıb ki, kitab Azərbaycanın Zəfərinə geniş çərçivədə baxmağa imkan verir. Qələbənin iqtisadi dayaqları, siyasi məqsədi, diplomatik hazırlığı, hərbi və mənəvi əsasları vardı. Bunlar illər ərzində formalaşaraq 2020-ci ildə bir-birini tamamlayıb. Prezident, Ali Baş Komandan İlham Əliyevin strateji rəhbərliyi milli imkanları vahid məqsəd ətrafında səfərbər etdi. Azərbaycan əsgəri və zabiti isə bu hazırlığı öz cəsarəti, fədakarlığı və peşəkarlığı ilə döyüş meydanında Zəfərə çevirdi. Qarabağ qələbəsinin mahiyyətini anlamaq üçün həm onu mümkün edən dövlət siyasətini, həm də həmin siyasətin qarşıya qoyduğu vəzifəni yerinə yetirən hərbçinin əməyini və qəhrəmanlığını birlikdə qiymətləndirmək lazımdır.

Buxarestdə Azərbaycanın Zəfər Günü qeyd olunub



Rumıniyanın paytaxtı Buxarestdə Azərbaycanın 8 Noyabr - Zəfər Günü münasibətilə rəsmi qəbul təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Rumıniyadakı səfirliyinin təşəbbüsü və təşkilatçılığı ilə "Club Diplomatic" sarayında keçirilən tədbirdə Rumıniya Senatının sədri Mirça Abrudyan, hökumət nümayəndələri, deputatlar, senatorlar, ölkədə akkreditə olunmuş diplomatik korpusun rəhbərləri, ictimai-siyasi xadimlər, elm və mədəniyyət nümayəndələri, media təmsilçiləri, türk və tatar icmalarının, eləcə də Rumıniyada yaşayan və təhsil alan azərbaycanlıların nümayəndələri iştirak ediblər.

Tədbir Azərbaycan və Rumıniyanın dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxış edən Azərbaycanın Rumıniyadakı səfiri Qüdsi Osmanov 44 günlük Vətən müharibəsinin tarixi əhəmiyyətindən danışıb. Diplomat bildirib ki, Azərbaycan torpaqları təxminən 30 il işğal altında qalıb, bir milyondan çox azərbaycanlı doğma yurdlarından didərgin düşüb, şəhər və kəndlər dağıdılıb.

Səfir vurğulayıb ki, 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Qələbə qazanıb.

Qüdsi Osmanov müharibədənsonrakı dövrdə Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərindən də bəhs edib. O, bölgədə yeni infrastruktur layihələrinin reallaşdırıldığını, yaşayış məntəqələrinin yenidən qurulduğunu və keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının davam etdiyini diqqətə çatdırıb.

Tədbirin əsas qonağı, Rumıniya Senatının sədri Mirça Abrudyan çıxışında 8 Noyabr tarixinin Azərbaycan üçün xüsusi əhəmiyyət daşıdığını bildirib. O, bu tarixin Cənubi Qafqazın inkişafında yeni mərhələnin başlanğıcı olduğunu qeyd edib.

Senatın sədri Rumıniyanın Azərbaycanın etibarlı dostu və strateji tərəfdaşı olduğunu vurğulayaraq, iki ölkə arasında münasibətlərin qarşılıqlı etimada və ortaq strateji maraqlara əsaslandığını söyləyib.

Mirça Abrudyan müasir beynəlxalq münasibətlər sistemində regional və qlobal təhlükəsizliyə təhdidlərin artdığını diqqətə çatdırıb. O, belə bir şəraitdə dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətin, mübahisələrin diplomatik vasitələrlə həllinin xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

Rumıniya Senatının sədri Cənubi Qafqazda yeni inkişaf mərhələsinin başlandığını qeyd edərək, regionun gələcəkdə iqtisadi, enerji və nəqliyyat layihələri ilə daha çox tanınacağına ümidvar olduğunu ifadə edib.

Tədbirdə Azərbaycanın Zəfər Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Qonaqlar həmçinin Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbəni, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərini və mina problemini əks etdirən fotosərgi ilə tanış olublar.

Rəsmi qəbulun sonunda iştirakçılara Azərbaycan milli mətbəxinin nümunələri təqdim edilib.



Azərbaycançılıq - milli birliyin, müstəqil dövlətçiliyin və etibarlı gələcəyin ideoloji əsası

Dünyanın çoxəsrlik tarixi göstərir ki, dövlətlərin təşəkkül tapması ilə onların möhkəm siyasi və mənəvi əsaslar üzərində inkişaf etməsi eyni proses deyildir. Dövlətin müstəqilliyi hüquqi sənədlərlə təsbit oluna, suverenliyi beynəlxalq səviyyədə tanına, sərhədləri müəyyənləşdirilə bilər.

Lakin dövlətçiliyin uzunömürlülüyü həm də cəmiyyətin özünü vahid siyasi birlik kimi dərk etməsindən, ortaq dəyərlərə və gələcək haqqında ümumi təsəvvürə malik olmasından asılıdır. Bu mənada dövlətçilik ideologiyaları tarixboyu mühüm ictimai-siyasi funksiya yerinə yetirmiş, ayrı-ayrı insanların, sosial təbəqələrin və müxtəlif maraq qruplarının ümumdövlət məqsədləri ətrafında birləşməsinə, milli kimliyin formalaşmasına, tarixi yaddaşın qorunmasına və nəsillər arasında mənəvi varisliyin təmin olunmasına xidmət etmişdir.

Müxtəlif tarixi dövrlərdə dövlətlərin ideoloji dayaqları fərqli olmuşdur. Bəzi cəmiyyətlərdə milli azadlıq və müstəqillik ideyası, digərlərində konstitusion vətəndaşlıq, respublikaçılıq, azadlıq və bərabərlik prinsipləri ön plana çıxmışdır. Lakin bu yanaşmaların ortaq cəhəti insanların hansı siyasi birliyin üzvü olduqlarını və həmin birliyin gələcəyi qarşısında hansı məsuliyyəti daşıdıqlarını müəyyənləşdirmək cəhdidir. Bu baxımdan Prezident İlham Əliyevin VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundakı çıxışı zamanı ideoloji məsələlərə, xüsusən azərbaycançılıq ideologiyasına xüsusi yer ayırması təsadüfi deyildir.

Milli özünüdərkdən dövlətçilik məfkurəsinə

XXI əsrdə qloballaşma, miqrasiya, rəqəmsal informasiya mühiti, geosiyasi rəqabət və sürətli sosial dəyişikliklər milli ideyaların əhəmiyyətini yeni müstəviyə çıxarmaqdadır. Ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü milli dövlətçilik kursunu uğurla həyata keçirən Prezident İlham Əliyevin inkişaf strategiyasının nailiyyətləri sayəsində bu gün tarixinin ən qüdrətli dövrünə gəlib çatmış Azərbaycan dövləti üçün də hazırda əsas məsələlərdən biri xalqımızın milli kimliyini qorumaq, eyni zamanda onu qapalı və dəyişməz anlayışa çevirmədən ümumbəşəri dəyərlərlə uzlaşdırmaqdır.

Azərbaycançılıq ideologiyası XX əsrin sonlarında birdən-birə meydana çıxmış siyasi ideya deyildir. Onun intellektual və mənəvi qaynaqları Azərbaycan xalqının çoxəsrlik tarixi, dili, mədəniyyəti, dövlətçilik ənənələri və xüsusilə XIX əsrin sonu - XX əsrin əvvəllərində geniş vüsət almış milli oyanış hərəkatı ilə bağlıdır. Maarifçilik ideyalarının yayılması, milli mətbuatın təşəkkülü, ana dilinin inkişafı, təhsil və mədəniyyət sahəsində aparılan fəaliyyət Azərbaycan cəmiyyətində milli mənsubiyyət və ortaq gələcək haqqında təsəvvürlərin dərinləşməsinə şərait yaratmışdır. Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə və digər ictimai-siyasi fikir nümayəndələrinin fəaliyyəti milli özünüdərk prosesinin müxtəlif istiqamətlərini əks etdirirdi. Bu düşüncə mühitində dil, mədəniyyət, maarifçilik, milli hüquqlar və siyasi özünüidarə məsələləri getdikcə daha sıx əlaqələndirilirdi.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması milli özünüdərk prosesinin müstəqil dövlətçilik mərhələsinə yüksəlməsinin mühüm ifadəsi oldu. Təəssüf ki, cümhuriyyətin ömrü qısa - cəmi 23 ay oldu. Sovet hakimiyyəti dövründə Azərbaycan formal şəkildə müttəfiq respublika statusuna malik olsa da, onun müstəqil siyasi qərarvermə imkanları məhdud idi. Bununla belə, Azərbaycan dili, ədəbiyyatı, elm və mədəniyyət sahələrində milli kimliyin yaşadılması davam edirdi. Beləliklə, XX əsrin sonunda dövlət müstəqilliyimizin bərpası zamanı azərbaycançılığın söykənə biləcəyi tarixi, mədəni və mənəvi zəmin artıq formalaşmışdı. Yeni tarixi şəraitdə qarşıda duran vəzifə həmin dəyərləri müasir, müstəqil dövlətin birləşdirici siyasi fəlsəfəsi ilə əlaqələndirməkdən ibarət idi.

1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra müstəqilliyin ilk illəri son dərəcə mürəkkəb siyasi, iqtisadi və hərbi şəraitlə müşayiət olunurdu. Sovet İttifaqının dağılması ilə əvvəlki siyasi və ideoloji sistem öz dayaqlarını itirmiş, ölkə yeni dövlət institutlarının yaradılması, iqtisadi münasibətlərin yenidən qurulması, Ermənistanla müharibə və ərazilərinin işğalı, qaçqın və məcburi köçkün problemi, daxili siyasi qarşıdurmalar, separatizm təhlükələri ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə dövlət müstəqilliyinin elan edilməsi ilə onun qorunub saxlanılması arasında ciddi fərq görünürdü. Azərbaycan artıq beynəlxalq hüququn müstəqil subyekti idi, lakin dövlətin daxilində davamlı siyasi sabitliyin, ictimai etimadın və ümummilli həmrəyliyin formalaşdırılmasına böyük ehtiyac vardı.

1993-cü ildə Azərbaycanın ağır günlərində xalqın təkidli tələbi ilə respublika rəhbərliyinə qayıdan Heydər Əliyevin qarşısında dayanan əsas vəzifələrdən biri müxtəlif sosial, siyasi, etnik və dini qrupları dövlətin müstəqilliyi və bütövlüyü ətrafında birləşdirmək idi. Məhz belə bir tarixi şəraitdə azərbaycançılıq ideyası dövlət quruculuğunun mühüm ideoloji istiqaməti kimi ön plana çəkildi. Bu seçimin bir neçə prinsipial səbəbi vardı. Əvvəla, yeni müstəqil dövlətin ideoloji əsasları sovet dövrünün siyasi dünyagörüşündən fərqlənməli, milli tarixi yaddaşa və xalqın öz dövlətinə sahiblik hissinə söykənməli idi. İkincisi, Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı cəmiyyət olması bütün vətəndaşları əhatə edə biləcək ümumi mənsubiyyət anlayışını zəruri edirdi. Yalnız etnik mənsubiyyəti əsas götürən dar siyasi yanaşma belə bir şəraitdə parçalanma risklərini gücləndirə bilərdi. Üçüncüsü, ölkənin təhlükəsizliyi və dövlət institutlarının möhkəmləndirilməsi üçün cəmiyyətin ümummilli maraqlar ətrafında həmrəyliyinə ehtiyac vardı. Dördüncüsü, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların tarixi vətənlə mənəvi əlaqələrinin gücləndirilməsi, onların potensialının mədəni, ictimai və iqtisadi əməkdaşlığa yönəldilməsi mühüm perspektiv kimi qiymətləndirilirdi.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin siyasi xəttində azərbaycançılıq müxtəlif insanları ortaq dövlətçilik məqsədləri ətrafında birləşdirməyə yönəlmiş konsepsiya kimi inkişaf etdirildi. Bu yanaşma Ümummilli Liderin 2001-ci ilin noyabrında Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında da ifadəsini tapmışdı. Heydər Əliyev azərbaycançılığı milli mənsubiyyətin və mənəvi dəyərlərin qorunması ilə yanaşı, ümumbəşəri dəyərlərdən bəhrələnmək və insan inkişafı ilə əlaqələndirirdi.

Burada diqqətçəkən məqam ondan ibarətdir ki, azərbaycançılığın məzmunu təkcə keçmişə bağlılıqla məhdudlaşdırılmır, gələcəyə istiqamətlənmiş inkişaf fəlsəfəsi kimi təqdim olunurdu.

Milli kimlik, vətəndaşlıq və dövlətçiliyin vəhdəti

Azərbaycançılığın məzmununu bir neçə fundamental anlayışın qarşılıqlı əlaqəsində görmək mümkündür: müstəqil dövlətçilik, milli kimlik, vətəndaş həmrəyliyi, dil və mədəniyyət, tarixi yaddaş, mənəvi dəyərlər və ümumbəşəri prinsiplərə açıqlıq. Bu ideologiyanın əsas xüsusiyyətlərindən biri milli və vətəndaş mənsubiyyətini bir-birinə qarşı qoymadan əlaqələndirmək imkanındadır.

Azərbaycançılıq bir tərəfdən Azərbaycan xalqının dilini, tarixini, mədəniyyətini və mənəvi irsini qorumağa yönəlir, digər tərəfdən Azərbaycan Respublikasını Vətən hesab edən, onun vətəndaşı olan müxtəlif etnik və dini mənsubiyyətli insanların ortaq siyasi birliyini ifadə edir. Bu baxımdan azərbaycançılığın etnik millətçilikdən fərqləndirilməsi mühüm əhəmiyyət daşıyır. Etnik mənsubiyyət insanın mənşəyi və mədəni kimliyi ilə bağlıdırsa, vətəndaş mənsubiyyəti onun dövlətlə hüquqi və siyasi əlaqəsini ifadə edir. Azərbaycançılığın inklüziv şərhi bu iki anlayış arasında qarşıdurma deyil, qırılmaz bağ yaradır.

Bu fəlsəfənin hüquqi təməlini Azərbaycan Respublikasının Konstitusiyasında da görmək mümkündür. 1995-ci il noyabrın 12-də referendumla qəbul edilmiş Konstitusiyanın preambulasında dövlət müstəqilliyinin qorunması, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafı, ədalət və ümumbəşəri dəyərlərə sadiqlik əsas məqsədlər kimi müəyyənləşdirilmişdir. Konstitusiyanın 12-ci maddəsində isə insan və vətəndaş hüquqlarının, habelə layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi elan olunur.

Bu müddəalar mühüm prinsipə işarə edir: dövlətçilik ideyası yalnız dövlətin gücünü deyil, həm də insanın hüquqlarını, rəyaqətini və rifahını nəzərdə tutmalıdır. Başqa sözlə, azərbaycançılığın müasir məzmununda Vətənə sədaqət və dövlətə bağlılıq vətəndaşın hüquqları, azadlıqları və qanun qarşısında bərabərliyi ilə birlikdə düşünülməlidir.

Azərbaycan cəmiyyəti tarixən fərqli etnik, dini və mədəni ənənələrin qarşılıqlı təmasda olduğu bir mühitdə formalaşmışdır. Bu müxtəliflik ölkənin sosial və mədəni həyatının mühüm xüsusiyyətlərindəndir. Belə bir cəmiyyətdə milli birliyin təmin olunması bütün fərqlərin aradan qaldırılması demək deyildir. Əksinə, davamlı birlik müxtəliflikləri qorunduğu, lakin insanların özlərini eyni dövlətin bərabərhüquqlu vətəndaşları kimi hiss etdiyi şəraitdə mümkün olur. Azərbaycançılıq məhz bu yanaşma əsasında cəmiyyətin inteqrasiyasına töhfə verir. İnsanların qanun qarşısında bərabərliyi, təhsilə və ictimai imkanlara çıxışı, mədəni kimliyinə hörmət, sosial ədalət və ictimai qərarların qəbulunda iştirakı vətəndaş həmrəyliyinin real əsaslarını yaradır.

Dövlətin möhkəmlənməsində ideologiyanın rolu

Azərbaycançılığın gələcək inkişafı üçün mühüm məsələlərdən biri onun yalnız mənəvi çağırış kimi deyil, gündəlik həyatda hiss olunan vətəndaşlıq mədəniyyəti kimi möhkəmləndirilməsidir. Müstəqil dövlətin möhkəmlənməsi kompleks prosesdir. Buraya səmərəli dövlət idarəçiliyi, təhlükəsizlik, iqtisadi inkişaf, hüquqi institutlar, sosial sabitlik və beynəlxalq münasibətlər və s. daxildir. İdeologiya bu amillərin heç birini əvəz edə bilməsə də, ortaq dəyərlər sistemi onların cəmiyyət tərəfindən qəbul edilməsinə, dövlət institutlarına etimadın formalaşmasına və ümumi məqsədlərin müəyyənləşdirilməsinə təsir göstərir.

Azərbaycançılığın dövlətçilik baxımından rolu da elə burada üzə çıxır. İlk növbədə o, müstəqilliyi siyasi statusdan daha çox nəsillərarası məsuliyyət kimi dərk etməyə imkan yaradır. Dövlətin müstəqilliyi keçmiş nəsillərin tarixi mübarizəsi, indiki nəslin vətəndaşlıq məsuliyyəti və gələcək nəsillərin hüquqları ilə əlaqələndirilir. Digər tərəfdən, bu ideologiya tarixi yaddaşla müasir dövlət institutları arasında mənəvi bağ yaradır. Xalqın keçmişi, mədəni irsi və dövlətçilik ənənələri müasir vətəndaşlıq düşüncəsinin formalaşmasında mənbəyə çevrilir. Üçüncü mühüm istiqamət böhran dövrlərində ictimai həmrəylik potensialıdır. Xarici təhlükələr, müharibələr, humanitar böhranlar və digər ciddi çağırışlar zamanı ortaq mənsubiyyət hissi cəmiyyətin səfərbərlik imkanlarını artırır. Tarixi Zəfərimizlə, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunması ilə başa çatmış 44 günlük Vətən müharibəsində buna hər birimiz şahid olduq.

İdeologiyanın effektivliyi, uzunmüddətli nəticələri insanların dövlət institutlarına etimadı, ictimai həmrəyliyin səviyyəsi, vətəndaşların imkanlara bərabər çıxışı və qanunun aliliyinin təmin olunması kimi göstəricilər vasitəsilə qiymətləndirilməlidir və bu gün rifah dövləti quran Azərbaycan rəhbərliyi bu məqamlara da xüsusi diqqət yetirir.

Yeni imkanlar, yeni çağırışlar

Nəzəriyyəçilərin fikirlərinə görə, bu da bir reallıqdır ki, qloballaşma şəraitində milli kimliyin gələcəyi ilə bağlı suallar daha mürəkkəb xarakter almaqdadır. İnformasiya texnologiyaları, beynəlxalq təhsil, miqrasiya, iqtisadi inteqrasiya və mədəni əlaqələr insanların dünyagörüşünü sürətlə dəyişir. Bu proseslər milli kimlik üçün həm yeni imkanlar, həm də müəyyən çağırışlar yaradır. Bir tərəfdən dünya ilə açıq əlaqələr elmi biliklərin, yeni texnologiyaların və qabaqcıl idarəetmə təcrübələrinin mənimsənilməsinə imkan verir, digər tərəfdən qlobal mədəni təsirlər şəraitində ana dilinin, tarixi yaddaşın və yerli mədəni irsin gələcək nəsillərə ötürülməsi xüsusi diqqət tələb edir. Müasir azərbaycançılığın qarşısında duran əsas vəzifələrdən biri bu iki istiqamət arasında səmərəli tarazlıq yaratmaqdır. Milli kimliyi qorumaq dünyadan təcrid olunmaq demək deyil. Eyni zamanda qlobal proseslərə inteqrasiya da milli özünəməxsusluqdan imtina etmək anlamına gəlməməlidir. Ümummilli Lider Heydər Əliyevin azərbaycançılığa yanaşmasında milli-mənəvi dəyərlərlə ümumbəşəri dəyərlərin əlaqələndirilməsi məhz bu baxımdan əhəmiyyətlidir.

Belə bir fəlsəfə Prezident İlham Əliyevin müəllifliyi ilə yaradılan yeni imkanlar və nailiyyətlər mühitində daha geniş tətbiq imkanlarına malikdir. Azərbaycanlı gəncin öz ana dilini, milli tarixini bilməsi ilə dünyanın nüfuzlu universitetlərində təhsil alması, beynəlxalq elmi və texnoloji proseslərdə iştirak etməsi arasında ziddiyyət yoxdur. Əksinə, milli kimliyini dərk edən və dünyaya açıq olan insan ölkəsinin intellektual və mədəni inkişafına daha geniş töhfə verə bilər və Azərbaycan dövləti də müxtəlif proqramlar, o cümlədən gənclərimizin dünyanın nüfuzlu universitetlərində təhsil almasına şərait yaradan dəstək proqramları ilə bunu təşviq edir. Azərbaycançılığın bu mənada perspektivi milli özünəməxsusluqla qlobal rəqabət qabiliyyətini birləşdirən müasir vətəndaşlıq düşüncəsinin formalaşmasıdır.

Azərbaycançılığın mühüm istiqamətlərindən biri də ölkə hüdudlarından kənarda yaşayan azərbaycanlılarla mənəvi və mədəni əlaqələrin qorunmasıdır. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar fərqli dövlətlərin vətəndaşları, müxtəlif siyasi və sosial sistemlərin iştirakçıları ola bilərlər. Amma onları Azərbaycan dili, tarixi yaddaş, mədəniyyət və mənəvi mənsubiyyət kimi ortaq dəyərlər birləşdirir.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı bu istiqamətdə mühüm tarixi hadisələrdən olmuşdur. Qurultay müxtəlif ölkələrdəki Azərbaycan icmaları arasında əlaqələrin inkişafına və onların Azərbaycan Respublikası ilə əməkdaşlığına təşkilati imkan yaratmışdır.

Müasir dövrdə diaspor fəaliyyətinin əhəmiyyəti yalnız milli mədəniyyətin təbliği ilə məhdudlaşmır. Xaricdə yaşayan azərbaycanlı alimlər, mütəxəssislər, sahibkarlar və yaradıcı şəxslər elm, təhsil, innovasiya, mədəniyyət və iqtisadiyyat sahələrində beynəlxalq əməkdaşlığın inkişafına töhfə verə bilərlər. Bu isə həm də o deməkdir ki, azərbaycançılıq coğrafi sərhədlərlə məhdudlaşmayan mədəni və mənəvi əlaqələr sistemi kimi də yüksək inkişaf potensialına malikdir.

Azərbaycançılığın gələcək perspektivləri

Azərbaycan dövləti qarşısında duran mühüm strateji vəzifələr azərbaycançılıq ideologiyasına yalnız tarixi baxımdan yox, gələcək inkişaf perspektivləri baxımından da yanaşmağı zəruri edir. Bu gün dövlətçilik məfkurəsinin aktuallığı yeni nəsillərin yetişdirilməsi, sosial münasibətlərin inkişafı, iqtisadiyyatın modernləşdirilməsi, rəqəmsallaşma və qlobal rəqabət şəraitində daha aydın görünür.

Birinci mühüm istiqamət cəmiyyətimizdə vətəndaşlıq şüurunun gücləndirilməsidir. Gələcəyin azərbaycançılıq ideologiyası dövlətə bağlılığı yalnız emosional münasibət kimi deyil, ictimai məsuliyyət, qanunlara hörmət, dürüstlük, peşəkarlıq və cəmiyyətin inkişafında fəal iştirak kimi də təşviq etməlidir. İkinci istiqamət təhsil və gənclərlə bağlıdır. Milli kimliyin davamlılığı tarixi məlumatların mənimsənilməsi ilə yanaşı, həmin tarixin mahiyyətinin dərk olunması, tənqidi düşüncənin inkişafı və gənclərin müstəqil mövqe formalaşdırmaq bacarığı ilə təmin edilə bilər. Milli dəyərləri mənimsəyən, eyni zamanda elmi biliklərə, innovasiyaya və dünyəvi təcrübəyə açıq olan yeni nəsil dövlətin inkişafı üçün mühüm insan kapitalıdır. Üçüncü istiqamət mədəni müxtəliflik və sosial həmrəylik, digər istiqamət milli dilin və mədəniyyətin rəqəmsal dövrdə inkişafıdır. Daha bir istiqamət isə iqtisadi və sosial məsuliyyətdir.

Nəhayət, azərbaycançılığın uzunmüddətli perspektivi onun hüquqi dövlət və vətəndaş cəmiyyəti prinsipləri ilə qarşılıqlı əlaqəsinin gücləndirilməsindən asılıdır. Vətəndaşın dövlətlə münasibətləri nə qədər çox hüquq, məsuliyyət, etimad və ədalət üzərində qurularsa, ortaq mənsubiyyət hissi də bir o qədər dayanıqlı əsas qazanacaq. Sonda onu da qeyd edək ki, milli dövlətçilik tariximizdə mühüm rol oynamış azərbaycançılıq ideologiyası birləşdirici gücü ilə Azərbaycanın gələcəyi üçün möhkəm təməllər formalaşdırır.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Nadir təcrübə

Bu gün Azərbaycan qədər çoxşaxəli beynəlxalq əlaqələr quran, öz maraqlarını müdafiə edən ikinci ölkə yoxdur

Bu gün Azərbaycan beynəlxalq müstəvidə yalnız regional proseslərin fəal iştirakçısı kimi deyil, həm də qlobal çağırışların edildiyi, həlledici qərarların qəbul olunduğu önəmli mərkəz kimi tanınır. Bakının beynəlxalq platformalara uğurlu sədrliyi və mötəbər tədbirlərə evsahibliyi etməsi qlobal müzakirə mövzularına yeni məzmun və etimad mühiti gətirən strateji missiya kimi diqqət çəkir. Prezident İlham Əliyevin rəhbərliyi ilə yürüdülən uzaqgörən xarici siyasət kursu ölkəmizi sülhün, təhlükəsizliyin və çoxşaxəli əməkdaşlığın etibarlı ünvanına çevirib.

Uğurlu sədrliklər

Azərbaycanın beynəlxalq arenada qazandığı bugünkü yüksək statusu illərboyu ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilən mühüm fəaliyyətin məntiqi nəticəsidir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü və sədrliyi dövründə terrorizmlə mübarizə və hüququn aliliyi məsələlərində qətiyyətli mövqe ortaya qoyan ölkəmiz 2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə altıaylıq sədrliyi zamanı korrupsiya ilə mübarizə, mədəniyyətlərarası dialoq və gənclər siyasətini ön plana çəkdi.

2019-2021-ci illərdə Türk Dövlətləri Təşkilatına (TDT) sədrliyi ilə türk dünyasının birliyinə mühüm töhfələr verən Bakı 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına (QH) 2019-2023-cü ildə sədrlik etdiyi dövrdə sözün həqiqi mənasında təşkilata qızıl dövrünü yaşatdı.

Hərəkata sədrlik etdiyi zamanda Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirildi. Xüsusən dövlətimizin rəhbərinin təşəbbüsləri ilə QH-nin pandemiya ilə mübarizə tədbirləri qlobal səviyyədə təqdir olundu. 2021-ci ilin dekabr ayında BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın plenar iclasında hərəkatın sədri qismində Prezident İlham Əliyevin təşəbbüsü ilə hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlərin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edildi.

Ölkəmizin beynəlxalq platformalardakı fəallığı sistemli və ardıcıl xarakter daşıyır. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrlik edən Azərbaycan "Daha güclü AQEM: rəqəmsallaşma, bağlantılar və Asiyada dayanıqlı inkişaf" xətti ilə təşkilatın institusiyalaşmasına böyük töhfələr verir. Bakıda keçirilən VII Zirvə Görüşündə Bakı Bəyannaməsinin qəbul edilməsi, Laosun tamhüquqlu üzvlüyə qəbulu və səmərəli rəhbərliyin tanınması olaraq Azərbaycanın sədrliyinin 2026-2028-ci illər üçün uzadılması bu uğurun bariz göstəricisidir.

Diplomatik coğrafiyamız gün keçdikcə daha da genişlənir. Yarandığı gündən bəri sırasına əlavə üzv qəbul etməyən, 8 böyük müsəlman ölkəsini bir araya gətirən D-8 təşkilatı öz tarixində ilk dəfə genişlənmə qərarı verərək Azərbaycanı tamhüquqlu üzvlüyə qəbul etdi. Bu qərar Bakının Orta dəhliz və qlobal ticarət marşrutları üzərindəki əvəzsiz rolunu təsdiqləyir.

Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı kimi daxil olması Cənubi Qafqaz ilə Mərkəzi Asiyanın vahid geostrateji və iqtisadi məkan kimi birləşməsində ölkəmizin lokomotiv rolunu bir daha təsdiqlədi.

Azərbaycanın qlobal nüfuzunun ən parlaq səhifələrindən biri beynəlxalq ictimaiyyətin yekdil qərarı ilə evsahibliyi etdiyi COP29 sessiyası oldu. Bakı razılaşmaları çərçivəsində iqlim maliyyəsi sahəsində inqilabi addımların atılması və ildə ən azı 300 milyard dollar vəsaitin səfərbər olunması öhdəliyi ölkəmizin böşəri problemlərin həllində aparıcı aktor olduğunu göstərdi. Azərbaycanın Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına (WUF13) evsahibliyi etməsi qlobal şəhərsalma gündəliyində növbəti mühüm addım oldu.

Beynəlxalq arenada liderlik

Ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsi, bölgədə sülh mühitinin formalaşdırılması, Orta dəhlizin və Zəngəzur dəhlizinin (TRIPP) artan əhəmiyyəti Cənubi Qafqazı qlobal əməkdaşlığın və ticarətin mərkəzinə çevirir.

Önümüzdəki illərdə də Azərbaycanın beynəlxalq arenadakı liderliyi artan xətlə davam edəcək. Avropa İttifaqının 10 üzv dövləti ilə strateji tərəfdaşlıq münasibətləri quran ölkəmiz 2028-ci ildə Avropa Siyasi Birliyinin 12-ci Zirvə toplantısına evsahibliyi edəcək. Bu, ölkəmizin Avropa məkanında artan siyasi nüfuzunun və etibarlı tərəfdaş statusunun göstəricisidir.

Azərbaycanın Müstəqil Dövlətlər Birliyi (MDB) çərçivəsində aktiv fəaliyyəti onun regional proseslərdəki rolunu da birmənalı olaraq artırıb. Bu ardıcıl və məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi, Türkmənistanın Türkmənbaşı şəhərində keçiri-lən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında alınan qərar ölkəmiz üçün tarixi əhəmiyyət kəsb edir. Azərbaycanın 2027-ci ildə təşkilata həmsədr, 2028-ci ildə isə müstəqillik tarixində ilk dəfə MDB-yə sədrlik edəcəyinin təsdiqlənməsi ölkəmizin birlik məkanında nüfuzunun, ona olan yüksək etimadın və regional liderliyinin növbəti təcəssümüdür.

16-cı İslam Zirvə Konfransına evsahibliyi və İslam Əməkdaşlıq Təşkilatına (İƏT) sədrlik isə ölkəmizin islam dünyasındakı liderlik mövqeyini daha da zirvəyə qaldıracaq.

Bütün bunlar Azərbaycanın yürütdüyü çoxvektorlu xarici siyasətin təzahürüdür. Əldə olunan tarixi nailiyyətlər, uğurlu sədrliklər və evsahiblikləri bir daha sübut edir ki, ölkəmiz müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş, strateji təşəbbüslərin müəllifi və qlobal sülhün ən fəal dəstəkçisidir.

Yeni Azərbaycan Partiyasının VIII Qurultayında Prezident İlham Əliyevin vurğuladığı kimi: "...Bizim xarici siyasətlə bağlı addımlarımız dünyada böyük təqdirlə qarşılanır. Nüfuzumuz artır. Biz bir çox yeni formatlara qoşuluruq. Bu gün Azərbaycan qədər çoxşaxəli beynəlxalq əlaqələr quran və bir çox ölkələrlə, deyə biləröm ki, bütün qütblərlə təmasda olan, öz maraqlarını müdafiə edən ikinci ölkə çətin tapılsın, bəlkə də var. Amma hər halda bu bir nadir təcrübədir".

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Fransa sosial modelinin növbəti sınağı



Fransada baş verən son iğtişaşlar və 5 noyabra təyin olunmuş ümummilli tətil, əslində, payız boyu yığılıb qalan sosial gərginliyin kulminasiya nöqtəsidir. Oktyabrın 5-də beş böyük həmkarlar konfederasiyası - CFDT, CGT, FO, Unsa və FSU tərəfindən imzalanan birgə bəyanatla elan olunan bu tətil ilk dəfə olaraq həm dövlət, həm özəl sektoru, təqaüdçüləri və gəncləri eyni tələblər ətrafında birləşdirir. Söhbət, sadəcə, küçə yürüşündən getmir. Ümumi Əmək Konfederasiyasının baş katibi Sofi Binetin səsləndirdiyi "5 noyabrda və sonra tətili ümumiləşdirmək" çağırışı hərəkatın xarakterinin dəyişdiyini göstərir. Əgər oktyabrın 31-də ölkə üzrə 320 mindən 500 minə qədər insanın küçəyə çıxması daha çox simvolik təzyiq idisə, indi etiraz küçədən birbaşa istehsalın, xidmətin dayandığı nöqtəyə, yəni iş yerlərinə keçir. Bu keçid fransız həmkarlar hərəkatı üçün klassik, amma son illərdə zəifləmiş bir strategiyanın geri dönüşüdür.

Milli Məclisin deputatı Kamran BAYRAMOV qəzetimizə açıqlamasında dedi ki, bu tətilin gündəmi olduqca konkretdir və məhz buna görə geniş dəstək qazanıb: "Tələblərin mərkəzində alıcılıq qabiliyyəti, əmək haqlarının artırılması, dövlət xidmətlərinin qorunması və 2027-ci il büdcəsi layihəsində nəzərdə tutulan qənaət tədbirlərinə etiraz dayanır. Hökumətin əmək naziri Jan Pyer Farandonun oktyabrın 23-27-də həmkarlar ittifaqları və sahibkarlarla keçirdiyi məsləhətləşmələr nəticə vermədiyi üçün həmkarlar ittifaqları onların aldığı cavabı "qeyri-kafi" hesab edir. Buna görə də təkcə tələbə və lisey təşkilatları deyil, Fransa Milli Dəmir Yolunun dörd aparıcı dəmiryol həmkarlar ittifaqı da eyni gündə işi dayandırmağa çağırıb. Aviasiyada isə Fransa Mülki Aviasiya Baş İdarəsinin həmkarlar ittifaqı mülki aviasiya işçiləri üçün tətil bildirişi yayıb. Beləliklə, ölkə üzrə 250-yə yaxın mitinqin keçiriləcəyi gözlənilən bir gündə nəqliyyat, təhsil, səhiyyə və enerji kimi həyati sahələrdə eyni vaxtda iflic riski yaranır".

Deputat bildirdi ki, nəticələri bir neçə səviyyədə təfsir etmək lazımdır. Birinci, iqtisadi nəticədir: birgünlük ümummilli tətilin özü belə Fransa kimi xidmət iqtisadiyyatında gündəlik dövriyyənin kəskin azalması, logistika zəncirlərinin qırılması, məktəb və uşaq bağçalarının bağlanması səbəbindən valideynlərin işə çıxa bilməməsi deməkdir. Əgər Ümumi Əmək Konfederasiyasının istədiyi kimi tətil 5 noyabrdan sonra uzadılan növbəli tətilə çevrilərsə, bu, artıq 2027-ci il büdcəsi müzakirələrinin getdiyi bir vaxtda hökumətin makroiqtisadi proqnozlarını sarsıda bilər. İkincisi, siyasi nəticədir: hökumət indi iki cəbhədə sıxılıb - bir tərəfdən büdcə kəsirini azaltmaq üçün qənaət etməli, digər tərəfdən sosial partlayışın qarşısını almaq üçün minimum əməkhaqqının yenidən qiymətləndirilməsi kimi güzəştlərə getməlidir. Həmkarlar ittifaqlarının vahid cəbhə yaratması, xüsusən islahatçı sayılan Fransa Demokratik Əmək Konfederasiyası ilə daha radikal Ümumi Əmək Konfederasiyasının eyni bəyanatda birləşməsi hökumət üçün manevr imkanını daraldır. Bu birlik hökuməti dialoqa məcbur edəcək, əks halda noyabrın 6-sı "sarı jiletli"lərin və noyabrın 7-si yeni kütləvi yürüşlərin elan olunması göstərir ki, sosial hərəkat dalğa-dalğa davam edəcək".

K.Bayramov qeyd etdi ki, üçüncü və ən vacib nəticə etirazın legitimlik modelinin dəyişməsidir. Son illər Fransada etirazlar daha çox şənbə yürüşləri, spontan blokadalar şəklində idi. İndi isə həmkarlar ittifaqları məsuliyyəti öz üzərinə götürərək mübarizəni institusionallaşdırır, onu iş yerində kollektiv əmək mübahisəsinə çevirir. Bu, hərəkatı daha davamlı və hüquqi cəhətdən qorunan edir, çünki tətil hüququ Fransada konstitusion hüquqdur. Digər tərəfdən isə bu addım işəgötürənləri birbaşa danışıqlar masasına gətirir. Əgər özəl sektorda böyük şirkətlərdə əməkhaqqı artımı ilə bağlı razılaşmalar əldə olunarsa, bu, ümummilli tətilin ən konkret qələbəsi olacaq və başqa sahələrə sirayət edəcək. Əks halda, uzanan tətil yorğunluq yaradacaq, ictimai rəyi parçalayacaq və hökumətin "nizam-intizam" arqumentini gücləndirəcək. Buna görə də 5 noyabr təkcə birgünlük aksiya deyil, Fransa sosial modelinin - yüksək sosial müdafiə ilə büdcə intizamı arasındakı gərginliyin növbəti sınağıdır və onun nəticəsi növbəti ayların siyasi gündəmini, hətta prezident seçkiləri fonunu da müəyyənləşdirəcək.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Azərbaycanın iqtisadi nailiyyətləri beynəlxalq "Chandler Governance Group" təşkilatının hesabatında

Ölkəmiz 133 ölkə arasında "Uzunmüddətli baxış" göstəricisi üzrə 5-ci, maliyyə idarəçiliyi üzrə 3-cüdür

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2026-cı il oktyabrın 27-də Bakıda keçirilmiş VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki çıxışında müstəqil dövlət siyasətinin strateji əhəmiyyətini bir daha ön plana çəkərək, dövlətlərin suverenliyinə hörmət, bir-birinin daxili işlərinə müdaxilə etməmək və qarşılıqlı ehtiram prinsiplərinə riayət olunmasının vacibliyini xüsusi vurğulamışdır.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyev tərəfindən ardıcıl davam etdirilərək yeni məzmun və keyfiyyət mərhələsinə yüksəldilmiş müstəqil siyasi kurs Azərbaycanın milli maraqlarının qorunmasında və beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsində mühüm rol oynamışdır. Bu siyasətin nəticələrinin qiymətləndirilməsi baxımından beynəlxalq təşkilatların 2026-cı ildə dərc etdikləri hesabatlarda əksini tapan göstəricilər də xüsusi elmi və praktiki əhəmiyyət kəsb edir.

Dövlət idarəçiliyinin səmərəliliyinin beynəlxalq səviyyədə müqayisəli qiymətləndirilməsi baxımından Sinqapurda yerləşən və dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində ixtisaslaşmış "Chandler Governance Group" beynəlxalq təşkilatının 2026-cı ildə dərc etdiyi hesabat xüsusi maraq doğurur. Hesabatda dövlət idarəçiliyinin keyfiyyətini, hökumət institutlarının institusional potensialını və fəaliyyətinin nəticələrini kompleks şəkildə qiymətləndirməyə imkan verən Çandler Yaxşı İdarəetmə İndeksi (Chandler Good Government Index - CGGI) təqdim edilmişdir. Dövlət idarəçiliyinin yeddi əsas istiqaməti üzrə 35 göstəricini əhatə edən bu indeks müxtəlif ölkələrin idarəetmə imkanlarını və fəaliyyət səmərəliliyini vahid metodoloji çərçivədə müqayisə etməyə imkan verən kompozit göstəricidir.

Hesabatın nəticələrinə əsasən, Azərbaycanın ümumi indeks göstəricisi 0,538 təşkil etmiş və ölkəmiz qiymətləndirməyə cəlb olunmuş 133 dövlət arasında 57-ci yerdə qərarlaşmışdır. Bununla yanaşı, ayrı-ayrı istiqamətlər üzrə nəticələrin təhlili Azərbaycanın dövlət idarəçiliyinin bir sıra mühüm sahələrində daha yüksək göstəricilərə nail olduğunu ortaya qoyur. Xüsusilə bəzi qiymətləndirmə meyarları üzrə ölkəmizin dünya miqyasında ön sıralarda yer alması diqqəti cəlb edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil inkişaf siyasətinin mühüm xüsusiyyətlərindən biri ölkənin tərəqqisinin uzunmüddətli strateji hədəflər əsasında təmin edilməsinə xüsusi önəm verilməsidir. Bu yanaşma dövlət siyasətində cari vəzifələrin həlli ilə yanaşı, gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsini, milli resurslardan səmərəli istifadəni və davamlı inkişafın institusional əsaslarının möhkəmləndirilməsini nəzərdə tutur. "Chandler Governance Group" tərəfindən hazırlanmış 2026-cı il hesabatında Azərbaycanın "Uzunmüddətli baxış" (Long-term Vision) göstəricisi üzrə 133 ölkə arasında 5-ci yerdə qərarlaşması bu baxımdan xüsusilə diqqətəlayiqdir.

Ölkəmizdə uzunmüddətli strateji inkişaf prioritetlərinin həyata keçirilməsinə dair müxtəlif sahələrdən nümunələr göstərmək mümkündür. Bu istiqamətdə diqqəti cəlb edən mühüm sahələrdən biri davamlı inkişaf prinsiplərinə əsaslanan enerji siyasəti, xüsusilə bərpaolunan enerji mənbələrinin potensialından istifadənin genişləndirilməsi və "yaşıl enerji" istehsalının artırılması istiqamətində həyata keçirilən tədbirlərdir. Sözügedən təşəbbüslər enerji mənbələrinin şaxələndirilməsi, ekoloji davamlılığın gücləndirilməsi və ölkənin uzunmüddətli inkişaf məqsədlərinin reallaşdırılması baxımından strateji əhəmiyyət daşıyır.

Məlum olduğu kimi, İlham Əliyev 2003-cü ildə ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilərkən ölkə ciddi siyasi, sosial-iqtisadi və təhlükəsizlik çağırışları ilə üz-üzə idi. Həmin dövrdə Azərbaycan ərazilərinin təxminən 20 faizi işğal altında idi, bir milyona yaxın vətəndaş qaçqın və məcburi köçkün vəziyyətində yaşayır, yoxsulluğun səviyyəsi 44,7 faiz təşkil edirdi. Mürəkkəb geosiyasi şərait və beynəlxalq münasibətlər sistemində mövcud olan çağırışlar ölkənin gələcək inkişafının uzunmüddətli strateji əsaslar üzərində qurulmasını xüsusi zərurətə çevirirdi.

Belə bir şəraitdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas prioritetləri sırasında iqtisadiyyatın sürətli inkişafı və modernləşdirilməsi, innovativ yanaşmaların tətbiqi, əhalinin sosial rifahının yüksəldilməsi, inklüziv inkişafın təmin edilməsi, hərbi potensialın gücləndirilməsi və beynəlxalq əlaqələrin genişləndirilməsi mühüm yer tutmuşdur. Bu istiqamətlər üzrə aparılan ardıcıl fəaliyyət ölkənin iqtisadi və institusional imkanlarının möhkəmləndirilməsinə, müdafiə qabiliyyətinin artırılmasına və milli maraqların beynəlxalq müstəvidə müdafiəsinə yönəlmişdir.


Həyata keçirilən uzunmüddətli strateji siyasətin ən mühüm tarixi nəticələrindən biri 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış Qələbə və işğal altında olan ərazilərin böyük hissəsinin azad edilməsi olmuşdur. 2023-cü il sentyabrın 19-20-də keçirilən və bir sutkadan az davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə Azərbaycan Respublikası bütün ərazisi üzərində dövlət suverenliyini tam bərpa etmişdir. Bu tarixi proseslərdə hərbi quruculuq və strateji planlaşdırma ilə yanaşı, diplomatik fəaliyyətin, beynəlxalq siyasi əlaqələrin və Azərbaycanın mövqeyinin dünya ictimaiyyətinə ardıcıl şəkildə çatdırılmasının da mühüm əhəmiyyəti olmuşdur.

Prezident İlham Əliyevin 2020-ci il oktyabrın 9-da xalqa müraciətində səsləndirdiyi "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" fikri dövlət idarəçiliyində müstəqil qərarvermənin, strateji məqsədlərin dəqiq müəyyənləşdirilməsinin və onların həyata keçirilməsi üçün əlverişli zamanın seçilməsinin əhəmiyyətini ifadə edir. Bu yanaşma Azərbaycanın uzunmüddətli inkişaf strategiyasında siyasi müstəqillik, milli maraqlara əsaslanan qərarvermə və strateji ardıcıllıq prinsiplərinin mühüm yer tutduğunu göstərir.

Ölkənin qarşısında duran təxirəsalınmaz vəzifələrin həllinə, mövcud sosial-iqtisadi çağırışlara operativ cavab verilməsinə yönəlmiş tədbirlərlə yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə uzunmüddətli inkişaf perspektivlərini müəyyənləşdirən strateji qərarlar da qəbul edilmişdir. Bu baxımdan dövlət başçısının 2004-cü il oktyabrın 21-də imzaladığı 462 nömrəli sərəncamla "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Həmin dövrdə ciddi iqtisadi və sosial çağırışlarla üzləşən, eyni zamanda zəngin neft və qaz ehtiyatlarına malik olan Azərbaycanda bərpaolunan energetikanın inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi uzunmüddətli strateji planlaşdırmanın mühüm nümunəsi kimi qiymətləndirilə bilər. Bu təşəbbüs enerji mənbələrinin şaxələndirilməsi, ənənəvi enerji resurslarından asılılığın azaldılması və ekoloji davamlılığın təmin edilməsi baxımından gələcək inkişaf üçün mühüm zəmin yaratmışdır.



Xüsusi qeyd olunmalıdır ki, davamlı inkişaf siyasətinin mühüm tərkib hissəsi olan "yaşıl energetika"nın inkişafı sonrakı illərdə də dövlətin strateji gündəliyində öz yerini qoruyub saxlamışdır. Bu sahədə institusional idarəetmə mexanizmlərinin formalaşdırılması məqsədilə Prezidentin 2009-cu il 16 iyul tarixli 123 nömrəli fərmanı ilə Sənaye və Energetika Nazirliyinin Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılmışdır. Bərpaolunan enerji sahəsinin hüquqi və institusional əsaslarının ardıcıl şəkildə möhkəmləndirilməsinin göstəricilərindən biri də 2009-2023-cü illər ərzində bu istiqamətdə ümumilikdə 14 fərman və sərəncamın qəbul edilməsi olmuşdur. Sözügedən normativ-hüquqi aktlar yaşıl energetikanın inkişafına yönəlmiş dövlət siyasətinin hüquqi bazasının təkmilləşdirilməsində və müvafiq institusional mexanizmlərin formalaşdırılmasında mühüm rol oynamışdır. Bütün bunlar bərpaolunan energetikanın inkişafının ayrı-ayrı təşəbbüslərlə məhdudlaşmadığını, uzunmüddətli strateji baxışa əsaslanan ardıcıl dövlət siyasətinin tərkib hissəsi kimi həyata keçirildiyini göstərir. (Şəkil 1)



Şəkil 1. Azərbaycan Respublikasında uzunmüddətli davamlı inkişaf siyasəti: "yaşıl energetika"nın inkişafının xronologiyası

2004-cü ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulmuş bərpaolunan energetikanın inkişafı siyasətinin strateji əhəmiyyəti sonrakı iki onillik ərzində, xüsusilə 2024-cü ildə Azərbaycanın beynəlxalq iqlim gündəliyində mühüm rol üstlənməsi fonunda daha aydın şəkildə özünü göstərmişdir. Həmin il noyabrın 11-22-də Bakıda Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ölkənin "yaşıl enerji" keçidi və davamlı inkişaf sahəsində strateji prioritetlərinin beynəlxalq müstəvidə təqdim edilməsi baxımından mühüm hadisə olmuşdur.

Bu kontekstdə İsveçrədə fəaliyyət göstərən nüfuzlu beynəlxalq təşkilatlardan biri olan Dünya İqtisadi Forumunun (World Economic Forum) 2023-cü ildə dərc etdiyi "Səmərəli enerji keçidinin təşviqi" (Fostering Effective Energy Transition) hesabatının nəticələri xüsusi maraq doğurur. Enerji sistemlərinin davamlılığını, təhlükəsizliyini, enerji resurslarının əlçatanlığını və enerji transformasiyasına hazırlıq səviyyəsini kompleks şəkildə qiymətləndirən həmin hesabata əsasən, Azərbaycanın Enerji Keçidi İndeksi (Energy Transition Index) 62 bal təşkil etmiş və ölkəmiz bu göstərici üzrə dünyanın 120 dövləti arasında 32-ci yerdə qərarlaşmışdır. Xüsusi diqqətəlayiq haldır ki, Azərbaycan bu göstəriciyə görə İtaliya, Belçika, Çexiya, Yunanıstan, Polşa və Slovakiya kimi bir sıra Avropa ölkələrini qabaqlamışdır.

Beynəlxalq müqayisənin nəticələri zəngin neft və qaz ehtiyatlarına malik olan Azərbaycanın ənənəvi enerji sektorunun inkişafı ilə yanaşı, bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsinə də strateji əhəmiyyət verdiyini nümayiş etdirir. Hələ 2004-cü ildə müəyyənləşdirilmiş inkişaf prioritetlərinin sonrakı illərdə ardıcıl şəkildə davam etdirilməsi ölkənin enerji siyasətində uzunmüddətli planlaşdırmanın və strateji baxışın əhəmiyyətini göstərən nümunələrdən biridir. Bu baxımdan Azərbaycanın enerji transformasiyası sahəsində əldə etdiyi nəticələr müstəqil inkişaf siyasətinin mühüm istiqamətlərindən biri olan enerji mənbələrinin şaxələndirilməsinin beynəlxalq qiymətləndirmələrdə də əksini tapdığını göstərir.

Eyni zamanda bu təcrübə mühüm bir strateji yanaşmanı ön plana çıxarır: neft və qaz ehtiyatları ilə zəngin olan, karbohidrogenlərin hasilatı və ixracında mühüm mövqeyə malik dövlətin paralel şəkildə "yaşıl energetika"nın inkişafını prioritet istiqamət kimi müəyyənləşdirməsi mümkündür. Azərbaycanın bu sahədə həyata keçirdiyi siyasət ənənəvi və bərpaolunan enerji sektorlarının qarşılıqlı şəkildə tamamlanmasına, enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və ekoloji davamlılığın təmin edilməsinə yönəlmiş uzunmüddətli strateji idarəetmə yanaşması kimi səciyyələndirilə bilər.

Beləliklə, Azərbaycanın enerji transformasiyası sahəsində beynəlxalq müqayisəli göstəriciləri uzunmüddətli strateji planlaşdırmanın, milli maraqlara əsaslanan müstəqil qərarvermənin və dəyişən qlobal çağırışlara uyğunlaşma qabiliyyətinin dövlət idarəçiliyində mühüm əhəmiyyət daşıdığını nümayiş etdirir. Bununla yanaşı, ölkəmizin dövlət idarəçiliyinin ayrı-ayrı istiqamətləri üzrə beynəlxalq qiymətləndirmələrdə əldə etdiyi nəticələrin təhlili də xüsusi maraq doğurur (Cədvəl 1).

Cədvəl 1. Azərbaycan Respublikasının Səmərəli Dövlət İdarəetmə İndeksinin göstəriciləri *(Mənbə: Chandler Good Government Index (CGGI, 2026)*

İnkişaf göstəricisi	Dünyada tutduğu yer
Dövlət büdcəsinin profisiti	1
Məsuliyyətli maliyyə idarəçiliyi	3
Uzunmüddətli strateji baxış	5
Dəyişikliklərə uyğunlaşma qabiliyyəti	5
Dövlət xərclərinin səmərəliliyi	16
Biznes fəaliyyətinin sabit tənzimləməsi	16

"Chandler Governance Group" tərəfindən hazırlanmış 2026-cı il üzrə Çandler Yaxşı İdarəetmə İndeksinin (Chandler Good Government Index) nəticələrinə əsasən, Azərbaycan dəyişikliklərə uyğunlaşma qabiliyyəti (Adaptability) göstəricisi üzrə dünyanın 133 ölkəsi arasında 5-ci, dövlət maliyyəsinin idarə edilməsi (Financial Stewardship) istiqamətində isə 3-cü yerdə qərarlaşmışdır. Bu göstəricilər dövlət idarəçiliyində çevikliyin, dəyişən şəraitə uyğun qərarların qəbul edilməsinin, maliyyə resurslarının idarə olunmasının və uzunmüddətli strateji prioritetlərin uzlaşdırılmasının əhəmiyyətini bir daha ön plana çıxarır.

Dövlət idarəçiliyinin inkişafı istiqamətində həyata keçirilən institusional islahatlar, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, peşəkar kadr potensialının formalaşdırılması və dövlət qulluqçularının fasiləsiz təhsilinin təmin edilməsi bu sahədə davamlı nəticələrin əldə olunması üçün mühüm şərtlərdir. Xüsusilə idarəetmə sisteminin dəyişən daxili və xarici çağırışlara uyğunlaşdırılması, müasir idarəçilik kompetensiyalarının inkişaf etdirilməsi və qərarların qəbulunda çevik yanaşmaların tətbiqi dövlət institutlarının fəaliyyət səmərəliliyinin artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Beynəlxalq qiymətləndirmələrin nəticələri göstərir ki, Azərbaycanın dəyişikliklərə uyğunlaşma qabiliyyəti dövlət idarəçiliyinin müqayisəli şəkildə yüksək qiymətləndirilən istiqamətlərindən biridir. Bununla yanaşı, dövlət idarəçiliyində innovativ yanaşmaların tətbiqi yalnız mövcud dəyişikliklərə uyğunlaşma ilə məhdudlaşmır, həm də yeni institusional mexanizmlərin formalaşdırılmasını və idarəetmənin müasir tələblər əsasında təkmilləşdirilməsini nəzərdə tutur. Bu baxımdan dövlət idarəçiliyində tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, dövlət, özəl sektor və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlıq imkanlarının genişləndirilməsi xüsusi diqqət yetirilməli istiqamətlərdəndir. Belə yanaşma idarəetmə prosesində müxtəlif tərəflərin potensialından istifadə olunmasına, resursların əlaqələndirilməsinə və ictimai əhəmiyyətli vəzifələrin həllində birgə fəaliyyət mexanizmlərinin gücləndirilməsinə xidmət edir.

Dövlət idarəçiliyinin tarixi inkişafına nəzər saldıqda aydın olur ki, uzun müddət ictimai əhəmiyyətli xidmətlərin təşkili və strateji idarəetmə funksiyalarının həyata keçirilməsində əsas rol dövlət institutlarına məxsus olmuşdur. Lakin XX əsrin ikinci yarısından etibarən, xüsusilə 1980-ci illərdən başlayaraq bir sıra ölkələrdə dövlət idarəçiliyinin ənənəvi modelləri tədricən transformasiyaya uğramış, ictimai xidmətlərin göstərilməsinə, infrastruktur layihələrinin reallaşdırılmasına və sosial-iqtisadi inkişaf proqramlarının icrasına özəl sektorun cəlb edilməsi daha geniş vüsət almışdır. Bu proses nəticəsində dövlət-özəl tərəfdaşlığı (Public-Private Partnership - PPP) dövlət və biznes strukturlarının maliyyə, institusional və intellektual imkanlarının birləşdirilməsinə, risk və məsuliyyətlərin bölüşdürülməsinə əsaslanan mühüm idarəetmə mexanizmlərindən biri kimi inkişaf etmişdir.

Müasir dövrdə dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin səmərəliliyinin təmin edilməsində iqtisadi nəticələrlə yanaşı, ekoloji və sosial məsuliyyət, şəffaflıq və hesabatlılıq prinsiplərinə riayət olunması da xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan beynəlxalq idarəetmə və investisiya təcrübəsində geniş tətbiq edilən ESG (Environmental, Social and Governance - ekoloji, sosial və korporativ idarəetmə) prinsipləri mühüm əhəmiyyət kəsb edir. Ətraf mühitə təsirlərin nəzərə alınmasını, sosial məsuliyyətin gücləndirilməsini, korporativ idarəetmədə şəffaflığın və hesabatlılığın təmin edilməsini əhatə edən bu yanaşma dövlət və özəl sektor arasında əməkdaşlığın davamlı inkişaf məqsədləri ilə uzlaşdırılmasına, idarəetmə risklərinin azaldılmasına və həyata keçirilən layihələrin uzunmüddətli səmərəliliyinin yüksəldilməsinə xidmət edir (Şəkil 2).



Şəkil 2. Azərbaycan Respublikasının idarəçiliyində dövlət, özəl və vətəndaş cəmiyyətinin tərəfdaşlığı.

Müasir dövlət idarəçiliyində dövlət-özəl tərəfdaşlığının inkişafı və ESG prinsiplərinin tətbiqi ilə yanaşı, dövlət institutları ilə vətəndaş cəmiyyəti arasında qarşılıqlı fəaliyyətin genişləndirilməsi də mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda bu istiqamətdə həyata keçirilən institusional yeniliklərdən biri 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsi (referendum) nəticəsində Konstitusiyaya edilmiş dəyişikliklər əsasında Birinci vitse-prezident institutunun təsis olunmasıdır. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixli sərəncamı ilə ölkənin ictimai həyatında mühüm yer tutan, qeyri-hökumət və qeyri-kommersiya təşkilatı olan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi dövlət idarəçiliyinin institusional inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur.

Mehriban xanım Əliyevanın uzun illər ərzində Heydər Əliyev Fonduna rəhbərlik etməsi, təhsil, səhiyyə, mədəniyyət, sosial müdafiə və digər ictimai əhəmiyyətli istiqamətlərdə genişmiqyaslı layihələrin həyata keçirilməsində qazandığı təcrübə onun dövlət idarəçiliyindəki fəaliyyətinin də mühüm xüsusiyyətlərindən biri kimi nəzərdən keçirilə bilər. Bu baxımdan Birinci vitse-prezident institutunun fəaliyyəti dövlət idarəçiliyinin institusional imkanları ilə sosial-humanitar təşəbbüslərin əlaqələndirilməsi, cəmiyyətin müxtəlif təbəqələrinin ehtiyaclarının nəzərə alınması və inklüziv inkişaf prioritetlərinin həyata keçirilməsi kontekstində xüsusi maraq doğurur.

Vətəndaş cəmiyyəti institutlarının dövlət idarəçiliyində iştirakı müasir dünyada geniş tətbiq olunan yanaşmalardan biridir. Lakin bu iştirakın formaları və səlahiyyət çərçivələri ölkələrin hüquqi və institusional xüsusiyyətlərindən asılı olaraq fərqlənir. Azərbaycanda da vətəndaş cəmiyyəti institutlarının dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirakı, ictimai müzakirələrin təşkili, qərarların qəbuluna dair təkliflərin irəli sürülməsi və ictimai nəzarətin həyata keçirilməsi qanunvericiliklə nəzərdə tutulmuşdur. Bu baxımdan ictimai təşəbbüslərin dövlət idarəçiliyinin institusional imkanları ilə uzlaşdırılması, sosial əhəmiyyətli layihələrin hazırlanması və həyata keçirilməsində müxtəlif tərəflərin potensialından istifadə edilməsi xüsusi əhəmiyyət daşıyır.

Belə qarşılıqlı fəaliyyət dövlət institutlarının təşkilati və icra imkanları ilə vətəndaş cəmiyyəti institutlarının sosial təşəbbüskarlığının, ictimai təcrübəsinin və resurslarının bir-birini tamamlamasına əsaslanır. Bu yanaşma dövlət idarəçiliyində sinergetik prinsiplərin tətbiqi baxımından nəzərdən keçirilə bilər. Sinergetik yanaşmanın mahiyyəti müxtəlif institutların qarşılıqlı əlaqəsi nəticəsində onların ayrı-ayrılıqda fəaliyyətindən əldə edilə biləcək nəticələrlə müqayisədə daha yüksək birgə səmərəliliyin təmin olunmasıdır. Bu kontekstdə dövlət və vətəndaş cəmiyyəti arasında əməkdaşlığın inkişafı idarəetmənin sosialyönümlülüyünün gücləndirilməsi, ictimai ehtiyacların daha dolğun nəzərə alınması və davamlı inkişaf məqsədlərinin həyata keçirilməsi üçün mühüm imkanlar yaradır.

Azərbaycanın dövlət idarəçiliyində həyata keçirilən müstəqil inkişaf siyasəti və institusional islahatlar beynəlxalq qiymətləndirmələrdə dövlət maliyyəsinin idarə olunması sahəsində əldə edilmiş nəticələrin təhlili baxımından da xüsusi maraq doğurur. Belə ki, "Chandler Governance Group" tərəfindən hazırlanmış 2026-cı il üzrə Çandler Yaxşı İdarəetmə İndeksinin nəticələrinə əsasən, Azərbaycan maliyyə idarəçiliyi (Financial Stewardship) istiqamətində dünyanın 133 ölkəsi arasında 3-cü, dövlət xərclərinin səmərəliliyi (Spending Efficiency) göstəricisi üzrə isə 16-cı yerdə qərarlaşmışdır. Ölkəmizin büdcə profisiti göstəricisi üzrə dünya birincisi olması da diqqətəlayiqdir. Bu nəticələr dövlət maliyyəsinin idarə olunmasında fiskal davamlılığın, büdcə intizamının və maliyyə resurslarından səmərəli istifadənin əhəmiyyətini ön plana çıxarır.

Dövlət maliyyəsinin məsuliyyətli idarə olunması ilə dövlət xərclərinin səmərəliliyi bir-biri ilə sıx əlaqəli anlayışlardır. Hər iki istiqamət mövcud maliyyə imkanlarının strateji inkişaf prioritetlərinə uyğun bölüşdürülməsini, resurslardan məqsədyönlü istifadəni və həyata keçirilən dövlət proqramlarının nəticəyönümlülüyünü nəzərdə tutur. Bu baxımdan qlobal iqlim dəyişmələrinin təsirlərinin azaldılması, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi və bərpaolunan enerji mənbələrinə keçidin sürətləndirilməsi kimi strateji vəzifələr iqtisadi resurslarla əldə olunan nəticələr arasındakı qarşılıqlı əlaqənin təhlili üçün xüsusi maraq doğurur.

Enerji transformasiyası sahəsində beynəlxalq müqayisəli qiymətləndirmələrin aparılmasında Dünya İqtisadi Forumunun (World Economic Forum - WEF) hesabatları mühüm informasiya mənbələrindən biridir. 1971-ci ildə tanınmış alim, professor Klaus Şvab tərəfindən təsis edilmiş, baş qərargahı Cenevrədə yerləşən bu beynəlxalq təşkilat dövlət, özəl sektor, akademik dairələr və vətəndaş cəmiyyəti arasında əməkdaşlığın inkişafına xidmət edən qlobal platformadır. Forumun Davos şəhərində keçirilən illik toplantılarında dünya iqtisadiyyatının inkişafı, dövlət idarəçiliyinin təkmilləşdirilməsi, innovasiyalar, enerji təhlükəsizliyi və davamlı inkişafın aktual problemləri müzakirə olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müxtəlif illərdə bu toplantılarda iştirakı ölkənin beynəlxalq iqtisadi dialoq və əməkdaşlıq proseslərində təmsil olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Dünya İqtisadi Forumunun 2025-ci ildə dərc etdiyi "Səmərəli enerji keçidinin təşviqi" (Fostering Effective Energy Transition) hesabatında Azərbaycan Enerji Keçidi İndeksi üzrə 60,1 bal toplayaraq 118 ölkə arasında 42-ci yerdə qərarlaşmışdır. Bununla yanaşı, enerji transformasiyası sahəsində əldə olunan nəticələrin ölkələrin iqtisadi imkanları ilə müqayisəli şəkildə qiymətləndirilməsi də xüsusi elmi maraq doğurur. Belə ki, Dünya İqtisadi Forumunun 2024-cü il və Dünya Bankının 2025-ci ildə təqdim edilmiş statistik məlumatları əsasında aparılmış ayrıca analitik hesablamada Azərbaycanın alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla adambaşına düşən ümumi daxili məhsulun (ÜDM) hər 1000 beynəlxalq dollarına 2,62 vahid Enerji Keçidi İndeksi göstəricisi müəyyən edilmişdir.

Bu müqayisəli hesablamanın nəticələri enerji transformasiyası üzrə əldə olunmuş göstəricilərin ölkələrin iqtisadi imkanları kontekstində təhlilinə əlavə imkan yaradır. Bununla belə, sözügedən nisbət dövlətin enerji keçidinə çəkdiyi xərclərin birbaşa səmərəlilik göstəricisi deyil, iqtisadi imkanlarla enerji transformasiyası indeksinin nəticələrini əlaqələndirən əlavə analitik meyardır. Bu baxımdan Azərbaycanın təcrübəsi enerji siyasətində uzunmüddətli strateji planlaşdırmanın, iqtisadi resursların idarə olunmasının və davamlı inkişaf prioritetlərinin qarşılıqlı əlaqəsinin araşdırılması üçün əhəmiyyətli nümunə təşkil edir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından tarixi baxımdan nisbətən qısa müddət keçməsinə baxmayaraq, ölkə ötən illər ərzində mürəkkəb siyasi, sosial-iqtisadi və geosiyasi çağırışlarla üzləşmiş, dövlət quruculuğunun və milli inkişafın müxtəlif mərhələlərindən keçmişdir. Bununla belə, beynəlxalq təşkilatların müqayisəli qiymətləndirmələri göstərir ki, Azərbaycan bir sıra mühüm istiqamətlər üzrə əhəmiyyətli nəticələr əldə etmiş, dövlət idarəçiliyinin ayrı-ayrı göstəricilərinə görə dünya miqyasında ön sıralarda qərarlaşmışdır. Bu nəticələr milli maraqlara əsaslanan müstəqil dövlət siyasətinin, uzunmüddətli strateji planlaşdırmanın, ardıcıl institusional islahatların və dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini nümayiş etdirir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz milli inkişaf prioritetlərini və xarici siyasət istiqamətlərini müstəqil şəkildə müəyyənləşdirməyə, suverenlik və dövlətçilik maraqlarını əsas tutmağa, beynəlxalq münasibətlərdə qarşılıqlı hörmət və daxili işlərə müdaxilə etməmək prinsiplərini müdafiə etməyə davam edir. Ölkənin inkişaf təcrübəsi göstərir ki, dövlət siyasətində müstəqil qərarvermənin uzunmüddətli strateji baxış, institusional çeviklik, məsuliyyətli maliyyə idarəçiliyi və davamlı inkişaf prinsipləri ilə uzlaşdırılması mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycanın müasir inkişaf yolu milli maraqlara əsaslanan müstəqil siyasətlə səmərəli dövlət idarəçiliyi arasında qarşılıqlı əlaqənin öyrənilməsi üçün əhəmiyyətli təcrübə kimi dəyərləndirilə bilər.

Urxan ƏLƏKBƏROV,
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik

Elm xadimlərimiz

Zamanı aşan düşüncə

Bəzi insanların ömür yolunu tutduqları vəzifələrin, aldıqları mükafatların, qazandıqları elmi adların ardıcıllığı ilə izah etmək mümkün olmur. Çünki onların fəaliyyəti müəyyən bir peşənin və ya idarəçilik sahəsinin sərhədlərini aşaraq ictimai düşüncəyə, milli yaddaşa, dövlətçilik ənənələrinə və bütövlükdə cəmiyyətin intellektual inkişafına təsir göstərir. Belə insanların bioqrafiyası şəxsi uğurların xronologiyasından daha çox məna daşıyır, onların ömür yolu yaşadıqları dövrün, qarşılaşdıqları problemlərin və həllinə çalışdıqları məsələlərin salnaməsinə çevrilir. Professor Kamran İmanovun 80 illik ömür yolu məhz bu baxımdan diqqətəlayiqdir.



Onun fəaliyyətinə nəzər salanda ilk baxışdan bir-birindən fərqli istiqamətlər görürük: riyaziyyat və iqtisadi modelləşdirmə, ali təhsil və elmi tədqiqat, dövlət idarəçiliyi, müəllif hüquqları, əqli mülkiyyət, tarixi-mədəni irsin qorunması, beynəlxalq təşkilatlarda təmsilçilik, publisistika və maarifçilik. Ancaq bu istiqamətləri birləşdirən ortaq bir məna var: biliyin sistemə, düşüncənin nəticəyə, intellektual əməyin cəmiyyət üçün dəyərə çevrilməsi. Professor Kamran İmanov təkcə alim deyil, həm də elmi bilikləri idarəçilik təcrübəsinə tətbiq edən ali dərəcəli mütəxəssisdir. Yalnız hüquq normalarını müdafiə edən rəhbər deyil, həmin normaların arxasında dayanan mədəni və mənəvi dəyərləri cəmiyyətə anlatmağa çalışan ziyalıdır. O, həmçinin çoxsaylı kitabların müəllifi və kitabı milli yaddaşın qorunması və intellektual mübarizənin vasitəsi kimi dəyərləndirən yorulmaz tədqiqatçıdır. Bu mənada onun 80 illik yubileyi Azərbaycan elminin, dövlət idarəçiliyinin və əqli mülkiyyət mədəniyyətinin inkişafında uzun illər ərzində formalaşmış təcrübəyə yenidən nəzər salmaq üçün bir fürsətdir.

İntellektual əməyin gücü haqqında çox danışılır. Lakin bu gücün həqiqi miqyası yalnız biliklərin həcmi ilə müəyyən olunmur. Əsas məsələ biliyin hansı məqsədə xidmət göstərməsi, hansı problemi həll etməsi və cəmiyyətə hansı dəyərləri aşılamasıdır. Məhz burada alimlə məlumatlı insan, ziyalı ilə yüksəktəhsilli şəxs arasındakı fərq meydana çıxır. Bilik insanın fərdi üstünlüyü olaraq qala bilər, intellektual məsuliyyət isə həmin biliyin ictimai dəyərə çevrilməsidir. Tarixi öyrənmək başqa, tarixi təhriflərdən qorumaq üçün elmi əsaslarla mübarizə aparmaq başqadır. Hüququ bilməklə müəllifin, ixtiraçının və yaradıcı insanın hüququnun qorunması üçün işlək mexanizmlər yaratmaq arasında dağ boyda fərq var. Kitab yazmaq olar, amma kitabın yaratdığı fikri cəmiyyətin yaddaşına çevirmək hər igidin işi deyil. Professor Kamran İmanovun fəaliyyətinin müxtəlif mərhələlərində bu fərqi aydın görmək olar. Xüsusilə Azərbaycan mədəni irsinin mənimsənilməsi cəhdlərinə qarşı apardığı araşdırmalar onun elmi fəaliyyətinin yalnız akademik maraqlarla məhdudlaşmadığını göstərir. Müxtəlif dillərdə yayımlanan əsərləri, qədim mətnlərə və klassik mənbələrə əsaslanan tədqiqatları, yerli və beynəlxalq elmi tədbirlərdəki çıxışları mədəni irsin qorunması məsələsini daha geniş müstəviyə çıxarır. Burada söhbət yalnız ayrı-ayrı folklor nümunələrinin, musiqi əsərlərinin, adət-ənənələrin və ya tarixi faktların mənsubiyyətinin müəyyən edilməsindən getmir. Məsələ bütövlükdə milli mədəniyyətin dünyaya necə təqdim olunması, onun haqqında hansı təsəvvürlərin formalaşması və gələcək nəsillərə hansı elmi həqiqətlərin ötürülməsidir. Çünki mədəni irs yalnız keçmişdən qalan xatirələr toplusu deyil. O, xalqın özünü tanımasının, tarixi varlığını dərk etməsinin və gələcəyini qurmasının mühüm dayaqlarından biridir. Bu baxımdan alimin erməni plagiatçılığına və Azərbaycan mədəni ənənələrinin mənimsənilməsi cəhdlərinə qarşı mübarizəsi ayrıca əhəmiyyət daşıyır. Onun Ermənistanın Azərbaycana qarşı plagiat cəhdlərinin ifşasına həsr olunan əsərləri mədəni irs məsələlərinə emosional münasibətdən daha çox faktların, mənbələrin və müqayisəli təhlilin nümunəsi kimi çıxış edir. Burada mühüm bir prinsipə diqqət yetirmək lazımdır: milli mədəniyyəti müdafiə etməyin ən təsirli, ən tutarlı yolu ona yalnız sevdiyini bəyan etmək deyil, onun tarixi dərinliyini, özünəməxsusluğunu və elmi əsaslarını ortaya qoymaqdır. Tarixi iddianın qarşısına faktla çıxmaq, saxtalaşdırmaya sənədlə cavab vermək, mədəni mənimsəmə cəhdlərini mənbələr əsasında araşdırmaq və həqiqəti üzə çıxarmaq - intellektual mübarizənin mahiyyəti budur. Alimin fəaliyyətində kitabın bir növ intellektual silaha çevrilməsi də bu məqamda dəyər qazanır. Lakin bu silahın gücü emosiyanın sərtliyində deyil, arqumentin gücündə, mənbənin etibarlılığında və nəticənin elmi əsaslandırılmasındadır.

Professor Kamran İmanovun fəaliyyətinin əsas istiqamətini təşkil edən əqli mülkiyyət sahəsi ilk baxışdan dar ixtisaslaşma təsiri bağışlaya bilər. Halbuki müasir dünyada bu sahə iqtisadiyyatın, elmin, texnologiyanın, mədəniyyətin və dövlətlərin rəqabət qabiliyyətinin kəsişdiyi strateji məkanlardan biridir. İnsan düşüncəsinin məhsulu olan hər bir əsər, elmi nəticə, ixtira, texnoloji həll və yaradıcılıq nümunəsi müəyyən mənada intellektual sərvətdir. Bu sərvətin hüquqi müdafiəsi isə təkcə müəllifin maraqlarını qorumaqla məhdudlaşmır. O, yeni ideyaların meydana çıxmasına, yaradıcılığın stimullaşdırılmasına, elmi nailiyyətlərin iqtisadi dövriyyəyə daxil olmasına və innovasiyaların inkişafına şərait yaradır. Müəllifin hüququ qorunmadıqda onun əməyinin başqası tərəfindən mənimsənilməsi riski artır. İxtiraçının hüququ təmin olunmadıqda yeni texnologiyalara sərmayə qoymaq marağı zəifləyir. Mədəni irsin hüquqi müdafiəsi təmin edilmədikdə isə cəmiyyətin ortaq sərvəti kommersiya və mənimsəmə cəhdləri qarşısında müdafiəsiz qalır. Bu mənada əqli mülkiyyət hüququ yalnız qanunvericiliyin ayrıca bir sahəsi deyil. O, cəmiyyətin yaradıcı potensialına münasibətin göstəricisidir. Professor Kamran İmanovun 30 ildən çox bu sahədəki fəaliyyətinin əhəmiyyəti məhz belə geniş kontekstdə qiymətləndirilməlidir. Müstəqilliyin ilk illərinə nəzər salsaq görərik ki, o dövrdə mülkiyyət münasibətlərinin, hüquqi institutların və dövlət idarəçiliyi mexanizmlərinin yeni əsaslarla qurulması zərurətə çevrilmişdi. Müəllif hüquqlarının qorunması da bu prosesin mühüm istiqamətlərindən biri idi. Söhbət yalnız mövcud münasibətləri tənzimləyən qanunların qəbulundan getmirdi. Eyni zamanda müəlliflik hüququna, yaradıcılığa və intellektual əməyə münasibətin formalaşdırılması tələb olunurdu. Ulu Öndər Heydər Əliyevin xeyir-duası ilə Kamran İmanovun 1995-ci ildən Müəllif Hüquqları Agentliyinə rəhbərlik etdiyi dövr məhz bu institusional inkişaf prosesi ilə bağlıdır. 2018-ci ildə Prezident İlham Əliyevin qərarı ilə Əqli Mülkiyyət Agentliyinin yaradılması və onun İdarə Heyətinin sədri təyin edilməsi isə bu fəaliyyətin yeni mərhələsini təşkil edir. Bu iki tarixi mərhələ arasında mühüm məntiqi əlaqə var: əvvəlcə müstəqil dövlətin müəllif hüquqlarının qorunması üzrə institusional əsaslarının formalaşdırılması, sonrakı mərhələdə isə əqli mülkiyyətin daha geniş hüquqi, texnoloji və iqtisadi sistem daxilində idarə olunması. Beləliklə, əqli mülkiyyət sahəsinin inkişafı yalnız bir qurumun tarixindən ibarət deyil. Bu, həm də Azərbaycanın intellektual resurslara, yaradıcılığa və innovasiyalara münasibətinin dəyişməsinin göstəricisidir. Kamran İmanovun bu prosesdəki rolunu müəyyənləşdirən cəhətlərdən biri onun əqli mülkiyyəti yalnız inzibati prosedurlar və hüquqi normalar səviyyəsində təqdim etməməsidir. Onun yanaşmasında bu anlayışın arxasında insanın zəkası, zəhməti, istedadı və milli mədəniyyətin qorunması məsələsi dayanır. Başqa sözlə, hüquq burada məqsəd deyil, dəyəri qorumağın vasitəsidir.

Professor Kamran İmanovun bioqrafiyasında diqqətçəkən məqamlardan biri də onun peşəkar fəaliyyətinin müxtəlif sahələr arasında keçidlər etməsidir. O, riyaziyyat təhsili alıb, elmi tədqiqatlarla məşğul olub, ali təhsil müəssisələrində çalışıb, idarəetmə strukturlarına rəhbərlik edib, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri olub və sonradan əqli mülkiyyət kimi spesifik sahənin inkişafında mühüm rol oynayıb. Bu yolun arxasında yalnız karyera yüksəlişini görmək kifayət deyil. Burada fərqli sahələrdə qazanılan biliklərin vahid düşüncə sistemində birləşdirilməsi xüsusiyyəti də var. Riyazi düşüncə sistemlilik, müqayisə, səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi və qərarların əsaslandırılmasını tələb edir. İdarəçilik də, əslində, bu keyfiyyətlərə ehtiyac duyur. Çünki idarəetmənin mahiyyəti mürəkkəb prosesləri anlamaq, mövcud resursları qiymətləndirmək, alternativləri müqayisə etmək və nəticəyə aparan düzgün qərarı seçməkdir. Professor Kamran İmanovun elmi fəaliyyətinin idarəçilik təcrübəsi ilə paralel inkişaf etməsi onun peşəkar portretinin mühüm cizgiləridir. Bu göstərir ki, ixtisaslaşma insanı müəyyən sahədə dərinləşdirir, geniş dünyagörüşü isə həmin biliyin başqa sahələrdə də tətbiqinə imkan yaradır. Müasir dövlət idarəçiliyinin keyfiyyəti məhz bu iki xüsusiyyətin birləşməsindən - peşəkar dərinlikdən və sistemli təfəkkürdən asılıdır.

Hər bir dövlətin beynəlxalq nüfuzu onun siyasi mövqeyi, iqtisadi imkanları və diplomatik əlaqələri ilə yanaşı, müxtəlif sahələrdə yetişdirdiyi peşəkarların bilik və bacarıqları ilə də ölçülür. Professor Kamran İmanovun Ümumdünya Əqli Mülkiyyət Təşkilatının strukturlarında fəaliyyəti bu baxımdan diqqəti çəkir. Onun ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası İttifaqının Assambleyasına rəhbərliyi, müəllif hüquqları ilə bağlı beynəlxalq mexanizmlərdə iştirakı, müxtəlif dillərdə çıxışları və beynəlxalq ekspertlərlə əməkdaşlığı Azərbaycanın əqli mülkiyyət sahəsindəki təcrübəsinin beynəlxalq müstəvidə təqdim olunmasına imkan yaradan amillərdir. Bu uğurlara yalnız fərdi nailiyyət kimi baxmaq düzgün olmazdı. Onların arxasında eyni zamanda dövlətin bu sahədə qurduğu institusional sistem, beynəlxalq əməkdaşlığa verdiyi əhəmiyyət və milli mütəxəssislərin peşəkar hazırlığı dayanır. Digər tərəfdən beynəlxalq nüfuzun davamlı olması üçün şəxsi peşəkarlıqla institusional imkanlar bir-birini tamamlamalıdır. Bu, xüsusilə əqli mülkiyyət kimi sərhədləri aşan sahədə vacibdir. Çünki müəllif hüquqları, rəqəmsal məzmun, texnologiyaların kommersiyalaşdırılması və intellektual resursların qorunması məsələləri artıq yalnız milli qanunvericilik çərçivəsində həll edilə bilmir. Rəqəmsallaşma müəllif hüquqlarının qorunmasını daha da mürəkkəbləşdirir, süni intellekt yeni hüquqi və etik suallar yaradır, elektron ticarət isə intellektual mülkiyyətin iqtisadi dəyərini artırır. Belə şəraitdə beynəlxalq əməkdaşlıq və müasir biliklərə yiyələnmək zərurətə çevrilir. Deməli, əqli mülkiyyət sahəsində beynəlxalq təcrübə yalnız diplomatik təmsilçilik deyil, həm də gələcək çağırışlara hazırlıq məsələsidir. Professor Kamran İmanovun çoxillik fəaliyyəti bu istiqamətdə qazanılmış təcrübənin bir hissəsidir. Onun nümunəsində biz hər zaman fərdi peşəkarlığın ölkənin beynəlxalq intellektual imkanları ilə necə uzlaşdığını görürük.

Professor Kamran İmanovun portretini yalnız alim, rəhbər və beynəlxalq ekspert kimi təqdim etsək, bu portretin mühüm bir tərəfi tamamlanmamış qalar. Onun şəxsiyyətini tamamlayan əsas cəhətlərdən biri kitaba münasibətidir. Kitab bəzi insanlar üçün peşə vasitəsi, bəziləri üçün məlumat mənbəyi, digərləri üçünsə həyat tərzidir. Kitabı həyat tərzinə çevirən insan üçün oxumaq düşünmək, müqayisə etmək, öz mövqeyini yenidən nəzərdən keçirmək və dünyanı daha dərindən anlamaq prosesidir. Alimin elmi və publisistik irsi ilə tanış olduqda bu münasibətin, kitaba bağlılığın onun fəaliyyətinə təsirini görməmək mümkün deyil. Hüquqdan tarixə, mədəniyyətdən texnologiyaya, milli yaddaşdan idarəetmə məsələlərinə uzanan maraq dairəsi müxtəlif bilik sahələrini bir-birinə bağlayır. Belə bir dünyagörüşü təsadüfən formalaşmır. O, illərlə davam edən mütaliənin, araşdırmaların, intellektual zəhmətin bəhrəsidir. Bu baxımdan Kamran müəllimin həyatında kitab həm şəxsi maraq, həm elmi yaradıcılıq, həm də ictimai fəaliyyət vasitəsidir. O, kitab yazır, kitab vasitəsilə araşdırmalarını təqdim edir, müxtəlif auditoriyalarda çıxış edir və intellektual irsin qorunmasına töhfə verir. Burada başqa bir mühüm məqam ondan ibarətdir ki, kitabın dəyəri yalnız müəllifin yaşadığı dövrdəki nüfuzu ilə müəyyən edilmir. Kitabın həqiqi ömrü onun yaratdığı sualların, irəli sürdüyü fikirlərin və gələcək tədqiqatlara açdığı imkanların ömrüdür. Kamran İmanovun 80 illik həyatına bu prizmadan baxanda onun fəaliyyəti ayrı-ayrı kitabların, məqalələrin və vəzifələrin cəmindən daha geniş məna qazanır. Burada elmi axtarışın, dövlətə xidmətin və maarifçilik missiyasının bir-birini tamamladığı uzun bir yol görünür.

Ziyalılıq hər zaman biliklə məsuliyyətin, şəxsi mövqe ilə ictimai marağın, sözlə əməlin bir-birinə uyğunluğunu tələb edir. Ziyalı yaşadığı cəmiyyətin problemlərini görməli, onları anlamalı, bildiklərini bölüşməli və imkanları daxilində həllinə töhfə verməlidir. Kamran müəllimin elmi fəaliyyəti biliyin mənimsənilməsinə, idarəçilik təcrübəsi biliyin praktik nəticəyə çevrilməsinə, əqli mülkiyyət sahəsindəki işi isə intellektual əməyin hüquqi müdafiəsinə xidmət göstərir. Onun mədəni irslə bağlı tədqiqatları bu mənzərəyə milli yaddaşın qorunması istiqamətini əlavə edir. Bu istiqamətlərin bir araya gəlməsi onun fəaliyyətini daha geniş ictimai məna daşıyan bir bütövə, bir tama çevirir. Lakin burada yubiley portretinin hüdudlarını aşan bir sual da meydana çıxır: belə bir ömürdən cəmiyyət nə öyrənə bilər? İlk növbədə intellektual əməyə münasibəti, ikincisi, peşəkarlığın davamlı inkişafını, üçüncüsü isə şəxsi təcrübənin ictimai dəyərə çevrilməsini. İnsan hər yaşında geriyə baxmaq, gördüyü işləri ümumiləşdirmək və qazanılan təcrübənin mənasını müəyyənləşdirmək zərurəti hiss edir. Lakin elm və düşüncə ilə yaşayan insan üçün keçmişin qiymətləndirilməsi gələcəkdən imtina etmək demək deyil. Əksinə, uzun illər ərzində toplanmış təcrübə yeni suallara cavab axtarmaq, bilikləri sistemləşdirmək və sonrakı nəsillərə ötürmək şansı yaradır. Professor Kamran İmanovun yubiley yaşı da belə bir məna kəsb edir. Bu yaşın arxasında elmi axtarışlar, pedaqoji fəaliyyət, dövlət idarəçiliyi, hüquqi institutların formalaşması, beynəlxalq əməkdaşlıq, kitablar və ictimai məsuliyyətlə bağlı zəngin bir təcrübə var. O, bütün həyatı boyu elmi dövlət və cəmiyyət üçün faydalı fəaliyyətə çevirmək, intellektual əməyin hüquqi müdafiəsinə və müdafiəsinə töhfə vermək yolunda yorulmadan xidmət göstərib. Professor Kamran İmanovun portretində alimlə rəhbər, hüquqşünasla tədqiqatçı, kitab müəllifi ilə maarifçi bir-birindən ayrılmır. Bu obrazların biri digərini tamamlayır və bütövlükdə bir ziyalı şəxsiyyətini yaradır. O şəxsiyyət həyatı boyu elmin, kitabın və intellektual əməyin gücünə inanıb. O, heç vaxt zamanla yarışmayıb. Zamanın yaddaşında qalmaq üçün kitablar yazıb, ideyalar irəli sürüb, elmi nəticələr qazanıb və təcrübə toplayıb. 80 yaşın müdrikliyi də bəlkə elə budur: keçmişin təcrübəsini gələcəyin imkanlarına çevirmək…

Firuzə NADİR,
Əməkdar jurnalist

"Tərbiyənin məqsədi öz köklərini tanıyan, müstəqil düşünən, cəmiyyətə fayda verən və dünyaya açıq şəxsiyyət yetişdirmək olmalıdır"

Milli-mənəvi dəyərlər xalqın tarixi yaddaşını, mədəni irsini, dilini, adət-ənənələrini və mənəvi prinsiplərini özündə birləşdirməklə yanaşı, fərdin cəmiyyətə mənsubiyyət hissinin formalaşmasında da mühüm əhəmiyyət daşıyır. Xüsusilə uşaqlıq və yeniyetməlik dövründə bu dəyərlərin düzgün aşılanması şəxsiyyətin psixoloji dayanıqlılığının, sosial məsuliyyətinin və mənəvi dünyagörüşünün inkişafına müsbət təsir göstərə bilər. Lakin müasir informasiya mühitində yeniyetmələrin müxtəlif manipulyativ çağırışlarla, radikal düşüncə modelləri və zərərli təbliğatla qarşılaşması da müəyyən psixoloji risklər yaradır.



Mövzu ilə bağlı "Azərbaycan"a açıqlama verən **Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, fəlsəfə üzrə fəlsəfə doktoru Elnur RÜSTƏMOV**un sözlərinə görə, milli kimlik uşağın "Mən kiməm?", "Hansı cəmiyyətə mənsubam?", "Məni keçmişimlə və yaşadığım mühitlə nə bağlayır?" suallarına cavab tapmasına kömək edir. Ana dili, ailə yaddaşı, tarix, ədəbiyyat və mədəni ənənələr vasitəsilə uşaq özünü daha böyük bir bütövün parçası kimi hiss edir. Bu mənsubiyyət hissi ona psixoloji dayaq verə, özünə münasibətinin və sosial məsuliyyətinin formalaşmasına kömək edə bilər. Mütəxəssis bildirib ki, burada əsas məsələ milli dəyərlərin uşağa hansı münasibət və davranış nümunələri ilə ötürülməsidir: "Uşaq mənəvi dəyərləri yalnız böyüklərin nəsihətlərindən öyrənmir. O, ailədə ədalətin necə qorunduğunu, insanların bir-biri ilə necə danışdığını, verilən sözə nə dərəcədə əməl olunduğunu müşahidə edir. Böyüklərə hörmət, kiçiklərə qayğı, dürüstlük, zəhmətə dəyər vermək və başqasının haqqını nəzərə almaq gündəlik münasibətlərdə yaşadıldıqda uşağın daxili meyarlarına çevrilir. Əgər deyilən sözlə göstərilən davranış arasında ziddiyyət varsa, tərbiyəvi mesajın inandırıcılığı zəifləyir. Azərbaycançılığın uşağın dünyagörüşündə sağlam yer tutması ana dilinə, tarixə və mədəni irsə bağlılıqla yanaşı, vətəndaş məsuliyyətini və birgəyaşayış mədəniyyətini də əhatə etməlidir. Uşağa öz xalqını sevməyi öyrədərkən başqa xalqların ləyaqətinə və mədəniyyətinə hörmət də aşılanmalıdır. Öz kimliyinə güvənən insan fərqliliklə qarşılaşanda onu dərhal təhlükə kimi qəbul etməyə daha az ehtiyac duyur. Buna görə tərbiyənin məqsədi öz köklərini tanıyan, müstəqil düşünən, cəmiyyətə fayda verən və dünyaya açıq şəxsiyyət yetişdirmək olmalıdır".

Yeniyetmələrin müxtəlif ideoloji təsirlərə məruz qalması məsələsinə yanaşarkən ilk növbədə bu təsirlərin mahiyyətini düzgün qiymətləndirmək lazımdır. Psixoloq deyib ki, bunun üçün əvvəlcə "yad ideoloji təsir" anlayışı dəqiqləşdirilməlidir: "Başqa mədəniyyətlə tanışlıq, xarici dil öyrənmək və fərqli fikirləri dinləmək özlüyündə zərərli təsir deyil. Psixoloji risk insanın seçim azadlığını zəiflədən, onu alçaldan, nifrətə, zorakılığa və kor-koranə itaətə sövq edən təsirlərdədir. Təsirin təhlükəliliyini onun haradan gəlməsi ilə yanaşı, məzmunu, məqsədi və insana münasibəti əsasında qiymətləndirməliyik. Uşaqlıq və yeniyetməlik dövründə insanın özünü tanıması, məlumatı qiymətləndirməsi və sosial münasibətlərdə mövqe tutması davam edir. Xüsusilə yeniyetmə üçün qəbul olunmaq, fikrinin eşidilməsi və müəyyən qrupa mənsub olmaq böyük əhəmiyyət daşıya bilər. Manipulyativ qruplar bu ehtiyaclardan istifadə edərək ona "Səni yalnız biz anlayırıq", "Sən başqalarından seçilirsən", "Bizə qoşulsan, dəyərli olacaqsan" mesajları verə bilirlər. Belə hallarda yeniyetməni cəlb edən bəzən ideyanın özündən əvvəl ona göstərilən diqqət və vəd edilən mənsubiyyətdir. Ailədə davamlı alçaldılma, məktəbdə kənarlaşdırılma, tənhalıq və özünü ifadə etmək imkanlarının məhdudluğu bu cür təsirlərə həssaslığı artıra bilər. Lakin bunların hər biri ayrıca götürüldükdə yeniyetmənin mütləq zərərli bir qrupa qoşulacağı demək deyil. Buna görə də hər uşağın suallarını dinləmək, etirazının arxasındakı ehtiyacı anlamaq və özünü dəyərli hiss edəcəyi sağlam münasibətlər yaratmaq vacibdir. Uşağın marağına və sualına yalnız qadağa ilə cavab verildikdə, o, cavabı böyüklərin görə bilmədiyi mühitlərdə axtara bilər".

Elnur Rüstəmov qeyd edib ki, manipulyativ təbliğat yeniyetmələrin düşüncə tərzinə, emosional vəziyyətinə və sosial münasibətlərinə mənfi təsir göstərə bilər: "Bu cür təsir çox vaxt mürəkkəb həyat hadisələrini həddindən artıq sadələşdirir: bütün problemlərin bir düşməni, bütün sualların isə yalnız bir doğru cavabı olduğu təsəvvürünü yaradır. Bu məzmunun təsiri altında yeniyetmənin hadisələrə müxtəlif tərəflərdən baxmaq imkanları darala, insanları sərt şəkildə "bizimkilər" və "başqaları" kimi ayırmaq meyli güclənə bilər. Qarşı tərəfi dinləmək zəiflik, razılaşmamaq isə xəyanət kimi təqdim olunduqda sağlam müzakirənin yerini düşmənçilik tuta bilər. Belə təsirlər bəzi yeniyetmələrdə qorxu, qəzəb, günahkarlıq və daimi təhlükə hissini gücləndirə bilər. Qrupun qəbulunu itirməmək üçün öz fikrini gizlətmək, yaxınlarından uzaqlaşmaq və yalnız həmin mühitin verdiyi məlumatlara etibar etmək halları yarana bilər. Zorakılığın qəhrəmanlıq, qəddarlığın isə ədalətin bərpası kimi təqdim edilməsi xüsusi risk daşıyır. Bununla belə, zərərli məzmuna rast gəlmək avtomatik olaraq davranış pozuntusu və ya radikallaşma demək deyil; təsirin müddəti, məzmunu, uşağın fərdi xüsusiyyətləri və aldığı dəstək nəzərə alınmalıdır".

Validyen və müəllimlərin uşaqların davranışlarındakı davamlı dəyişikliklərə diqqət yetirməsinin vacibliyini vurğulayan psixoloq bildirib ki, əvvəlki münasibətlərdən kəskin uzaqlaşma, müəyyən insan qruplarına qarşı ardıcıl nifrət ifadələri, zorakılığa haqq qazandırma, onlayn təzyiq və təhdidlərə məruzqalma kimi hallar araşdırılmalıdır. Lakin fərqli geyim, yeni maraq, dini baxış və ya böyüklərlə razılaşmamaq özlüyündə təhlükə göstəricisi sayılmamalıdır. Qiymətləndirmə konkret davranışa, uşağın gündəlik həyatına və özünə, yaxud başqalarına zərər ehtimalına əsaslanmalıdır.

"Uşaqların zərərli ideoloji təsirlərdən qorunmasında qadağa və sərt nəzarətdən daha çox etibarlı ünsiyyətin qurulması, tənqidi düşüncənin inkişaf etdirilməsi, ailə və məktəbin birgə fəaliyyəti əhəmiyyət daşıyır. Əsas qoruyucu amillərdən biri uşağın etibar etdiyi böyüklə açıq ünsiyyət qura bilməsidir. Uşaq bilməlidir ki, onu narahat edən video, mesaj və ya dəvət barədə danışanda ilk cavab təhqir və cəza olmayacaq. Valideyn "Buna niyə baxmısan?" sualından əvvəl "Bu məzmun sənə nə düşündürdü?", "Səndən nə istəyirlər?", "Səni narahat edən nədir?" suallarını verə bilər. Sakit münasibət problemin vaxtında üzə çıxmasına şərait yaradır. Media savadlılığı gündəlik tərbiyənin bir hissəsi olmalıdır. Uşağa məlumatın müəllifini və mənbəyini yoxlamağı, faktla şəxsi rəyi ayırmağı, görüntünün kontekstini araşdırmağı öyrətmək lazımdır. Xüsusilə "Heç kimə demə", "Dərhal qərar ver", "Ailən səni anlamır, yalnız bizə inan" kimi çağırışların manipulyasiya əlaməti ola biləcəyini izah etmək vacibdir. Rəqəmsal qaydalar yaşa uyğun, aydın və mümkün qədər uşaqla müzakirə edilərək müəyyənləşdirilməlidir", - deyə Elnur Rüstəmov vurğulayıb.

Mütəxəssisin fikrincə, nəzarətlə yanaşı, uşağın təhlükəni özü tanımaq bacarığı da inkişaf etdirilməlidir. Təhsil müəssisəsində bullinqin qarşısının alınması, ədalətli münasibət, məktəb psixoloquna əlçatanlıq və sosial-emosional bacarıqların inkişafı bu işin mühüm hissəsidir. Milli dəyərlər də layihələr, ədəbiyyat müzakirələri, tarixi-mədəni məkanlara səfərlər və könüllülük fəaliyyəti vasitəsilə uşağın şəxsi təcrübəsi ilə əlaqələndirilə bilər. Uşaq cəmiyyətə fayda verə bildiyini gördükcə mənsubiyyət hissi daha konkret məna qazanır. Davamlı təcridolunma, ciddi emosional çətinlik və ya zorakılığı dəstəkləyən davranışlar müşahidə edilərsə, ailə ilə məktəb əməkdaşlıq etməli, ehtiyac olduqda ixtisaslı psixoloqun dəstəyi alınmalıdır. Konkret təhdid və ya istismar şübhəsi varsa, uşağın təhlükəsizliyi dərhal təmin edilməlidir. Bütün bu prosesdə məqsəd uşağı damğalamaqdan uzaq şəkildə onunla əlaqəni qorumaq, düşünmək və təhlükəsiz seçim etmək imkanlarını gücləndirməkdir.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

ZƏFƏR gündəliyi

5 noyabr 2020-ci il

Düşmən bütün cəbhələrdə itkilər verərək geri çəkilib



Noyabrın 5-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.


Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Goranboy, Tərtər və Ağcabədiyə mərmi atılıb

Səhər saatlarınadək Goranboy və Tərtər rayonlarının yaşayış məntəqələri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən fasilələrlə atəşə tutulub.

Səhər saat 07:50-də Ağcabədi rayonunun Qiyaməddinli kəndinə düşmən tərəfindən 4 ədəd mərmi atılıb.

Ağdam istiqamətində düşmənin xeyli sayda sursatı partladılıb



Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyalarına atəşlə zərər vurulub. Nəticədə şəxsi heyət arasında ölən və yaralananlar olub.

Atəş zərbəsi ilə düşmənin xeyli sayda sursatı partladılıb, artilleriya qurğuları tam sıradan çıxarılıb.

Saat 14:40-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Səhləabad kəndini, eləcə də Ağdam rayonunun Hacıturallı və Əfətli kəndlərini artilleriya atəşinə tutublar.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.

Erməni əsgəri silah-sursatını, texnikasını qoyub qaçıb



Ermənistan silahlı qüvvələri döyüş meydanında silah-sursatını, texnikasını qoyub qaçıblar. Müdafiə Nazirliyi qənimət olaraq ələ keçirilən hərbi texnikaların görüntüsünü yayıb.

Düşmənin 7-ci dağatıcı alayının qərargahı darmadağın edilib

Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulub.

Düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu məhv edilib.

Erməni hərbçilərin diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəhbəri, polkovnik-leytenant Anar Eyvazov Hərbi İnformasiya Mərkəzində brifinq keçirərək cəbhədəki son vəziyyətlə bağlı məlumat verib.

Qeyd edilib ki, Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumları, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görüb. Azərbaycan Müdafiə Nazirliyi ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırıb. Bütün videotəsvirlərdə aydın şəkildə görünüb ki, Azərbaycan Ordusu yaşayış məntəqələri və mülki infrastrukturu atəşə tutmayıb, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edib.

"Azərbaycan"



Vətən deyəndə...



● Zəfər zirvəsini fəth edənlər

Polkovnikin döyüş xatirələri

"Qələbə qazanacağımıza bir an belə şübhə etmirdik"

Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, Müharibə və Silahlı Qüvvələr veteranı, ehtiyatda olan polkovnik Mirqiyas Rüstəmov Yəhya oğlu ilə söhbətimizin əsas mövzusu Azərbaycan Ordusunun keçdiyi şərəfli döyüş yolu haqqında oldu.

M.Rüstəmov Füzulinin Kürdmahmudlu kəndində anadan olub. Ordu sıralarında leytenant rütbəsindən polkovnikədək yüksəlib. Hərbi hissələrdə, Müdafiə Nazirliyində, Naxçıvandakı Əlahiddə Ümumqoşun Orduda, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev Hərbi İnstitutu) çalışıb. Hazırda təqaüddə olan polkovnik Mirqiyas Rüstəmov deyir ki, dövlətin sarsılmazlığı Silahlı Qüvvələrdən, onun şəxsi heyətinin döyüş hazırlığından, təminat və təchizatından asılıdır: "Yurdunu qoruyan əsgər bizim üçün torpaq qədər müqəddəsdir. Çünki döyüşlərdə onun qanı torpağa tökülür. Torpaq da dəyərini sanki döyüşçünün qanından, onun şücaətindən alır. Vətənə şöhrəti də belə qəhrəman oğullar qazandırır. Ümummilli Lider Heydər Əliyev böyük uzaqgörənliklə demişdir: "Əgər qan tökülmürsə, o Vətən Vətən deyil, şəhid olmasa, o Vətən müstəqil ola bilməyəcək... Ya ayağa qalxıb torpaqlarımızı azad etməli, ya məhv olmalı, ya da millət olmadığımızı etiraf etməliyik".

Mirqiyas Rüstəmov ötən əsrin sonlarında müstəqilliyimizin bərpa olunmasından da söz açdı: "1991-ci il oktyabrın 18-də Azərbaycan xalqı müstəqilliyini bərpa etdi. Amma bunu istəməyən dövlətlər, həmçinin bəzi qonşularımız erməni seperatçılarından siyasi vasitə kimi istifadə edərək müstəqilliyimizə maneələr törətməyə çalışırdılar. Suriyadan, Livandan, Fransadan, Liviyadan və digər ölkələrdən gətirilmiş erməni terror qruplaşmaları ölkəmizin ərazilərini işğal etmək üçün təxribatlar törədirdilər. Həmin günlər bölgələrdə yenicə yaradılmış könüllü batalyonlardan ibarət ordu qüvvələri müstəqilliyimizi qorumaq üçün bu qruplaşmalara qarşı cəsarətlə döyüşürdülər. Xatırlayıram ki, o çətin günlərdə Füzulidə yüzlərlə könüllü silaha sarılaraq ərazilərimizin müdafiəsinə qalxmışdı. Düşmən işğalçılıq planını həyata keçirmək üçün Qarabağın, hərbi plasdarmı olan Füzuli şəhərini və ətraf kəndləri atəşə tuturdu. Şəhər üzərinə tanklardan, toplardan, təyyarələrdən mərmilər yağdırılırdı. Havadarlarına güvənən Ermənistan Qarabağda Azərbaycana qarşı elan olunmamış müharibəyə başlamışdı. 1992-ci ilin aprelində ermənilər beynəlxalq hüququ kobud şəkildə pozaraq "Daşnaksütyun" partiyasının fəalı, qatı millətçi Levon Mkrtçyanı qondarma rejimin "prezident"i seçdilər. Həmin dövrdə Qarabağda aparılan separatçı siyasətin dəllalları Robert Köçəryan və Serj Sarkisiyan onu qısqanırdılar. Onlar Mkrtçyanı aradan götürmək üçün hiyləyə əl atdılar. 1992-ci il aprelin 11-də terror qruplaşmaları yenicə seçilmiş "prezident"in rəhbərliyi altında Füzulinin Cəmilli kəndinə hücum etdilər. Məqsəd qonşu Qacar kəndini ələ keçirməklə Qırmızı Bazar qəsəbəsinin müdafiəsini təmin etmək və Füzuli-Şuşa meşə yolunu bağlamaq idi. Rayonun müdafiəsini təşkil edən Füzuli ərazi özünümüdafiə taboru və çevik polis dəstəsi düşmənə sarsıdıcı zərbələr endirdi. Cəsur döyüşçülərimizin igidliyi sayəsində işğalçıların onlarla canlı qüvvəsi məhv edildi, silah-sursatı və BTR-60 döyüş maşını qənimət götürüldü. Ermənilərə özünü "qəhrəman" kimi sırıyan Mkrtçyanı ölümcül yaralandı. İki gündən sonra onun xəstəxanada öldüyünü eşitdik".



Sözünə davam edən M.Rüstəmov onu da dedi ki, Cənubi Qafqazda hökm sürən ağır hərbi-siyasi vəziyyət ölkəmizdə çətin iqtisadi durum yaratmışdı: "Buna görə də Qərb ölkələri Azərbaycanla neft müqavilələri bağlamağa tələsmirdi. Ermənistanın ərazilərimizi işğalı nəticəsində köçkün dalğası ölkəni bürümüşdü. Yaranmış gərgin hərbi-siyasi vəziyyəti sabitləşdirmək məqsədilə Prezident Heydər Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimiz 5 yanvar 1994-cü ildə Beyləqan-Xocavənd, Əhmədbəyli-Horadiz istiqamətlərində əks-hücuma keçərək Horadiz şəhərini və 30-a yaxın yaşayış məntəqəsini bir neçə saat ərzində işğaldan azad etdi. Döyüşlər zamanı işğalçı qüvvələr darmadağın olundu. Qəsbkarlar xeyli canlı qüvvə, silah-sursat və döyüş texnikası itirdilər. Bir neçə T-72 tankını, topları, xeyli silah-sursat və işlək texnikalarını ataraq mövqelərindən qaçdılar. Ağır məğlubiyyətə uğramış düşmən həmin günlər havadarlarının hərbi və siyasi dəstəyi ilə Murovdağ silsiləsində qoşunlarımıza zərbələr endirməyə cəhd göstərdilər. Ali Baş Komandan Heydər Əliyevin zamanında qəbul etdiyi qərarla Füzuli istiqamətindəki "N" hərbi hissə dərhal Murovdağa göndərildi. Qoşunlarımız qısa müddət ərzində terror qruplaşmalarının qarşısını qətiyyətlə aldı, təhlükə sovuşdu. Bundan sonra 9 aprel 1994-cü ildə Prezident Heydər Əliyev Füzuliyə səfəri zamanı "N" hərbi hissənin şəxsi heyəti ilə görüşdü. Horadiz əməliyyatında qazandıqları qələbəyə görə onları təbrik etdi. Ümummilli Lider döyüşçülərin qarşısında çıxışı zamanı dedi: "Mənə məlumat verdilər ki, siz burada möhkəm dayanmısınız, xeyli ərazini düşməndən azad etmisiniz. Ancaq bizim torpaqların xeyli hissəsi hələ işğal altındadır. Bax elə lap yaxınlıqdakı kəndlər də düşmənin əlindədir. Bunları geri almaq lazımdır". Ulu Öndər görüş zamanı ön cəbhədə xidmət edən zabitlərə vaxtından əvvəl hərbi rütbələrin verilməsi barədə müdafiə nazirinə tapşırıqlar verdi. Tapşırıq dərhal yerinə yetirildi.

Həmin günlər erməni terror qruplaşmaları Tərtər istiqamətində də hücuma başladılar. Bu gözlənilməz əməliyyat cəbhədə gərginlik yaratdı. Onu aradan qaldırmaq üçün Füzuli istiqamətində döyüş tapşırığı yerinə yetirən hərbi hissələrin bəziləri Tərtərə göndərildi. Həmin vaxt qonşu dövlətlərin bəziləri işğalçılara yeni qüvvələr göndərirdilər. Buna görə də həmin istiqamətdə döyüşlər çox gərgin keçdi. Arxasında böyük dövlətlərin dayanmasına baxmayaraq, erməni işğalçıları Tərtər cəbhəsində xeyli canlı qüvvə və 200-dən çox döyüş texnikası itirərək irəli gələ bilmədi. Düşmən 1994-cü ilin yanvar və may aylarında aparılmış döyüş əməliyyatlarında düçar olduğu məğlubiyyəti açıq etiraf etdi. Ermənistan daha ağır itkilərə məruz qalacağından qorxaraq Azərbaycan Ordusunun qarşısında diz çöküb 12 may 1994-cü ildə atəşkəsi imzaladı".

2020-ci il sentyabrın 27-də torpaqlarımızın azadlığı uğrunda İkinci Qarabağ müharibəsi başlayanda xalqımız ayağa qalxdı. Vətən qeyrəti çəkən oğullar könüllü olaraq cəbhəyə yollandılar. Ali Baş Komandan İlham Əliyev cəbhədə yaranmış vəziyyəti nəzərdən keçirərək ordu rəhbərliyinə düşmən təxribatlarının qarşısının alınması və əks-hücum əməliyyatının aparılması haqqında əmr verdi.

İşğalçıların qarşısının alınması üçün hərbi hissələrimiz qüvvələri ilk növbədə Murovdağ, Suqovuşan və Ağdam istiqamətinə yönəltdi. Bununla düşmənin daha çox istiqamətlərdə cəmləşməsinə nail oldu. İşğalçıya o da məlum idi ki, Ermənistan hərbi-siyasi rəhbərliyi ordumuzun hücumlarını əsasən Ağdamda gözləyirdi. Amma Azərbaycan Ordusu uğurlu manevr edərək düşmənə güclü zərbəni Füzuli istiqamətindən endirdi. Gözlənilməz zərbədən çaş-baş qalmış işğalçılar döyüşçülərimizin qarşısında çox dayana bilmədi. Elə müharibənin birinci günündə ağır itkilər verərək Qaraxanbəyli kəndindən, həmçinin Araz çayı boyunca tutduqları mövqelərindən geri çəkildilər. Beləcə, müharibənin ilk günlərindən düşmənin müqaviməti qırıldı. Qoşunlarımız Cəbrayıl, Xocavənd rayonları, Hadrut qəsəbəsi və başqa istiqamətlərdə irəliləməyə başladı.

Eyni zamanda ordumuz Suqovuşan istiqamətində düşmənə sarsıdıcı zərbələr vurdu. Oktyabrın 3-də Suqovuşan, 4-də Cəbrayıl, 9-da Hadrut qəsəbəsi azad olundu. Oktyabrın 17-də isə Füzuli şəhəri işğalçılardan təmizləndi. Dayanmadan irəliləyən ordumuz oktyabrın 20-də Zəngilanı, 25-də Qubadlını, noyabrın 8-də Şuşanı işğalçılardan azad etdi. Diz çökdürülən Ermənistan silahlı qüvvələri darmadağın olundu. İşğalçılar ağ bayraq qaldırıb təslim oldular. Ermənistan rəhbərliyi noyabrın 10-da təslimçilik aktı olan üçtərəfli bəyanata imza atdı. Üçtərəfli Bəyanat imzalandıqdan sonra Ermənistan qoşunlarının tör-töküntülərini döyüşsüz Ağdam, Laçın və Kəlbəcərdən çıxardı. 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının dillərdə dastan olmuş zəfəri ilə başa çatdı.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

● Tarix yazan oğullar

Şəhidin bayraq arzusu

Azad Şuşada Azərbaycan bayrağını dalğalandırmaq onun ən böyük arzusu idi. Ağır döyüşlərdə bir an belə ayrılmadığı müqəddəs bayrağımız baş leytenant Ruslan Bayramova cəsarət, güc verib qələbəyə səsləyirdi.

O, 1996-cı il oktyabrın 5-də Qubanın Əlibəyqışlaq kəndində dünyaya göz açmışdı. Ailənin üçüncü övladı idi. Ruslan uşaqlıq illərindən hərbçi olmaq istəyirdi. Bu arzu onu 2012-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə gətirdi. Oranı bitirdikdən sonra - 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub təhsilini uğurla başa vurdu.

2019-cu ildə ailə həyatı quran Ruslan Naxçıvan Muxtar Respublikasının "N" saylı hərbi hissəsində xidmət edib. Həmin vaxtlar o, Naxçıvan Xüsusi Təyinatlılarının kursunu da başa vurub.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Ruslan Bayramov artıq təcrübəli zabit idi. Ancaq işğalçılara qarşı şiddətli döyüşlərin ilk anlarında bir daha əmin olmuşdu ki, müharibədə zəfər çalmaq üçün bununla yanaşı, qəlbində Vətən sevgisi və mübarizə əzmi güclü olmalıdır.



Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin tərkibində Hadrutun və Xocavənd ətrafındakı yüksəkliklərin azad edilməsi uğrunda əməliyyatlarda iştirak edən Ruslan Bayramov böyük şücaət göstərdi. Döyüşlərin birində komandiri yaralananda tağıma rəhbərlik etmək məsuliyyəti onun üzərinə düşmüşdü. O, üzərinə düşən bu vəzifəni layiqincə yerinə yetirdi. Göstərdiyi şücaətə görə ona baş leytenant rütbəsi verildi.



Şiddətli döyüşlərdə ağır sınaqlardan keçən igid kəşfiyyatçı Azərbaycan torpaqlarının Ermənistanın əsarətindən qurtulması naminə aparılan Vətən müharibəsində düşmənin çoxsaylı canlı qüvvəsinin və hərbi texnikasının sıradan çıxarılmasında iştirak edib. Döyüşçü kimi qədəm basdığı Qarabağ və Şərqi Zəngəzur ərazilərini gördükcə düşmənə qarşı hiddəti daha da artıb. Döyüş yoldaşları deyirlər ki, Ruslanın arzusu Şuşaya bayraq sancmaq idi. Döyüşdən-döyüşə atılan baş leytenant Azərbaycan bayrağından ayrılmadı.

Şuşa uğrunda döyüşlər Vətən müharibəsinin ən ağır mərhələlərindən biri idi. Ruslan Bayramov bu döyüşlərdə Azərbaycan tarixinə qəhrəmanlıq salnaməsi yazan igidlərin sırasında oldu. Ancaq o, arzusunda olduğu böyük Zəfəri görə bilmədi. Ruslan Bayramov qızğın döyüşlərin birində snayper gülləsinə tuş gələrək şəhid oldu.

Ruslan Bayramovun Vətən qarşısındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. Qəhrəman baş leytenant ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunması uğrunda", "Xocavəndin azad olunması uğrunda", "Füzulinin azad olunması uğrunda" medalları ilə təltif olunub.

Müharibə Ruslan kimi minlərlə Azərbaycan oğlunun ömrünü, arzularını yarıda qoydu. Şəhid Ruslan Bayramovun da arzuları yarımçıq qaldı. Arzu adını verdiyi qızını ancaq şəkillərdə görmüşdü. Körpə balasını bircə dəfə də bağrına basa bilməmişdi.... Şuşada bayrağımızı dalğalandırmaq arzusuna da çata bilmədi. Ruslanın və onun kimi minlərlə igidimizin həmin arzusu 6 ildir ki, çindir - nəinki Şuşada, bütün Qarabağ və Şərqi Zəngəzurda müqəddəs bayrağımız dalğalanır.

Zöhrə FƏRƏCOVA,
"Azərbaycan"

Gəncədə Milli Qəhrəman Natiq Qasımova həsr edilmiş filmin təqdimatı keçirilib





Gəncədə Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun xatirəsinə həsr olunmuş, "SOY Production" tərəfindən istehsal edilən "Düşmənə qarşı tək" qısametrajlı filmin təqdimatı keçirilib.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Milli Məclisin deputatı Pərvin Kərimzadə, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Milli Qəhrəmanın ailə üzvləri, şəhid ailələri, idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirak etdikləri mərasimdə "SOY Production" şirkətinin rəhbəri, Əməkdar artist Dilarə Əliyeva çıxış edərək filmin ərsəyə gəlməsinə göstərilən təşkilati dəstəyə görə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramova dərin təşəkkürünü bildirib. O, layihənin hazırlanması prosesindən bəhs edərək qeyd edib ki, süni intellekt texnologiyasının imkanlarından istifadə edilməklə ərsəyə gətirilən film Natiq Qasımovun həyat və döyüş yolunu ekran vasitəsilə yenidən canlandırıb: "Bu ekran əsəri qəhrəmanımızın şücaətini daha geniş auditoriyaya çatdırmaq, onun əziz xatirəsini yaşatmaq və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə töhfə vermək baxımından xüsusi əhəmiyyət daşıyır".

Çıxış edən YAP şəhər təşkilatının sədri Bayram Aslanov isə Milli Qəhrəman Natiq Qasımovun göstərdiyi misilsiz qəhrəmanlığın xalqımızın yaddaşında daim yaşayacağını vurğulayıb. Qeyd edib ki, bu cür ekran əsərləri gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında, milli-mənəvi dəyərlərə bağlılığının gücləndirilməsində və qəhrəmanlarımızın tanıdılmasında mühüm rol oynayır.

Sonda Milli Qəhrəmanın qardaşı Nofəl Qasımov qardaşı ilə bağlı xatirələrini bölüşüb, onun Vətənə bağlılığından və göstərdiyi şücaətdən danışıb. O, qardaşının xatirəsinə göstərilən diqqətə, eləcə də onun həyat və döyüş yolunun ekranlaşdırılmasına görə filmin yaradıcı heyətinə və ona dəstək verənlərə minnətdarlığını bildirib.

Mərasim "Düşmənə qarşı tək" filminin nümayişi ilə yekunlaşıb.

Sabir ƏLİYEV,
"Azərbaycan"

Şəhid məzarlarını ziyarət



Lənkəranda Vətən müharibəsi şəhidləri Elnur Talıbovun, Əli Mehdizadənin və Kənan Axundzadənin anım günləri qeyd olunub.

Şəhər icra hakimiyyətinin və ictimaiyyətin nümayəndələri şəhidlərin Kiçik Bazar, Şiləvar və Girdəni kənd qəbiristanlıqlarındakı məzarlarını ziyarət ediblər. Şəhidlərin məzarları önünə tər çiçəklər düzülüb və ruhlarına dualar oxunub. ŞİH-in başçısı Taleh Qaraşov şəhid ailələrinin qayğı və problemləri ilə maraqlanıb, dövlətin hər zaman onların yanında olduğunu deyib.

Şəhidlərin ailə üzvləri də onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Seyran CAVADOV,
"Azərbaycan"

Alternativ enerjidə Azərbaycanın yeri və rolu: mövcud imkanlar, strateji layihələr və gələcək perspektivlər

Müasir dövrdə enerji təhlükəsizliyi, iqtisadi inkişaf və ekoloji dayanıqlılıq beynəlxalq münasibətlərin əsas prioritetlərindən birinə çevrilib. Azərbaycanın coğrafi mövqeyi, Xəzər dənizindəki enerji ehtiyatları, əlverişli Günəş və külək şəraiti, inkişaf etmiş enerji infrastrukturu, eləcə də Avropa ilə Asiya arasında yerləşməsi ölkəyə enerji sahəsində xüsusi strateji üstünlüklər qazandırır. Xüsusilə son illərdə "yaşıl enerji" siyasətinin genişləndirilməsi Azərbaycanın enerji strategiyasında yeni mərhələnin başlanğıcını qoyub.

Azərbaycanın alternativ enerji imkanları kifayət qədər genişdir. Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin məlumatlarına əsasən, ölkənin bərpaolunan enerji mənbələri üzrə iqtisadi cəhətdən səmərəli və texniki baxımdan yararlı potensialı təxminən 27 min meqavat (MVt) qiymətləndirilir. Bu potensialın mənbələr üzrə bölgüsü belədir: Günəş enerjisi üzrə 23 min MVt, külək enerjisi üzrə 3000 MVt, bioenerji üzrə 380 MVt, dağ çaylarının hidroenerji potensialı üzrə isə 520 MVt.

Bununla yanaşı, Xəzər dənizinin Azərbaycan sektorunda dəniz külək enerjisinin texniki potensialı 157 giqavat (GVt) qiymətləndirilir. Bu göstərici Azərbaycanın gələcəkdə yalnız daxili enerji tələbatını ödəyən deyil, həm də böyük həcmdə "yaşıl elektrik enerjisi" ixrac edən ölkəyə çevrilə biləcəyini göstərir.





Ötən il külək və günəş-elektrik stansiyalarında ümumilikdə 769,5 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub. Bu göstərici əvvəlki illə müqayisədə 162,3 milyon kilovat-saat artıb. Bu da ölkədə alternativ enerji istehsalının genişləndirilməsinin konkret göstəricisidir.

Azərbaycanın "yaşıl enerji" strategiyasının mühüm istiqamətlərindən biri beynəlxalq investisiyaların cəlb edilməsi və iri enerji layihələrinin həyata keçirilməsidir. Qaradağ Günəş-Elektrik Stansiyası bu sahədə mühüm layihələrdən biridir. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində inşa edilmiş stansiyanın gücü 230 MVt-dır. Stansiyanın ildə təxminən 500 milyon kilovat-saat elektrik enerjisi istehsal etməsi, 110 milyon kubmetr təbii qaza qənaət olunmasına və atmosferə atılan karbon emissiyalarının 200 min ton azaldılmasına imkan yaradacağı gözlənilir.

Digər mühüm layihə Xızı-Abşeron Külək-Elektrik Stansiyasıdır. Gücü 240 MVt olan bu layihə Azərbaycanın külək enerjisi potensialından istifadənin genişləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

İşğaldan azad edilmiş ərazilərdə də alternativ enerji layihələri həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları hidroenerji, günəş və külək enerjisi baxımından böyük imkanlara malikdir. Energetika Nazirliyinin məlumatına əsasən, azad edilmiş ərazilərdə ümumi gücü 307 MVt olan 38 kiçik su-elektrik stansiyası fəaliyyət göstərir. Əlavə olaraq, 48,5 MVt gücündə 11 stansiyanın tikintisi nəzərdə tutulur.

Cəbrayıl rayonunda isə 340 MVt gücündə Şəfəq Günəş-Elektrik Stansiyası layihəsi həyata keçirilir. Bu layihələr həmin ərazilərin enerji təminatının yaxşılaşdırılması ilə yanaşı, Qarabağın "yaşıl enerji" zonasına çevrilməsinə də xidmət edir.

Azərbaycanın enerji siyasətində əsas məqsədlərdən biri alternativ enerji istehsalını artırmaqla yanaşı, ölkəni regionun mühüm enerji tranzit mərkəzinə çevirməkdir. Bu baxımdan Xəzər dənizi, Cənubi Qafqaz və Avropa arasında yaradılan enerji əlaqələri xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın tranzit imkanları bir neçə mühüm amilə əsaslanır. Bunlara Xəzər dənizi vasitəsilə Mərkəzi Asiya ölkələri ilə enerji əməkdaşlığı, Gürcüstan vasitəsilə Qara dənizə və Avropa bazarlarına çıxış, eləcə də Türkiyə üzərindən Avropa enerji bazarına inteqrasiya daxildir. Bu amillər Azərbaycanın ənənəvi enerji tranzitində qazandığı təcrübəni gələcəkdə "yaşıl enerji" sahəsinə də tətbiq etməsinə imkan yaradır.

Azərbaycanın alternativ enerji tranziti üzrə ən mühüm strateji layihələrindən biri Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizidir. 2022-ci il dekabrın 17-də Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi üzrə strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Layihənin əsas məqsədi Xəzər dənizində və Azərbaycanda istehsal ediləcək bərpaolunan elektrik enerjisinin Gürcüstan vasitəsilə Qara dənizdən keçən sualtı elektrik kabeli ilə Rumıniyaya və digər Avropa ölkələrinə çatdırılmasıdır.

Bu il layihənin texniki-iqtisadi əsaslandırmasının tamamlanması və beynəlxalq investorlara təqdim edilməsi onun praktiki icrası baxımından mühüm mərhələ olub. Layihə reallaşarsa, Azərbaycan Avropanın enerji təchizatında yalnız təbii qaz deyil, həm də bərpaolunan elektrik enerjisi üzrə mühüm tərəfdaşlardan birinə çevrilə bilər.





Azərbaycanın "yaşıl enerji" tranzitində digər mühüm istiqamət Mərkəzi Asiya ölkələri ilə enerji əməkdaşlığıdır. Bu əməkdaşlığın məqsədi Mərkəzi Asiyanın günəş və külək enerjisi potensialını Xəzər dənizi üzərindən Azərbaycanla əlaqələndirmək, daha sonra isə Avropa bazarlarına ötürməkdir. Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı da Xəzər Yaşıl Enerji Dəhlizinin texniki-iqtisadi araşdırmalarına dəstək göstərmək məqsədilə bu prosesə cəlb olunub.

Bu layihənin əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan gələcəkdə Mərkəzi Asiyada istehsal edilən "yaşıl enerji"nin Avropa istiqamətində ötürülməsində əsas əlaqələndirici ölkələrdən birinə çevrilə bilər. Beləliklə, ölkənin enerji tranzitindəki rolu Xəzərin qərb sahilindən Avropaya uzanan yeni elektrik enerjisi marşrutları hesabına daha da genişlənə bilər.

Aparılan təhlil göstərir ki, Azərbaycan alternativ enerji istehsalı və tranziti sahəsində mühüm regional və beynəlxalq potensiala malikdir. Ölkənin 27 GVt həcmində iqtisadi cəhətdən səmərəli bərpaolunan enerji potensialı, Xəzər dənizindəki 157 GVt-lıq texniki külək enerjisi potensialı, mövcud enerji infrastrukturu və əlverişli coğrafi mövqeyi bu sahədə strateji üstünlüklər yaradır.

Xüsusilə Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi və Mərkəzi Asiya-Azərbaycan enerji əməkdaşlığı ölkənin gələcək tranzit strategiyasının əsas istiqamətlərindəndir. Bu layihələrin reallaşması Azərbaycanı təkcə neft və qaz ixracatçısı deyil, həm də beynəlxalq "yaşıl elektrik enerjisi" ticarətinin mühüm iştirakçılarından birinə çevirə bilər.

Beləliklə, Azərbaycanın enerji siyasətində baş verən transformasiya ənənəvi enerji ixracından alternativ enerji istehsalı və tranzitinin genişləndirilməsinə doğru strateji keçidi ifadə edir. Bu keçidin uğuru investisiyaların həcmi, infrastrukturun inkişafı, beynəlxalq əməkdaşlıq və texnoloji modernləşmədən asılı olacaq. Uzunmüddətli perspektivdə Azərbaycan Avropanın enerji təhlükəsizliyinə töhfə verən, Mərkəzi Asiya ilə Avropa arasında enerji körpüsü rolunu oynayan və "yaşıl enerji" bazarında mövqeyini möhkəmləndirən regional enerji mərkəzinə çevrilə bilər.

AZƏRTAC

Paytaxtda Zəfər Gününə həsr edilən mini futbol yarışları başa çatıb

Bakı Şəhər İcra Hakimiyyəti, Regional İnkişaf İctimai Birliyi və Bakı Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Vətən müharibəsində qazanılmış Şanlı Qələbənin 6-cı ildönümünə həsr olunan Bakı şəhər rayonlarını əhatə edən abad məhəllələrarası "Zəfərlə İrəli" mini futbol turnirinə yekun vurulub.



"Bakı 2026 - Dünyanın İdman Paytaxtı" seçilməsi ilə əlaqədar keçirilən silsilə tədbirlər çərçivəsində 2014-2015-ci il təvəllüdlü yeniyetmələr arasında rayon və şəhər olmaqla 2 mərhələdən ibarət futbol yarışmasının əsas məqsədi yeniyetmə və gənclərdə vətənpərvərlik ruhunun gücləndirilməsi, onlarda sağlam həyat tərzinin təşviq edilməsi və idmanla məşğul olmağa cəlb edilməsidir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə paytaxtın qəsəbə və yaşayış məntəqələrində həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində yaradılan abad məhəllələrdəki mini-futbol stadionlarında təşkil edilən yarışlar olimpiya sistemi üzrə keçirilib və ümumilikdə 1300-ə yaxın yeniyetmə idmançının yer aldığı 112 komanda iştirak edib.





Turnirin birinci mərhələsi oktyabrın 30-na kimi paytaxtın rayonlarında yekunlaşıb, daha sonra isə rayon turlarının qalibləri Bakı şəhər mərhələsində yarışıblar.

Respublika səviyyəli hakimlərin iştirakı ilə təşkil edilən turnirə final oyunları ilə yekun vurulub. Tədbirin əvvəlində tanınmış müğənni Elnarə Xəlilova və "Döngə" qrupu iştirakçılar qarşısında çıxış ediblər. Rəsmi açılış mərasimindən sonra final oyunu keçirilib.

Final oyununda Bakının Nizami və Qaradağ rayonlarının komandaları görüşüblər. 4-3 hesabı ilə qalib gələn Nizami rayonunun komandası turnirin qalibi olub. Üçüncü yerə Xəzər rayonunun təmsilçiləri çıxıblar.

Turnirin qalibləri fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar. Tədbirin sonunda atəşfəşanlıq keçirilib və xatirə şəkli çəkdirilib.

"Azərbaycan"

Rayonlarda leysan olacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Gecəyə doğru yarımadanın ayrı-ayrı yerlərində intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Səhər arabir duman olacaq. Mülayim cənub-qərb küləyi axşama doğru güclü şimal-qərb küləyi ilə əvəz olunacaq.



Havanın temperaturu gecə 12-16° isti, gündüz 18-21° isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 752 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı, axşam yağıntıların bir qədər güclənəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Arabir güclənən qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 9-14° isti, gündüz 18-23° isti, dağlarda gecə 3-8° isti, gündüz 12-17° isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-8° isti, gündüz 15-19° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöldə hava əsasən yağmursuz olacaq. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qara keçəcəyi, axşam yağıntıların bir qədər güclənəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-10° isti, gündüz 12-17° isti, bəzi yerlərdə 20° isti olacağı gözlənilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz olacaq. Lakin gecə və səhər dağlıq ərazilərdə, axşama doğru isə bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-8° isti, gündüz 10-15° isti, bəzi yerlərdə 18-20° isti təşkil edəcək.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz olacaq. Lakin gecə dağlıq ərazilərdə, gündüzdən isə bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 9-12° isti, gündüz 15-20° isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz olacaq. Lakin gecə və səhər dağlıq ərazilərdə, gündüzdən isə bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-13° isti, gündüz 18-22° isti, dağlarda gecə 9-11° isti, gündüz 14-17° isti olacaq.

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Emil Əliyevə əzizi

MÜŞVİQ ƏLİYEVİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Anar Rzayevə anası

TÜNZALƏ XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3277
Sifariş 1468

Qiyməti 60 qəpik